Xalqın qəzeti!

# Xalq qəzeti

№ 269 (30673) 6 dekabr 2024-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


**Prezident İlham Əliyev:**

**Qərbi Azərbaycan İcması uzun illər deportasiyaya məruz qalmış İcma kimi öz hüquqlarından məhrum idi. Əlbəttə ki, Qarabağ dərdi, problemi olan yerdə Qərbi azərbaycanlıların hüquqlarından danışmaq, bəlkə də, vaxtından əvvəl atılan bir atəşə bənzəyə bilərdi. Amma bu gün hesab edirəm ki, biz tam haqlı olaraq bu mövzunu artıq beynəlxalq arenaya çıxarmışıq.**

## Qarabağ və Şərqi Zəngəzurda "günəşli" həyat

*Bölgədə 550-dən çox tikilidə günəş panelləri quraşdırılıb*



**"Yaşıl" enerjiyə keçid ölkəmizin dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. İşğaldan azad edilmiş ərazilərdə də bərpa olunan enerji mənbələrindən istifadə edilərək, dayanıqlı enerji istehsalına yönələn genişmiqyaslı layihələr həyata keçirilir.**

(ardı 8-ci səhifədə)

## İrəvanın anti-KTMT xətti və Aİİ müstəvisi

*Erməni baş nazirin əsas məqsədi nədir?*

**Ermənistanın anti-Rusiya ritorikasının Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı seqmentinin olduğunu bilirik. Görünür, buraya Avrasiya İqtisadi İttifaqı da əlavə olunmaqdadır. Hərçənd, sırf Aİİ müstəvisində digər məqamı da vurğulamaq mümkündür və bu barədə sonda söz açacağıq.**



Bəli, Ermənistan baş naziri Nikol Paşinyan ölkə parlamentindəki çıxışında həm Aİİ, həm də KTMT müstəvisində fikirlərini açıqlayıb. Birincidən başlayaraq deyək ki, erməni hökumət rəhbəri Aİİ-yə Ermənistanın rotasiya qaydasındakı sədrliyindən danışıb. Daha doğrusu, o, sədrlik səbəbindən təşkilatın İrəvanda keçirilməli olan yüksək səviyyəli toplantısının Rusiyada təşkili məsələsinə münasibət bildirib. Yəni, tədbirin nəyə görə İrəvanda deyil, Sankt-Peterburqda düzənlənməsinə. Söhbət Ali Avrasiya İqtisadi Şurasının sammitindən gedir. O sammitdən ki, ona Aİİ-yə üzv dövlətlərin rəhbərləri qatılacaqlar.

(ardı 4-cü səhifədə)

# Qərbi Azərbaycanlıların Qayıdışı beynəlxalq hüququn tələbidir



**Hazırda dünyada 120 milyondan çox insan məcburi köçürülmə problemi ilə qarşılaşmışdır və beynəlxalq ictimaiyyətin birgə səyləri olmadan bu problemin effektiv həlli mümkünsüzdür.**

**Azərbaycan xalqı da ötən əsrin əvvəllərindən başlayaraq köçkünlük problemi ilə üzləşmişdir. Qərbi Azərbaycanda – indiki Ermənistan ərazisində yaşayan azərbaycanlılar etnik təmizləməyə məruz qalaraq, tarixi Vətənlərindən mərhələli şəkildə zorla çıxarılmışlar. 1918–1921, 1948–1953 və 1987–1991-ci illərdə daha dəhşətli xarakter almış köçürmələr nəticəsində yüz minlərlə azərbaycanlı dədə-baba yurdunu tərk edərək Azərbaycana sığınmışdır. Bu dəhşətli deportasiyalardan sonra Ermənistanda bir nəfər belə azərbaycanlı qalmamış və Ermənistan monoetnik dövlətə çevrilmişdir.**

*(Prezident İlham Əliyevin "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda II beynəlxalq konfransın iştirakçılarına müraciətindən).*

## *Ermənistan soydaşlarımızın sivil qayıdışını təmin etməlidir*

**Dekabrın 5-də Bakıda Qərbi Azərbaycan İcmasının "Qayıdış hüququ – Ermənistandan zorla çıxarılan azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda II beynəlxalq konfransının açılışı olub.**

Əvvəlcə Qərbi Azərbaycan İcması haqqında qısametrajlı film nümayiş etdirilib.

Sonra Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Prezident İlham Əliyevin konfrans iştirakçılarına müraciətini oxuyub.

Daha sonra Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən, Qərbi Azərbaycan həqiqətlərinin təbliği sahəsində fərqlənən bir qrup şəxs təltif edilib.

Konfransda çıxış edən Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupunun rəhbəri, Milli Məclisin deputatı Əziz Ələkbərli tədbirin Ermənistandan azərbaycanlıların zorla çıxarılmasına, tarixi və mədəni irsimizə vurulmuş zərərlərə beynəlxalq ictimaiyyətin diqqətini cəlb etmək, qayıdış hüququmuzun təmin edilməsi və ədalətli əsaslarla sülh və barışıq üzrə müzakirələr aparmaq üçün vacib bir platforma olduğunu bildirib.

O, Qərbi Azərbaycan İcması olaraq öz doğma yurdlarına qayıtmaq istəyən yüz minlərlə azərbaycanlının qayıdış hüququ uğrunda mübarizə apardığını deyib: "Təşkilatımız 1989-cu ildən fəaliyyət göstərir. Bu istiqamətdə gördüyümüz işlər Azərbaycan dövlətinin prinsipial və davamlı dəstəyi ilə həyata keçirilir. Xüsusilə, 2022-ci ilin dekabr ayında icmamızı ziyarət edən Prezident İlham Əliyevin İcmanın fəaliyyətinə göstərdiyi diqqət səylərimizi daha da gücləndirmək üçün bizi ruhlandırıb. Prezident İlham Əliyevin konfrans iştirakçılarına bugünkü müraciətində ifadə etdiyi dəstək və qiymətli tövsiyələr böyük əhəmiyyət kəsb edir. Müraciətdə haqq işimizə verilən yüksək dəyər icmamızın hər bir üzvü üçün güclü motivasiya mənbəyidir", – deyə Ə.Ələkbərli diqqətə çatdırıb.

(ardı 9-cu səhifədə)

## Makron Fransası "siyasi turbulentdə"

*Hökumətin istefası ölkəni yeni böhrana sürükləyir*



**Fransa prezidenti Emmanuel Makron növbəti ciddi siyasi böhranla üz-üzə qalıb. Dekabrın 4-də Milli Assambleya prezidentin formalaşdırdığı Nazirlər Kabinetinə etimadsızlıq göstərdi. Prezident Emmanuel Makron isə istefa verməyə tələsmir, əksinə, yeni hökumət başçısının təyin edilməsi üzərində işlədiyi iddia olunur. Amma bunun heç də asan başa gəlməyəcəyi bildirilir.**

Fransa Milli Assambleyası Mişel Barnye hökumətinə etimadsızlıq göstərdi. Beşinci Respublika tarixində bu, yalnız bir dəfə baş vermişdi: 1962-ci ildə deputatlar Baş nazir Jorj Pompidunu istefaya göndərmişdilər. Buna görə də Fransa yeni ilə hökumətsiz və büdcəsiz daxil olacaq. İndi prezident Emmanuel Makron yeni baş nazir təyin etməli, Milli Assambleya isə onun təklif etdiyi namizədi təsdiqləməlidir. Amma bunun heç də asan olmayacağı bildirilir. Məsələ ondadır ki, parlamentdə heç bir partiya çoxluğa malik deyil və yeni siyasi "kamikadze"nin təsdiqlənməsi çox çətin olacaq. Bu yay baş nazirin seçilməsi və onun təsdiq prosesi iki ay yarım çəkmişdi.

Bundan başqa, bir çox fransız şərhçinin qeyd etdiyinə görə, hökumətin istefası Fransada prezident Makronun parlamenti buraxmasından və növbədənkənar seçkilərdən sonra davam edən ciddi siyasi böhranı daha da gücləndirəcək. Fransa Konstitusiyasına görə, əvvəlki seçkilərdən bir il sonra yeni seçkilər təyin edilə bilməz. Buna görə də, Fransada siyasi və iqtisadi qeyri-sabitliyin daha da pisləşəcəyi proqnozlaşdırılır. Mişel Barnye da çıxışı zamanı bildirdi ki, hökumətin istefası ölkənin maliyyə problemlərini həll etməyəcək.

(ardı 10-cu səhifədə)

## İqtisadi artım bahalaşmanın qarşısını alır

*10 ayda ölkəmizdə inflyasiya cəmi 1,7 faiz olub*



**Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin yanvar–oktyabr aylarında ölkədə istehlak qiymətləri indeksi ötən ilin eyni dövrü ilə müqayisədə 101,7 faiz, o cümlədən, qida məhsulları, içkilər və tütün məmulatları üzrə 100,6 faiz, qeyri-qida məhsulları üzrə 101,5 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 103,6 faiz təşkil edib.**

Cari ilin oktyabr ayında isə istehlak qiymətləri indeksi əvvəlki ilin eyni ayına nisbətən 103,4 faiz, o cümlədən qida məhsulları, içkilər və tütün məmulatları üzrə 102,6 faiz, qeyri-qida məhsulları üzrə 102,1 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 105,8 faiz olub. Hesabat dövründə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,5 faiz təşkil edib.

(ardı 7-ci səhifədə)

# Tailandın Kralı Əlahəzrət Maha Vajiralongkorn Phra Vajiraklaochaoyuhuaya

**Əlahəzrət!**

Tailand Krallığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

2024-cü ildə Azərbaycanın Banqkokda səfirliyinin fəaliyyətə başlaması ikitərəfli əlaqələrimizin yeni müstəviyə keçməsinin bariz nümunəsidir. İnanıram ki, dost xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan ilə Tailand arasında qarşılıqlı maraq doğuran sahələrdə əlaqələrin möhkəmləndirilməsi, ikitərəfli qaydada və çoxtərəfli müstəvilərdə əməkdaşlığımızın genişləndirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, Tailand Krallığının dost xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 2 dekabr 2024-cü il**

# “Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi” mövzusunda II beynəlxalq konfransın iştirakçılarına

**Hörmətli konfrans iştirakçıları!**

Sizi Qərbi Azərbaycan İcmasının “Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi” mövzusunda Bakı şəhərində təşkil etdiyi II beynəlxalq konfransda salamlayıram.

Hazırda dünyada 120 milyondan çox insan məcburi köçürülmə problemi ilə qarşılaşmışdır və beynəlxalq ictimaiyyətin birgə səyləri olmadan bu problemin effektiv həlli mümkünsüzdür.

Azərbaycan xalqı da ötən əsrin əvvəllərindən başlayaraq köçkünlük problemi ilə üzləşmişdir. Qərbi Azərbaycanda – indiki Ermənistan ərazisində yaşayan azərbaycanlılar etnik təmizləməyə məruz qalaraq, tarixi vətənlərindən mərhələli şəkildə zorla çıxarılmışlar. 1918–1921, 1948–1953 və 1987–1991-ci illərdə daha dəhşətli xarakter almış köçürmələr nəticəsində yüz minlərlə azərbaycanlı dədə-baba yurdunu tərk edərək Azərbaycana sığınmışdır. Bu dəhşətli deportasiyalardan sonra Ermənistanda bir nəfər belə azərbaycanlı qalmamış və Ermənistan monoetnik dövlətə çevrilmişdir.

Ermənistan Azərbaycan xalqının əsrlər boyu öz dədə-baba torpaqlarında yaşaması və zəngin mədəni irs yaratması faktını hər vəchlə danmağa çalışır. Ermənistan Qərbi Azərbaycanda xalqımızın min illər ərzində yaratdığı mədəni irsi – tarixi abidələri, qəbiristanlıqları, məscidləri, tarixi yaşayış yerlərini dağıtmış, UNESCO tərəfindən ümumbəşəri mədəni dəyər kimi tanınan Azərbaycan aşıq sənətinə ciddi zərər vurmuşdur.

Bu tarixi-mədəni abidələr arasında yalnız Azərbaycan memarlığının və İslam mədəniyyətinin parlaq nümunələrindən biri olan Göy Məscid salamat qalmışdır. Lakin Ermənistan Göy Məscidin orijinal tarixi-memarlıq üslubunu qəsdən dəyişdirərək onu başqa ad altında təqdim etməyə çalışır. Regionun tarixini və mədəni mənzərəsini təhrif etmək, yenidən yazmaq məqsədi daşıyan belə destruktiv addımlar dözümsüzlük və irqçilikdən başqa bir şey deyildir.

Ermənistan bununla da kifayətlənməmiş, Azərbaycana qarşı hərbi təcavüzə əl ataraq onun ərazilərini işğal etmiş, etnik təmizləmə törətmiş, şəhər və kəndləri dağıtmış, talan etmiş, torpaqlarımızı saysız-hesabsız minalarla çirkləndirmişdir.

Azərbaycan xalqı heç vaxt bu ədalətsizliklə barışmamış, haqq səsini dünyaya çatdırmağa çalışmışdır. 2020-ci ildə Azərbaycanın şanlı qələbəsi ilə bitən Vətən müharibəsi Qarabağdan və Şərqi Zəngəzurdan qovulmuş soydaşlarımızın doğma yurdlarına qayıdışına imkan yaratdı. Azərbaycanın bu ədalətli savaşı beynəlxalq hüququn aliliyinin təntənəsi və qlobal miqyasda məcburi köçürülmə probleminin həllinə verilmiş böyük bir töhfədir. İşğaldan azad edilmiş ərazilərdə hazırda “Böyük Qayıdışa dair Dövlət Proqramı” uğurla icra edilir.

Təəssüf ki, Ermənistan cəmiyyətində xalqımıza qarşı dərin kök salmış nifrət hissi, mifik “böyük Ermənistan” xülyası, Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddiasının hələ də qalması, bu ölkənin sürətlə silahlanması iki ölkə arasında dayanıqlı sülhün əldə olunmasını əngəlləyir.

Ermənistan Qərbi Azərbaycan İcmasının fəaliyyətini qəsdən öz ərazi bütövlüyünə təhdid kimi təqdim etməyə çalışır. Lakin İcmanın məqsədi Qərbi Azərbaycandan didərgin salınmış soydaşlarımızın dinc və təhlükəsiz şəraitdə, ləyaqətlə öz dədə-baba yurdlarına qayıdışının təmin olunmasından ibarətdir. Bu, sırf insan haqları məsələsidir. Ermənistanın İcmanın fəaliyyətini təhdid kimi qələmə verməsi məsələnin əsl mahiyyətini təhrif etmək və beynəlxalq hüquqa əsaslanan qayıdış hüququnu inkar etmək cəhdidir.

Qərbi Azərbaycan İcması dəfələrlə Ermənistan hökumətini dialoqa çağırmış, lakin qarşı tərəf bundan imtina etmişdir. Ermənistan İcma ilə danışıqlara başlamalı və Qərbi azərbaycanlıların fundamental hüquqlarının bərpa edilməsi istiqamətində praktiki addımlar atmalıdır. Bundan əlavə, Ermənistan xalqımıza məxsus tarixi-mədəni irsin dağıdılması, təhrif edilməsi ilə bağlı vəziyyətin monitorinqi məqsədilə UNESCO-nun faktların araşdırılması missiyasının səfərinə icazə verməli və bu sahədə əməkdaşlıq etməlidir.

Qərbi Azərbaycan İcması üzvlərinin doğma torpaqlara qayıdış hüququnu təmin etmək məqsədilə beynəlxalq hüquqa uyğun dinc təşəbbüslərinin beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənməsi olduqca əhəmiyyətlidir. Uğurla həyata keçirilən Qayıdış Konsepsiyasına əsaslanan bu təşəbbüslər Qərbi azərbaycanlıların sülh yolu ilə təhlükəsiz və ləyaqətli şəkildə öz doğma yurdlarına geri dönməsinə böyük töhfələr verəcəkdir.

Müxtəlif vaxtlarda dədə-baba torpaqlarından zorla köçürülmüş, hazırda Azərbaycanda və dünyanın bir sıra ölkələrində məskunlaşmış minlərlə Qərbi Azərbaycan əsilli şəxsin hüquqlarının müdafiəsinə həsr edilmiş konfransın işinə uğurlar arzulayıram. Əminəm ki, Azərbaycan xalqının zaman-zaman məruz qaldığı deportasiyalar barədə həqiqətləri beynəlxalq ictimaiyyətin diqqətinə çatdıran bu beynəlxalq konfrans yaxın gələcəkdə qayıdış hüququ və dünyada köçkünlük problemi ilə bağlı fikir mübadiləsi aparılacaq önəmli beynəlxalq dialoq platformasına çevriləcəkdir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 5 dekabr 2024-cü il**

# Azərbaycan Uşaqlarının VI Ümumrespublika Forumunun iştirakçılarına

**Hörmətli Forum iştirakçıları!**
**Əziz uşaqlar!**

Sizi Azərbaycan Uşaqlarının VI Ümumrespublika Forumunun öz işinə başlaması münasibətilə səmimi-qəlbdən salamlayır, hamınıza cansağlığı və xoşbəxtlik arzulayıram.

Uşaqlar cəmiyyətin sabahıdır. Bizim üzərimizə düşən əsas vəzifə onlara aydın səma altında etibarlı gələcək bəxş etməkdir. Ölkəmizdə uşaqlara hərtərəfli qayğının dövlət siyasətinin tərkib hissəsi olması Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətlərindəndir. Bu istiqamətdə bir sıra mühüm işlər görülmüş və görülməkdədir. Uşaqlarımız yüksək təhsil almaq, bacarıqlarını inkişaf etdirmək və istedadlarını üzə çıxara bilmək üçün hər cür imkana malikdirlər. Forumunuzun ənənəvi şəkil alması da Azərbaycanda uşaq hüquqlarına diqqətin bariz təzahürlərindəndir.

Builki Forum “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində keçirilir. Onun həsr olunduğu uşaqlar və ekologiya mövzusu aktuallığı ilə seçilir və övladlarımızın təhlükəsiz ətraf mühitdə yaşamaları baxımından xüsusi məna daşıyır. Bu yaxınlarda Azərbaycan nəhəng miqyaslı beynəlxalq tədbirə – BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının növbəti 29-cu sessiyasına ev sahibliyi etdi. Konfransda ətraf mühit amillərinin uşaqların sağlamlığına təsiri, uşaqlar naminə iqlim fəaliyyətinin gücləndirilməsi məsələləri geniş müzakirə olundu. Çünki Yer üzündə bütün uşaqların sağlam və təmiz dünyaya, yaşıl gələcəyə ehtiyacı var və onlar buna layiqdirlər.

Əziz iştirakçılar!

Siz müstəqillik salnaməmizə şanlı səhifələrin yazıldığı günlərin şahidi olan ən yeni nəsli burada təmsil edirsiniz. Sizin şəxsinizdə Azərbaycan uşaqlarının hamısına üz tutub deyirəm: xoşbəxtsiniz ki, parlaq mədəniyyət yaratmış qədim və böyük bir xalqın övladlarısınız. Siz həm də gələcəyimizin təminatısınız. Qüdrətli Azərbaycanı məhz sizə əmanət edəcəyik. Siz bizim üçün çox dəyərlisiniz.

İnanıram ki, forum çərçivəsində aparacağınız əhatəli fikir mübadiləsi və qəbul edəcəyiniz qərarlar uşaqlarla bağlı dövlət siyasətimizin bundan sonra da uğurla gerçəkləşdirilməsi işinə öz töhfəsini verəcəkdir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 5 dekabr 2024-cü il**

# Azərbaycan Könüllülərinin VII Həmrəylik Forumunun iştirakçılarına

**Əziz gənclər!**

Sizi – Azərbaycan Könüllülərinin VII Həmrəylik Forumunun iştirakçılarını salamlayır və Beynəlxalq Könüllülər Günü münasibətilə təbrik edirəm.

Ümummilli Lider Heydər Əliyevin xeyir-duası ilə ötən əsrin 90-cı illərindən ölkəmizdə xüsusi vüsət almağa başlamış və milli-mənəvi dəyərlərə bağlılığın, Vətənə xidmətin nümunəsinə çevrilmiş könüllülük hərəkatı Azərbaycan gənclərinin vahid məqsəd ətrafında hazırkı uğurlu fəaliyyətinin təcəssümüdür. Dövlətimizin hərtərəfli dəstəyi sayəsində sıraları durmadan genişlənən bu hərəkat yüksəliş yolu ilə irəliləyərək indiki inkişaf səviyyəsinə çatmış və cəmiyyət həyatının bütün sahələrinə nüfuz etməyə müvəffəq olmuşdur.

Forumunuzun “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində təşkili xüsusi əhəmiyyət kəsb edir. Belə ki, əməli fəaliyyətlərində daim xeyirxahlıq, fədakarlıq və təmənnasız yardım kimi ali bəşəri keyfiyyətləri rəhbər tutan könüllülərimiz təbiətin və ətraf mühitin qorunması istiqamətində vətəndaşlar arasında maarifləndirmə işinə böyük töhfə verirlər. Onlar ölkəmizdə dünyanın ən irimiqyaslı və mühüm tədbirlərindən olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirildiyi günlərdə vəzifələrinin öhdəsindən layiqincə gəldilər.

Dövlət suverenliyimizin və ərazi bütövlüyümüzün tam bərpası nəticəsində müstəqillik tariximizin artıq yeni mərhələsini yaşayırıq. İşğaldan azad olunmuş ərazilərimizdə həyatın sürətlə yenidən canlandırılması üçün misilsiz quruculuq işləri aparılmaqdadır. Gənclər siyasətinin başlıca prinsiplərinə uyğun innovativ sosial təşəbbüsləri ilə ölkəmizin davamlı tərəqqisinə xidmət göstərən könüllülərimiz Böyük Qayıdış prosesində də fəal iştirak edirlər.

İnanıram ki, siz milli dövlətçiliyə dərin sədaqəti bundan sonra da həyatınızın amalı biləcək, Vətənimizin qüdrətinin artırılması naminə bilik və bacarığınızı əsirgəməyəcəksiniz. Hər birinizə gələcək işlərinizdə nailiyyətlər arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 5 dekabr 2024-cü il**

# Qərbi Azərbaycan həqiqətlərinin təbliği sahəsində fərqlənən bir qrup şəxsin təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü və 32-ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

İnsan hüquqlarına və əsas azadlıqlarına zidd olaraq Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində öz doğma torpaqlarından qovulmuş köklü Qərbi Azərbaycan əhalisinin hüquqlarının müdafiəsi və həmin ərazilərdə yaratdığı maddi mədəni irsin təbliği sahəsində səmərəli fəaliyyətlərinə görə:

**1**. Aşağıdakı şəxslər təltif edilsinlər:

**“Şöhrət” ordeni ilə**

Əliyev Fikrət Əhmədəli oğlu

**“Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə**

Seyidzadə Dilarə Bağır qızı
Şadlinski Vaqif Bilas oğlu.

**2.** Həsən Zal oğlu Həsənova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 5 dekabr 2024-cü il**

# Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları sahəsi işçilərinin “Tərəqqi” medalı ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyaları sahəsində səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər “Tərəqqi” medalı ilə təltif edilsinlər:

Abbasov Emil İsmayıl oğlu
Ağamirova İradə Rahil qızı
Ağasiyeva Sevinc Əlibaba qızı
Bədirxanov Dunay Rasim oğlu
Əliyev Müşfiq Cabir oğlu
Hüseynov Pərviz Firuz oğlu
İsmayılov Pərviz Nazim oğlu
Kərimov Vüsal Rəvan oğlu
Mərdanov Nail Teyyub oğlu
Nağıyev İbrahim Abdulla oğlu
Vəliyeva Sevinc Misirxan qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 5 dekabr 2024-cü il**

# Ə.Q.Məmmədyarovun Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin birinci müavini təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında” Azərbaycan Respublikası Qanununun 21.7-ci maddəsinə uyğun olaraq **qərara alıram:**

Əliyar Qəhrəman oğlu Məmmədyarov Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin birinci müavini təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 4 dekabr 2024-cü il**

# T.N.Əliyevin Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında” Azərbaycan Respublikası Qanununun 21.7-ci maddəsinə uyğun olaraq **qərara alıram:**

Toğrul Nəcəfəli oğlu Əliyev Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 4 dekabr 2024-cü il**

# V.C.Xəlilovun Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında” Azərbaycan Respublikası Qanununun 21.7-ci maddəsinə uyğun olaraq **qərara alıram:**

Vüsal Cahangir oğlu Xəlilov Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 4 dekabr 2024-cü il**

# Ə.İ.Əhmədovun Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında” Azərbaycan Respublikası Qanununun 21.7-ci maddəsinə uyğun olaraq **qərara alıram:**

Əli İsmayıl oğlu Əhmədov Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 4 dekabr 2024-cü il**

# G.A.Paşayevanın Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında” Azərbaycan Respublikası Qanununun 21.7-ci maddəsinə uyğun olaraq **qərara alıram:**

Gülər Azər qızı Paşayeva Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 4 dekabr 2024-cü il**

# Naxçıvan Sənaye Parkının yaradılması haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Naxçıvan Muxtar Respublikasında Naxçıvan Sənaye Parkı yaradılsın.

**2.** Müəyyən edilsin ki:

2.1. Naxçıvan Sənaye Parkı sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastrukturu və idarəetmə qurumları olan, müasir texnologiyaların tətbiqi yolu ilə rəqabətqabiliyyətli məhsul istehsalı və xidmətlər göstərilməsi məqsədilə istifadə edilən, sahibkarların səmərəli fəaliyyətinə və inkişafına kömək edən ərazidir;

2.2. Naxçıvan Sənaye Parkının fəaliyyətinin təşkili, onun idarə edilməsi və inkişafı ilə bağlı tədbirləri Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyi (bundan sonra – Agentlik) həyata keçirir.

**3.** Naxçıvan Sənaye Parkının fəaliyyətinin təşkili, ərazisinin istifadəyə yararlı vəziyyətə gətirilməsi, xarici və daxili infrastrukturun (elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə, istehsal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri) yaradılması üçün layihələndirmə işlərinin həyata keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Agentliyə ilkin olaraq 500,0 (beş yüz) min manat ayrılsın.

**4.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

4.1. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin təklifləri nəzərə alınmaqla, Naxçıvan Sənaye Parkında istehsal və emal (təkrar emal) olunan sənaye məhsulları, habelə göstərilən xidmətlər üzrə prioritet istiqamətləri iki ay müddətində müəyyən etsin;

4.2. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti və kommunal xidmət (elektrik və istilik enerjisi, təbii qaz və su) qurumları ilə birlikdə Naxçıvan Sənaye Parkının ərazisində xarici və daxili infrastrukturun (elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə, istehsal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri) yaradılması və sahibkarlıq fəaliyyətinin səmərəli təşkili üçün digər xidmətlər göstərilməsini təmin etmək məqsədilə Agentliyə kömək etsin;

4.3. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**5.** Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

5.1. Naxçıvan Sənaye Parkının fəaliyyəti üçün Naxçıvan şəhərinin cənub-qərb hissəsində, Naxçıvan–Sədərək avtomobil yolunun cənubunda 310 (üç yüz on) hektar kənd təsərrüfatı təyinatlı torpaq sahəsinin icarəyə vermək hüququ ilə Agentliyin daimi istifadəsinə verilməsini iki ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**6.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 3-cü hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 5 dekabr 2024-cü il**

# Baş nazirin İƏİT-nin nümayəndə heyəti ilə görüşü



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov dekabrın 5-də İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) dövlət mülkiyyəti və özəlləşdirmə üzrə İşçi Qrupunun sədri, Birləşmiş Krallığın dövlət investisiyaları üzrə qurumunun baş icraçı direktoru Çarlz Donaldın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, görüşdə Azərbaycan ilə İƏİT arasında əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə olunub.

Birgə həyata keçirilən layihələr, o cümlədən, Azərbaycan İnvestisiya Holdinqinin portfel şirkətlərində korporativ idarəetmənin qiymətləndirilməsi layihəsinin nəticələri nəzərdən keçirilib.

Azərbaycan ilə İƏİT arasında əməkdaşlığın qarşılıqlı maraq doğuran istiqamətlər üzrə inkişaf etdirilməsi ilə bağlı məsələlər müzakirə olunub.

***XQ***

# Azərbaycan Uşaqlarının VI Ümumrespublika Forumu





**Dekabrın 5-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Elm və Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə Azərbaycan Uşaqlarının VI Ümumrespublika Forumu keçirilib.**

Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva Prezident İlham Əliyevin forumun iştirakçılarına müraciətini oxuyub.

Tədbirdə çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib ki, Forumda bu günümüzün və gələcəyimizin ən vacib mövzuları ətrafında müzakirə aparmaq, fikir və təşəbbüslərimizi bölüşmək, daha yaxşı, təhlükəsiz cəmiyyət qurmaq üçün səyləri birləşdirmək qürurvericidir və həm də gözəl imkandır.

O qeyd edib ki, 30 illik həsrətdən sonra keçmiş məcburi köçkün ailələri, onların uşaqları öz yurdlarına qayıdırlar. Aktiv məskunlaşma tədbirləri həyata keçirilir. Eyni zamanda, yeni iqtisadi, sosial layihələr reallaşdırılır və böyük yüksəliş müşahidə olunmaqdadır. Bütün bu işlər bizi daha konkret hədəflər, daha irəliyə aparan məqsədlər uğrunda birləşməyə, sürətlə dəyişən reallıqları nəzərə alan siyasətlər müəyyənləşdirməyə çağırır.

Forumda çıxış edən elm və təhsil naziri Emin Əmrullayev bildirib ki, Azərbaycan xalqının qarşısında duran əsas məqsədlərdən biri də kimliyini qorumaq, mədəniyyətinə sahib çıxmaq və milli dəyərlərimizi yaşatmaqdır. “Düşünürəm ki, bu, hazırda xüsusilə azyaşlı uşaqlarımızın təlim-tərbiyəsi işlərində qarşıda duran ən vacib çağırışlardan biridir”, – deyə nazir bildirib. Qız uşaqlarının təhsilinin əhəmiyyətindən danışan nazir deyib: “Biz unutmamalıyıq ki, qız uşaqlarının, yəni gələcək anaların təhsili daha savadlı, bacarıqlı və güclü millət kimi formalaşmanın əsas amillərindən biridir”.

Ekologiya və təbii sərvətlər nazirinin müavini Rauf Hacıyev deyib ki, bu gün dünyanı narahat edən qlobal problemlərdən biri iqlim dəyişmələri və onun ətraf mühitə mənfi təsirləridir. Son illər iqlim dəyişmələrinin təsiri ilə bağlı planetimizdə təbii fəlakətlərin sayı xeyli artıb. Bu da insan sağlamlığına və ətraf canlı aləmə zərərli təsir göstərməklə yanaşı, iqtisadiyyat və bizneslər üçün də ciddi risklər yaratmaqdadır.

UNICEF-in Azərbaycandakı nümayəndəsi Saca Faruq Abdullah isə bildirib ki, iqlim böhranı həm də uşaqların böhranı deməkdir. Çünki iqlim dəyişiklikləri uşaqlara birbaşa təsir göstərən amillərdən biridir. İqlim dəyişiklikləri ilə bağlı qlobal səviyyədə xəstəliklərin 88 faizi 5 yaşından aşağı uşaqların payına düşür”.

Açılış mərasimindən sonra forum çərçivəsində panel müzakirələri aparılıb.

Aidiyyəti dövlət qurumları və beynəlxalq təşkilatların nümayəndələrinin qatıldığı tədbirdə Azərbaycanın bütün şəhər və rayonlarından olan 300 uşaq, eləcə də Türkiyəni təmsil edən uşaqlar iştirak ediblər.

***XQ***

# Azərbaycan Könüllülərinin VII Həmrəylik Forumu



**Dekabrın 5-də Bakı Konqres Mərkəzində “Yaşıl dünya naminə həmrəylik ili”nə həsr olunan və ölkəmizdə fəaliyyət göstərən 3 mindən çox Azərbaycan könüllüsünü bir araya toplayan Azərbaycan Könüllülərinin VII Həmrəylik Forumu keçirilib.**

Forum Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi, Azərbaycan Könüllü Təşkilatları İttifaqının təşkilatçılığı, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Gənclər və İdman Nazirliyi, “ASAN xidmət” və IDEA İctimai Birliyinin tərəfdaşlığı ilə dekabrın 5-16-da keçiriləcək “Azərbaycan Könüllülük Həftəsi 2024” çərçivəsində təşkil olunub.

Forumda könüllülərin məşğulluğunun artırılması, karyera imkanlarının yaxşılaşdırılması məqsədilə Dövlət Məşğulluq Agentliyinin dəstəyi ilə karyera sərgisi, könüllülər tərəfindən müxtəlif tullantılardan (plastik, sellofan torbalar və s.) istifadə edilməklə hazırlanan müxtəlif sənət əsərlərinin “Tullantıdan sənətə” adlı sərgisi həyata keçirilib.

Rəsmi açılış mərasimində Dövlət Himni səsləndirilib. Sonra gənclər və idman naziri Fərid Qayıbov Prezident İlham Əliyevin Forum iştirakçılarına müraciətini oxuyub.

Forumda gənclər və idman naziri Fərid Qayıbov, ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov, Gənclər Fondunun icraçı direktoru vəzifəsini icra edən Qədir Xəlilov, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov və digər dövlət qurumlarının rəsmiləri iştirak ediblər. Tədbirdə Azərbaycanın ekoloji vəziyyətinin yaxşılaşdırılması və könüllülər arasında ekoloji biliklərin artırılması istiqamətində həyata keçirilən layihələrə həsr olunmuş videoçarxlar izlənilib.

Sonra Azərbaycan Könüllü Təşkilatları İttifaqının sədri Vüqar Əliyev forum iştirakçılarına İttifaqın fəaliyyəti və 2024-cü ildə həyata keçirdiyi layihələr barədə məlumat verib. O, çıxışında “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində reallaşdırılan ekoloji təşəbbüsləri və COP29-un keçirilməsində könüllülərin fəal iştirakını nəzərə çatdırıb.

Forum çərçivəsində gənclər 2024-cü il üzrə “İlin Könüllüsü” mükafatı ilə 5 nominasiya üzrə təltif olunublar.

**XQ**

# İlahi ədalət və Qərbi Azərbaycan

## *Erməni cəmiyyətindəki isteriyanın bir epizodu barədə*

**İlahi ədalət deyilən bir ifadə var. Azərbaycanın 44 günlük müharibə və lokal xarakterli antiterror tədbirləri ilə öz ərazi bütövlüyünə və suverenliyinə qovuşması ilahi ədalətin təntənəsi idi. Ermənistanda bunu deyənlər var. Doğrudur, beləléri, əksər hallarda, fikirlərini isteriyaya qapılaraq ifadə edirlər. Yəni, reallığı görmür, yaxud görə bilmirlər. Ədalət anlayışından isə ümumiyyətlə xəbərləri yoxdur.**

Prezident İlham Əliyevin bütün fikirləri kimi, Qərbi Azərbaycan İcmasının “Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi” mövzusunda dünən Bakıda təşkil etdiyi II beynəlxalq konfransın iştirakçılarına ünvanladığı məktubda bildirdikləri də, Ermənistanda böyük əks-səda doğurub. Haylar, sanki, bir-birinə dəyiblər. Onlar bu dəfə konkret nədən narazıdırlar, məsələyə diqqət yetirəcəyik.

Ümumən, ermənilərin Prezident İlham Əliyevin hər bir fikrinin arxasında real işin dayandığına dair oturuşmuş qənaətləri var və bu qənaət onların sakit dayanmalarına imkan vermir. Məkrlərindən qalmırlar. Necə deyərlər, itdən soruşurlar ki, niyə hürürsən? Qorxuduram – deyir. Bəs quyruğunun nə üçün bulayırsan? – soruşduqda, cavab verir ki, özüm də qorxuram. Hazırda ermənilər məhz belə durumdadırlar.

Prezident İlham Əliyevin konfransın iştirakçılarına ünvanladığı məktubda vurğulanmalı məqamlar çoxdur. Yazımızda onlardan yalnız birinin üzərində dayanacaq və əvvəldə haqqında söz açdığımız ilahi ədalət məntiqinə aydınlıq gətirəcəyik. Nəzərə alaq ki, bu məntiqdə, eyni zamanda, tarixin təkrarlanması əlaməti var. Ancaq bu dəfə prosesdən faydalı çıxan bizik, yəni, Azərbaycan və Azərbaycan xalqıdır. Ölkəmizin liderinin nələri bildirdiyindən isə söz açacağıq. Hələlik isə...

Məlum olduğu kimi, erməni millətçiləri 1988-ci ildən başlayaraq Azərbaycanın keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinə qarşı ərazi iddiası irəli sürməyə başladılar. Daha doğrusu, vilayətin Ermənistana aidliyi üzərində dayanıb ərazini özlərinə birləşdirmək istədilər. Lakin zaman keçdikcə, bunun mümkünsüzlüyünü görüb bir qədər fərqli davrandılar. Onlar Dağlıq Qarabağı beynəxalq hüququn müstəqil subyekti kimi qələmə verdilər. Torpaqlarımızın işğalından sonra, faktiki olaraq, keçmiş vilayətə daxil olmayan bölgələri də “Dağlıq Qarabağ Respublikası”, yaxud “Artsax” adlandırdılar.

Bir haşiyə də çıxaq ki, Ermənistan tərəfi hələ 1991–1994-cü illərdə, hətta daha əvvəl atəşkəsin əldə edilməsi ilə bağlı danışıqları pozanda durumu “qarabağlıların” vəziyyətlə barışmaması kimi qiymətləndirirdi. Təxminən belə: bizlik deyil, bunu edən “Artsax xalqı”dır. Beləcə, bu qondarma xalqın adını bütün beynəlxalq platformalara daşımağa başladılar. 1994-cü ildə atəşkəs əldə edildikdən və Azərbaycanla Ermənistan arasında danışıqlar başladıqdan sonra isə “Dağlıq Qarabağ Respublikası”nı ayrıca dövlət kimi göstərmək meyilləri daha da gücləndi. Hətta, separatçı rejimin təmsilçilərini də nizamlama masasına əyləşdirmək yönümlü cəhdlər oldu. Özü də bu cəhdləri təkcə rəsmi İrəvan deyil, eyni zamanda, onun xaricdəki havadarları da etdilər.



Əlbəttə, Azərbaycan hakimiyyəti məsələnin belə qoyuluşu ilə heç zaman razılaşmadı və imkan vermədi ki, qondarma “dqr” dünyanın ictimai rəyinə beynəlxalq hüququn subyekti kimi sırınsın. Vəziyyət, yəni səmərəsiz danışıqlar prosesi otuz ilə yaxın davam etdi. Nəhayət, 2020-ci ildə savaş yaşandı. 44 günlük müharibənin Ermənistan üçün hansı acınacaqlı aqibətlə başa çatdığı hər kəsə yaxşı məlumdur.

Ancaq ona da diqqət yetirək ki, hələ müharibə günlərində “Dağlıq Qarabağ ordusu”, “Dağlıq Qarabağ özünümüdafiə qüvvələri” və sair bu sayaq ifadələr gündəmdə idi. Elə 44 günlük müharibədən sonra da oxşar meyillər özünü göstərdi. Antiterror tədbirlərin nəticəsində “dqr”in buraxıldığı elan edilsə də, İrəvanda separatçı quruma ofis verildiyi, kimlərinsə yenə özünü “prezident”, “baş nazir”, “nazir” adlandırdıqları diqqətimizdən yayınmadı.

Əlbəttə, bütün bunların hansısa faydası olmadı və olmayacaq. Ancaq antiterror tədbirlərinədək Ermənistanın baş naziri Nikol Paşinyanın səsləndirdiyi bir fikir üzərində dayanmaq istərdik. Nikol son dərəcə həyasızcasına demişdi ki, Qarabağın özünün seçkili hakimiyyəti var. Halbuki, o, bunadək Azərbaycanın, Qarabağ da daxil olmaqla, ərazi bütövlüyünü tanıdığını bəyan etmişdi. Yəni, necə deyərlər, mən tanıyıram, tanımaq istəməyənlər tanımır, mənlik deyil. Yəqin, Paşinyanın deyim tərzi tanış gəldi. İllər əvvəl də eyni sərsəm məntiq irəli sürülmüşdü. İndi isə Qərbi Azərbaycan məsələsinin Ermənistanda qıcıq doğurmasına gələk.

Bəli, Prezident İlham Əliyev haqqında söz açdığımız məktubunda Ermənistanın Qərbi Azərbaycan İcması ilə danışıqlara başlamasının zəruriliyini bildirib. Yuxarıda diqqətə çatdırdıqlarımızı nəzərə alsaq, ilahi ədalət payı elə məhz bu deyimdədir. Görəsən, haylar niyə təşviş içərisindədirlər? Bunu bilmək elə də çətin deyil.

Əlbəttə, ölkəmizin Qərbi Azərbaycana qayıdış konsepsiyası dinc məramlıdır, heç bir halda, təcavüzkar niyyətə söykənməyib. Dövlətimiz bu məsələdə Qarabağda yaşamış ermənilərin də öz evlərinə qayıtmaları üzərində dayanır. Nəhayət, rəsmi Bakı humanist dəyərləri rəhbər tutur. Ancaq erməni cəmiyyəti o qədər xəstədir ki, məsələyə sırf separatçılıq pəncərəsindən baxır. Axı, illər ərzində qondarma “dqr” məsələsində manipulyasiyalar ediblər. Belələrinə insan hüquq və azadlıqları, dinc birgə yaşam qaydaları yaddır. Necə deyərlər, hər şeyi öz arşınları ilə ölçürlər.

Bir halda ki, belədir, qayıdaq başa düşdükləri dilə. İlahi ədalət məntiqini də məhz buna görə qabardırıq. Haylar ədalətin necə təcəlli etdiyini, tarixin onlara sərf etməyən tərzdə təkrarlandığını öz gözləri ilə görsünlər. Amma təkcə görməsinlər, düşünüb nəticə çıxarsınlar. Əlbəttə, buna ağılları və şüurları imkan verirsə. İmkan verirsə, özgə torpaqlarına ərazi iddiası irəli sürməkdən birdəfəlik daşınsınlar. Onu da dərk eləsinlər ki, Qərbi Azərbaycan məfhumu onların məkrli niyyətlərinin, soyqırımı, etnik təmizləmə siyasətlərinin məntiqi nəticəsi olaraq meydana çıxıb. Bu məfhum həm də Azərbaycanın əzəli torpaqlarına qəsbin, təcavüzün və məkrin göstəricisidir.

***Əvəz RÜSTƏMOV***
***XQ***

# İrəvanın anti-KTMT xətti və Aİİ müstəvisi



(əvvəli 1-ci səhifədə)

Yeri gəlmişkən, bir müddət əvvəl Rusiya Prezidentinin köməkçisi Yuri Uşakov Ali Avrasiya İqtisadi Şurasının sammitinin keçirilmə yerinin Ermənistanın xahişi ilə dəyişdirildiyini demiş və əlavə etmişdi ki, buna baxmayaraq, tədbirin sədri N.Paşinyan olacaq. Deməli, yüksək səviyyəli toplantının Rusiyada təşkilinə baxmayaraq, rotasiya qaydasındakı sədrlik proseduru gözləniləcək. İndi isə Paşinyan bildirib ki, Aİ-nin heç də bütün üzvləri Ermənistanda xoş qarşılanmırlar. O, fikrini əsaslandırarkən detallara getməyib, səbəb kimi yalnız "təəssüf ki, sizə məlum olan səbəbə görə (və mən bu barədə bu tribunadan danışmışan)" deməklə kifayətlənib. Sual olunur: Görəsən, xoş qarşılanmayanlar kimlərdir?

Əlbəttə, sadə məntiqlə Ermənistanda xoş qarşılanmayan ilk şəxsin Belarus Prezidenti Aleksandr Lukaşenko olduğunu əminliklə söyləyə bilərik. Məsələ ondadır ki, Belarus liderinin bu ilin mayında Azərbaycana səfəri çərçivəsində Şuşaya yollanması və orada səsləndirdiyi fikirlər Ermənistanda qəzəb doğurmuşdu. Paşinyan isə ölkəsinə qarşı 44 günlük müharibə zamanı qurulmuş sövdələşmə üzərində dayanmış və yekunda anti-Rusiya ritorikasını işə salmışdı. Təxminən belə: Rusiya Ermənistana xəyanət edib, məsələdə Lukaşenkonun da rolu var. Nikol, eyni zamanda, bildirmişdi ki, A.Lukaşenko Belarusda hakimiyyətdə olduğu müddətdə özü və erməni hökumətinin rəsmilərindən heç biri ora getməyəcək.

Nikolun Ali Avrasiya İqtisadi Şurasının sammitini Ermənistanda keçirmək istəməməsinin daha bir səbəbi var – Beynəlxalq Cinayət Məhkəməsinin Roma statutu. Məlum olduğu kimi, İrəvan həmin statuta qoşulub. BCM isə Rusiya Prezidenti Vladimir Putinin həbsinə dair qərar çıxarıb. Ona görə, prinsipcə, Putin İrəvana gəlməkdən çəkinməlidir, ancaq qorxuya düşən Paşinyandır. O, Rusiya liderinin Ermənistana gəlmə ehtimalını düşünür və üç məqama söykənir.

Birincisi, indiki durumda Putinin İrəvanda görünməsi Ermənistanın Rusiyameyilli qüvvələri üçün ciddi impulsdur. Yəni, istər-istəməz Ermənistanda Rusiya ab-havası yaranacaq.

İkincisi, Putin İrəvandadırsa, deməli, onun həbs edilməsi lazımdır. Paşinyan isə belə bir yükün altına girmək istəmir. Daha doğrusu, Kreml rəhbərini həbs edə biləcək cəsarət Ermənistanda nəinki Nikolda, heç kəsdə yoxdur.

Üçüncü bir məqam Putinin Qərbyönümlü Ermənistanda görünməsi ilə bağlıdır. Heç şübhəsiz, bu, erməni iqtidarı üçün mənfi imic formalaşdıracaq. Ona görə də ruslar demiş, at qrexa pa dalşe (problemdən uzaq durmaq anlamında). İmicdən söz düşmüşkən isə Aİİ kimi Rusiyanın hakim rol oynadığı qurumun yüksək səviyyəli toplantısının Ermənistanda keçirilməsinin özü də rəsmi İrəvan üçün pis qarşılanacaq durumdur.

İndiki durumda Paşinyan Ali Avrasiya İqtisadi Şurasının sammitinin ölkəsində təşkilindən imtinası ilə dividend qazanır. O, KTMT ilə yanaşı, Aİİ-yə də saymazyana münasibətini nümayiş etdirir. Bu, oturduğu budağı kəsməyə oxşayır. Amma erməni baş nazir, belə demək mümkünsə, indiyədək çox budaqlar kəsdiyindən, onun üçün hansısa mənəvi anlayış yoxdur. Digər yandan, Paşinyan Aİİ-yə mənfi münasibətini bir il əvvəl göstərmişdi. Bunu daha çox Aİİ müstəvisində Rusiyaya qarşı neqativ yanaşma kimi qiymətləndirmək mümkündür.

Bəli, Nikol Ali Avrasiya İqtisadi Şurasının ötən il dekabrın 25-də Sankt-Peterburqda keçirilmiş iclasındakı çıxışı zamanı bildirmişdi ki, Aİİ-nin yaradılmasına dair saziş qurumun iqtisadi birlik olması ilə bağlı fundamental postulata əsaslanır və onun siyasi gündəmi olmamalıdır. "Biz bunu bu cür dərk etməyə davam edirik və mövcud kontekstdə iqtisadi əməkdaşlığımız çərçivəsində qarşılıqlı fəaliyyəti inkişaf etdiririk. Avrasiya inteqrasiyasını siyasiləşdirmək cəhdlərinin qarşısını almağa çalışırıq", – deyən N.Paşinyan vurğulamaq istəmişdi ki, Ermənistan siyasi anlamda Qərb düşərgəsi ilə həmrəydir. Yəni, Nikol bir il əvvəl Rusiyanın platformasında Qərbə sadiqlik mesajı vermişdi. Bu isə o demək idi ki, Aİİ-də təmsilçilik Ermənistan üçün yalnız iqtisadi müstəvidə əhəmiyyətlidir.

Aydın məsələdir ki, Aİİ postsovet məkanında Qərbin analoji təsisatlarına alternativ məqsədilə yaradılmış qurumdur. Bu təsisatda geosiyasi gündəmin istisnalılığını vurğulamaq təsəvvürə gətirilməyəcək qədər sərsəm mahiyyət daşıyır. Başqa bir təfsilata diqqət yetirərək deyək ki, Ermənistanın baş naziri ötən il Aİİ-nin 2030-2045-ci illər üçün iqtisadi proseslərin gələcək inkişafı haqqında bəyannaməsinin imzalanması zərurətindən söz açmış, daha dəqiq desək, qurumun inkişafının konseptual və prioritet istiqamətlərinə əsaslanmış bəyannamə barədə danışmışdı: "Aİİ və onun iqtisadi prinsipləri siyasi ambisiyalarla əlaqələndirilməməlidir. Ticarət və inteqrasiyanın əsas azadlıqları siyasi mülahizələrə görə məhdudlaşdırıla bilməz və məhdudlaşdırılmamalıdır. Bu, birləşmənin fundamental prinsiplərinin korroziyasına gətirib çıxaracaq".

*

Ümumiyyətlə, N.Paşinyanın ötənilki fikirlərindən belə qənaətə gəlmək mümkündür ki, Ermənistanın Aİİ-yə sədrliyi təşkilatın içinə qoyulmuş saat mexanimzli bombadır və bu bombanın nə zamansa, hətta ən yaxın perspektivdə partlamaq ehtimalı böyükdür. Deməli, indidən diqqətləri Ali Avrasiya İqtisadi Şurasının dekabrın 25-də Sankt-Peterburqda keçiriləcək sammitinə yönəltməyə dəyər. Ancaq Paşinyanın anti-KTMT xəttinə nəzərən, bombalardan birinin artıq "partladığını" söyləmək mümkündür. Elə isə Nikolun təşkilatla bağlı yeni bəyanatına diqqət yetirək.

Beləliklə, özünün anti-KTMT ritorikasına sadiq qalan N.Paşinyan deyib ki, "Gecikmə yoxdur", bizim sürət, tempimiz, ideyamız var. Görürsünüz, biz aydın və ardıcıl olaraq müəyyən istiqamətdə irəliləyirik". O, ölkəsini KTMT-dən kənarda hiss etdiyini, ancaq oradakı həmkarlarına hörmət əlaməti olaraq, rəsmi İrəvanın KTMT ölkələrinin çıxardıqları qərarlara maneçilik törətmədiyini vurğulayıb. Göründüyü kimi, Nikol, necə deyərlər, minnət qoymağı yaddan çıxarmayıb. Onu da deyək ki, baş nazir diqqətə çatdırdığımız fikrini Rusiya Prezidenti V.Putinin mövzu ilə əlaqədar dediklərini şərh edərkən açıqlayıb. Putin bu günlərdə Ermənistanın KTMT-dən çıxdığını elan etmədiyini və təşkilatın sammitinin bütün sənədlərini dəstəklədiyini bildirib. Elə isə məsələni Paşinyanın konkretləşdirməsinə nəzər salaq: "Sənədlərə gəlincə, bildirdik ki, təşkilatın işində iştirakımızı dondururuq. Sənədlərin işlənib hazırlanmasında, müzakirələrdə iştirak etmirik, təklif vermirik və təkliflərə cavab vermirik. Sadəcə olaraq, heç bir sənədə veto qoymuruq. Əslində, artıq özümüzü KTMT-dən kənarda hesab edirik. Qoy, onlar nə istədiklərinə qərar versinlər, biz işlərinə qarışmırıq, veto hüququna malik olduğumuzu demirik və bu, sırf həmkarlarımıza hörmətdən irəli gəlir".

Paşinyan, həmçinin vurğulayıb ki, ölkəsi ilə KTMT arasında münasibətlərdəki mövcud vəziyyət getdikcə daha da mürəkkəbləşir və Ermənistanın təşkilata qayıtmasını, demək olar, qeyri-mümkün edir. "Düşünürəm ki, geri dönüş nöqtəsi artıq keçib" – deyən erməni baş nazirin dilə gətirdiklərindən belə nəticə çıxır ki, Ermənistan tez bir zamanda KTMT ilə yollarını tamamilə ayıracaq. Hərçənd, məsələyə fərqli prizmadan yanaşmaq mümkündür və bunun üzərində dayanacağıq. Ancaq əvvəlcə Ermənistan – KTMT ziddiyyətlərinin səbəbinə, qısacaq, aydınlıq gətirək.

*

Ziddiyyətlər 2022-ci ilin noyabrından başlamışdı. Həmin vaxt Ermənistan KTMT-yə sədrlik edirdi və qurumun noyabrdakı yüksək səviyyəli toplantısı İrəvanda keçirilirdi. Rusiya liderinin və təşkilata üzv ölkələrin rəhbərlərinin qatıldıqları həmin toplantıda Nikol sentybarda Azərbaycanla yaşanmış hərbi eskalasiyasını Bakının təcavüzü kimi qiymətləndirmiş və tələb etmişdi ki, KTMT məsələyə siyasi qiymət versin. Lakin təşkilatın üzvləri buna qarşı çıxmışdılar. Onların yekdil qərarı bu olmuşdu ki, Azərbaycanla Ermənistan arasında sərhədlər müəyyənləşmədiyindən, KTMT-nin səlahiyyət zonasının dəqiqləşdirmək mümkünsüzdür. 2022-ci ildən ötən iki il ərzində Paşinyan iqtidarının təmsilçiləri qurumdan özünün Ermənistandakı səlahiyyət zonasını müəyyənləşdirməyi tələb etmiş və məhz bunun baş verməyəcəyi təqdirdə, öz iştiraklarını dondurduqlarını demişdilər.

*

Yekunda, ümumiləşdirmə apararaq, bilavasitə, əvvəldə haqqında söz açdığımız məqama nəzər salaq. N.Paşinyanın, aktiv anti-Rusiya xətti gerçəkləşdirməsinə, KTMT-yə qarşı demarşlarına rəğmən, o, ölkəsinin Aİİ ilə yollarını ayırmaq istəmir. Çünki ortada maliyyə və yüksək gəlir söhbəti var. İndiki məqamda Qərbyönümlü Ermənistan, əslində, Rusiyanın hesabına dolanır. Yəni, Qərb əlini cibinə salmadan Ermənistanı öz orbitində saxlayır və durum onun üçün çox sərfəlidir. Paşinyan da məsələnin fərqindədir. İndiki durumda ona anti-KTMT xəttini, daha doğrusu, qurumdan çıxmaqla bağlı ritorikanı gündəmdə saxlamaq, incik görkəm almaq Aİİ müstəvisindəki xoşagəlməzliklərdən, bir növ, sığortadır. Nikol, öz aləmində, Rusiyaya təzyiq göstərir ki, ölkə İrəvanın KTMT-dən uzaqlaşa biləcəyi ehtimalına görə, Aİİ çərçivəsində Ermənistana qarşı sərt mövqe tutmasın. Nəzərə alaq ki, Ali Avrasiya İqtisadi Şurasının iclasına sayılı günlər qalıb və tədbirdə İrəvana qarşı müəyyən təzyiqlərin qeydə alınması proqnozlaşdırılır. Bu halın yaşanması təbiidir, çünki heç kəsə ziyankar, hər an xəyanətə köklənə biləcək ortaq lazım deyil.

***Ə.CAHANGİROĞLU***
***XQ***

Replika

**Avropa İttifaqının bütün qurumlarında vəzifə və səlahiyyət bölgüsü aparılıb, yeni təyinatlar başa çatıb. İttifaqın köhnə komandasından kürsüsünü qoruyub saxlamağı bacaranlar da olub. Bunlardan biri Avropa Komissiyasının rəhbəri postunda ermənipərəst missiyasını davam etdirəcək Ursula Fon der Lyayendir.**

Bu münasibətlə Ursula Fon der Lyayenə təbrik teleqramı vuran Ermənistan baş naziri Nikol Paşinyan Avropa Komissiyasının yeni tərkibi ilə əməkdaşlığın sıx əməkdaşlığa, bu münasibətlərin daha da dərinləşməsinə ümid etdiyini bildirib. Maraqlıdır ki, Paşinyanın təbrik mesajını erməni mediasından əvvəl Rusiyanın TASS agentliyi paylaşıb. Moskvanın rəsmi informasiya agentliyinin bununla nəyə işarə etdiyi tam anlaşılmasa da, təbrikin İrəvan üçün əhəmiyyəti çox böyükdür.

# Paşinyanın iştahı dişini sındıra bilər



Əlbəttə, hayların baş nazirinin bu təbrikini şərtləndirən ciddi və unudulması mümkün olmayan amillər var. Ən başlıca amil 2024-cü il aprelin 5-də Brüsseldə Ermənistan baş naziri Nikol Paşinyan, Avropa Komissiyasının sədri Ursula Fon der Lyayen və ABŞ Dövlət katibi Antoni Blinkendən ibarət "üçlüy"ün təməlinin atılması və bundan ilk növbədə İrəvanın yararlanmasıdır.

Təbrik mətnində deyilir: "Biz Ermənistanla Avropa İttifaqı arasında tərəfdaşlığı daha yüksək zirvələrə çatdırmaq üçün yeni Avropa Komissiyası ilə sıx əməkdaşlığı gözləyirik". "Üçlər"in 5 aprel zirvə görüşündən sonra yalnız yüksələn xətlə inkişaf edən Aİ–Ermənistan münasibətlərinin gətirdiyi dividendlər İrəvanı necə şirnikləndiribsə, Paşinyan "daha sıx əməkdaşlığın" yeni üfüqlərini gözünün qarşısına gətirməkdədir. Axı, Aİ-nin Sülh Fondunun xətti ilə Ernmənistana ayırdığı 10 milyon avro İrəvanın "iştahının yalnız diş altından olmasına" bəs edə bilərdi. İndi yeni– köhnə sədrin səxavəti sayəsində daha böyük ianələr alacağına inanan hayların baş nazirının "dişlərini itiləməsi" tamamilə təbii qarşılanmalıdır.

Təəccüblü heç nə baş vermir. Ermənistan hakimiyyəti dəfələrlə Avropa İttifaqı ilə əməkdaşlığı Brüsselin mümkün saydığı dərəcədə gücləndirməyə hazır olduğunu bəyan edib. İrəvanın "kollektiv Qərb"dəki digər tərəfdaşları ilə yanaşı, Aİ ilə də əlaqələri dərinləşdirmək istəyi başadüşüləndir. Amma ortada parodoksal vəziyyət yaranıb: Aİ-nin Ursula Fon der Lyayenin sədrliyi ilə keçən əvvəlki dönəmində Azərbaycanla münasibətləri xeyli soyuması fonunda Bakının "Qoca qitə"dəki strateji tərəfdaşları ilə əlaqələri genişlənməkdə davam edib. Nəzərə alınmalı reallıq ondan ibarətdir ki, bütövlükdə, Aİ Azərbaycanın ən böyük ticarət tərəfdaşıdır. Yəni bu birliyə daxil olan bir sıra dövlətlərlə Azərbaycan strateji tərəfdaşlıq münasibətlərinə malikdir. Azərbaycan Avropa məkanında enerji təhlükəsizliyinin təmin olunması sahəsində aparıcı mövqelərə malik dövlətlərdən sayılır.

Fransanın dominantlıq etdiyi Aİ isə istər Ermənistanla Azərbaycan arasında normasllaşmağa meyilli ikitərəfli münasibətləri, istərsə də Cənubi Qafqazda sülhə və əməkdaşlığa töhfə verə biləcək təşəbbüsləri tormozlamaqla regionda özünün geosiyasi maraqlarını təmin etmək, buranı Rusiya ilə geosiyasi qarşıdurma meydanına çevirmək barədə düçünür. Aİ-nin belə zərərli və perspektivsiz fəaliyyətinin nəticəsi kimi qəbul etdiyi qərarlar Azərbaycanla bu qurum arasındakı münasibətlərə təsirsiz ötüşməyəcək. Necə ki, COP29 Sammitində bunun fəsadlarını, ilk növbədə, Avropa İttifaqı öz üzərində hiss elədi.

Amma aşkar göründüyü kimi, bütün bunlar Avropanın ermənicanlı dairələri tərəfindən nəzərə alınmır. Əgər bu mənfi tendensiya bundan sonra da davam edərsə, son nəticədə bu, regionda möhkəm sülhün və əməkdaşlığın təmin olunmasına deyil, əksinə, yeni münaqişə ocağının yaranmasına, birləşdirici yox, bölücü xətlərin ortaya çıxmasına səbəb ola bilər. Bu isə nə "Qafqaz evi"nin sakinləri olan ölkələrin, nə də Avropa İttifaqına üzv dövlətlərin maraqlarına uyğundur.

***İ.HƏSƏNQALA***
***XQ***

# "Məktəbəqədər təhsildə keyfiyyətə yeni baxış"




**Elm və Təhsil Nazirliyi, Təhsildə Keyfiyyət Təminatı Agentliyinin təşkilatçılığı, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi və Təhsil İnstitutunun tərəfdaşlığı ilə "Məktəbəqədər təhsildə keyfiyyətə yeni baxış" adlı II beynəlxalq konfrans keçirilib.**

Məclisdə elm və təhsil naziri Emin Əmrullayev, Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov, deputatlar, ali təhsil müəssisələrinin rektorları, regional təhsil idarələrinin əməkdaşları, məktəbəqədər təhsil müəssisələrinin rəhbərləri, eləcə də Böyük Britaniya və Finlandiyadan olan məruzəçilər və yerli mütəxəssislər iştirak ediblər.

Açılış nitqi ilə çıxış edən TKTA-nın İdarə Heyətinin sədri Tural Əhmədov qonaqları salamlayaraq, 1–5 yaşlı uşaqların layiqli vətəndaş kimi formalaşmasında keyfiyyətli məktəbəqədər təhsilin önəmindən danışıb. Tural Əhmədov 2023–2024-cü illərdə 150 məktəbəqədər təhsil müəssisəsində keyfiyyət monitorinqlərinin keçirildiyini bildirib: "Məktəbəqədər təhsil uşaqların cəmiyyətdə öz yerini tapması üçün zəmin yaradır".

Elm və təhsil naziri Emin Əmrullayev dövlət başçısının müvafiq sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda təsbit olunmuş məktəbəqədər təhsilin nəticəyönümlü və ölçüləbilən hədəfləri barədə danışıb. Bu sahədə əhatəliliyin təmin olunması məqsədilə son illər həyata keçirilən işlərdən söz açan nazir məktəbəhazırlıq qruplarının da əhəmiyyətini vurğulayıb: "Sovet dövründə bağçalarla təminat 10 faiz olub. Hədəfimiz bunu 50 faizə çatdırmaqdır. 5 yaşda uşaqların məktəbəhazırlıq qruplarına cəlb edilməsi də əsas məqsədlərdən biridir. Əvvəlki illərlə müqayisədə bu göstəriciləri 30 faizdən 90 faizə çatdırmağa hazırlaşırıq".

Konfrans "Məktəbəqədər təhsildə yaşıl nümunələr və oyunəsaslı öyrənmə" və "Məktəbəqədər təhsildə davamlı keyfiyyət və onun idarə olunması" panelləri ilə davam etdirilib.

***R.ABİŞOV***
***XQ***

# Sen Martin adasına azadlıq!

BİRLİK-AZADLIQ-MÜSTƏQİLLİK
BAKI TƏŞƏBBÜS QRUPU

**Dekabrın 6-da Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə Fransa və Niderlandın müstəmləkəçiliyi altında olan Sen Martin adasına həsr olunmuş beynəlxalq konfrans keçiriləcək.**

"Sen Martində Fransa və Niderland müstəmləkəçiliyi – bir ada, bir xalq, bir tale" adlı konfransda müstəmləkəçiliyə qarşı mübarizə aparan və azad olmağa çalışan Sen Martin xalqının təmsilçiləri, habelə müstəmləkəçilik əleyhinə fəaliyyət göstərən təşkilatların rəhbərli, parlamentin üzvləri, hüquq müdafiəçiləri, qeyri-hökumət təşkilatlarının rəhbərləri, dekolonizasiya üzrə ekspertlər və tədqiqatçılar iştirak edəcək.

Konfransda Fransa və Niderlandın əsarəti altında olan və iki hakimiyyətin mövcud olduğu Sen Martin xalqının müstəmləkəçilikdən azad olmaq uğrunda apardığı mübarizə, habelə problemin aidiyyəti beynəlxalq təşkilatların gündəliyinə çıxarılması istiqamətində görülən işlər, beynəlxalq hüquqi mexanizmlər müzakirə olunacaq.

Qeyd edək ki, Sen Martin adası müstəmləkəçilik dövründə və ondan sonrakı müddətdə özünəməxsus xüsusiyyətləri ilə digər müstəmləkələrdən fərqlənir. Sen Martin adası həm Fransa, həm də Niderland tərəfindən müstəmləkə edilib və 1648-ci ildən bəri bu iki dövlət arasında bölünüb. Adanın Fransız hissəsi Sen-Martin, Niderland hissəsi isə Sint Maarten adlanır.

***XQ***

V MƏQALƏ

### Böyük Qayıdış: İki miqyasın ortaq anlamı

Fəlsəfi prizmadan baxanda burada iki anlamın sintezini görmək olar. Birinci, anlam 30 illik münaqişənin həll edilməsi ilə tarixi, siyasi, müstəqil dövlətçilik baxımından böyük olan qayıdışın nəzərdə tutulması ilə bağlıdır. Qarabağa insanların bu anlamda qayıdışı ona görə böyükdür ki, bu, həm də Azərbaycan mədəniyyəti, kimliyi və dövlətçiliyinin bir bölgəmizə əbədi və təhlükəsiz olaraq qayıdışını ifadə edir. Qədim Şərq fəlsəfəsində dahiyanə bir fikir var: özünə qayıdış sabitlikdir, kamillikdir, tamlıqdır və özünü tanımaqdır! Bu fikrin təməlində türk fəlsəfəsinin bir qızıl kəlamı dayanır: Özünə qayıt, özünə qayıdanda sən güclü olursan!

Bu mənada, Qarabağa qayıdış, sadəcə, fiziki olaraq evinə dönmək deyildir. Bu, mədəniyyətinə, tarixinə, milli ləyaqətinə və kimliyinə qayıdış və həm də onun dirçəlişidir! Buna görə Böyük Qayıdışdır! Səbəbinin mühüm bir qismini çağdaş dünyanın bir sıra özəllikləri kontekstində dövlət və cəmiyyət olaraq son 35 illik tariximizdə axtarmaq olar.

Azərbaycan müstəqilliyini keçən əsrin 90-cı illərinin əvvəllərində əldə edəndə çox istiqamətlərdə bizi dövlət, ölkə, mədəniyyət, mənəviyyat və coğrafiya olaraq zədələdilər. Siyasi-ideoloji təxribatlarla yanaşı, ərazimizin bir qisminin qonşu cırtdan bir ölkə tərəfindən işğal olunması üçün o mərhələnin güclü dövlətləri əllərindən gələni etdilər. Ölkə, dövlət və cəmiyyət olaraq sarsıldıq! Ancaq Ulu öndər sınmağa imkan vermədi – qorudu, motivə etdi, fəaliyyəti ilə "Sən güclüsən, çünki azərbaycanlısan!" mesajını verdi.

Azərbaycan faktiki olaraq kənardan olan ciddi və güclü təzyiqlərin mövcudluğu şəraitində özünü yenidən yaratmalı idi. Bu da müəyyən mənada müasir dövlətçiliyin əsas parametrlərini saxlamaqla özünə qayıtmağı bacarmaq demək idi. Prezident İlham Əliyev Vətən müharibəsinin nəticələrini yığcam ifadə edərək tamamilə haqlı olaraq "milli ləyaqət" anlayışını önə çəkmişdir. Milli ləyaqətin yenidən dərki və cəmiyyət olaraq qəbul edilməsi qayıdışın böyüklüyünün məna nüvəsini təşkil edir. Milli ləyaqət yeni şərtlər daxilində azərbaycanlıların özünü tanımasının başlıca faktorudur.

Avrasiya məkanında mürəkkəb geosiyasi vəziyyətə görə bu uğur başqa heç bir xalqa müyəssər olmamışdır. Deməli, Qarabağa insanların qayıdışı həm də ona görə böyük tarixi hadisədir ki, ən mürəkkəb qlobal geosiyasi şərtlər daxilində Azərbaycan dövlət olaraq buna nail olmuşdur!

Təbii ki, Böyük Qayıdışın vurğuladığımız anlamı çox önəmli və ibrətvericidir.

# Liderin quruculuq kursu



Bunun təbliği və təşviqi çox vacibdir. Ancaq bu qayıdışın başqa bir miqyasda önəmli anlamı da vardır. Bu, həmin anlaşıyın fəlsəfi qavramı ilə bağlıdır.

### Qayıdışın fəlsəfi anlamı və Qərbi Azərbaycan

Fəlsəfə həmişə daha geniş, fundamental və ümumiləşdirici səviyyədə "işləyir". Bu prizmada Böyük Qayıdış, ümumiyyətlə, Azərbaycanın qürur verən dövlətçilik ənənəsinə yenidən baxışının rəmzidir. O, daha əhatəli kontekstdə əhəmiyyətli özəllikləri özündə birləşdirir. Millətin özünə böyük mənada yenidən baxması, dünyanı müstəqil dövlətçilik işığında kollektiv varlıq kimi duyması və bu əsasda öz gələcəyinin obrazını dəqiq proqnozlaşdırması Böyük Qayıdışdır! Bu qayıdışda ənənə ilə müasirlik müstəqil dövlətçilik aspektində vəhdət təşkil edir. Onlar bir-birini keçmiş naminə (bu anlamda "qayıdış" rəmzi məna daşıyır) deyil, gələcək davamlı və dinamik inkişaf naminə tamamlayırlar.

Bu prosesdə mühüm məqam dövlətçiliyin inkişafı, təhlükəsizliyin təmini və müstəqil ölkə kimi fəaliyyət dairəsini genişləndirməklə əlaqəlidir. Həmin kontekstdə də Qərbi Azərbaycan məsələsi Böyük Qayıdışın fəlsəfi anlamında ayrıca yer tutur.

Öncə vurğulayaq ki, Qərbi Azərbaycan məsələsinin fəlsəfi səviyyədə dövlətçiliyin vacib parametrlərindən biri səviyyəsinə yüksəldilməsi Prezident İlham Əliyevin böyük töhfəsidir. Çünki bu məsələ o qədər incə, zərif və sırf milli yanaşma tələb edir ki, yalnız yüksək siyasi və diplomatik məharətlə onun gündəmə gətirilməsi qalıcı fayda verə bilər. İndi müşahidə etdiyimiz proseslər göstərir ki, Azərbaycan Prezidenti bunu böyük uğurla həyata keçirir. Şübhə etmirəm ki, bu prosesin qarşısında heç bir qüvvə dayana bilməyəcək. Qərbi Azərbaycan məsələsində Azərbaycan mütləq qalib olacaq! Bu nikbinliyin səbəbini izah edək.

Məsələnin kökü onunla bağlıdır ki, Prezident İlham Əliyev müstəqil Azərbaycanın ərazi bütövlüyünün bərpasını və əbədi təmin edilməsini dövlətçiliyin əsas "sütunlarından" biri statusunda dövlətçilik kursuna daxil edə bilmişdir. Bu mənada Qərbi Azərbaycan məsələsi yeni ərazi tutmaq kimi iddialardan çox uzaqdır. İlham Əliyev bu məsələni siyasi, diplomatik və mənəvi faktor kimi dövlətçiliyin təmini müstəvisinə gətirmişdir. Özü də mühüm strateji faktorlardan biri kimi gətirmişdir.

Bu baxımdan Qərbi Azərbaycan məsələsi fəlsəfi kontekstdə xüsusi anlamda Böyük Qayıdışın rəmzidir. Onun konkret fəlsəfi anlamının Azərbaycanın tarixi, mədəniyyəti, mənəvi-əxlaqi dəyərlərinin müasir beynəlxalq hüquq baxımından müstəqil dövlətçilik kontekstində qorunması üçün ərazi bütövlüyü və suverenliyin tam təmin edilməsi ilə daxili məntiqi, siyasi və feili bağlantısı olmalıdır.

Bunun fonunda Qərbi Azərbaycan məsələsi hər bir azərbaycanlının təbii yaşamaq və yaratmaq hüququnun təmin edilməsi ilə əlaqəlidir. Azərbaycan mədəniyyətinin məkandan (coğrafiyadan) asılı olmayaraq dünya mədəniyyətinin incilərindən biri olduğunun hər bir dövlət tərəfindən siyasi, hüquqi, təbliği və təşviqi anlamlarda qəbul edilməsidir. O cümlədən, indi "Ermənistan" adlanan dövlət rəsmi olaraq bu hüququ tanımalı və ona tam əməl etməlidir. Həmin istiqamətdə Ermənistan, birinci, azərbaycanlılara qarşı yeritdiyi siyasətdə ciddi səhvlərini etiraf etməli, ikinci, konstitusiyasından qonşu dövlətlərə gizli və ya açıq ərazi iddialarını çıxarmalı, üçüncüsü, Azərbaycan mədəniyyətinin Qərbi Azərbaycanda dağıdılması və yadlaşdırılması prosesinə son qoyulmalı, dördüncüsü, azərbaycanlıların öz tarixi torpaqlarına maneəsiz gedişinə nail olmalıdır. Qayıdış bu şərtlərin ayrılıqda və kompleks halında ödənməsini nəzərdə tutur.

Qərbi Azərbaycan məsələsinin bu cür fəlsəfi anlamı avtomatik olaraq onun siyasi anlamına konkret məzmun verir. Belə ki, Qərbi Azərbaycan azərbaycanlıların tarixi, siyasi və mədəni aspektlərdə təbii hüquqlarının əsasını təşkil etmiş olur. Azərbaycan Respublikası müstəqil dövlət kimi bu baza üzərində xarici siyasətini qura bilər.

Yeni tarixi mərhələdə məhz həmin kontekstdə Qərbi Azərbaycan məsələsi xarici siyasətin prioritetləri sırasına daxil edilmişdir. Bu istiqamətdə lazımi siyasi, diplomatik və təşkilati proseslər aparılır. Deməli, Qərbi Azərbaycan Böyük Qayıdışın artıq feili aspektdə də reallıqlarından biridir. Bu da o deməkdir ki, indiki mərhələ faktiki olaraq özündə Qərbi Azərbaycan məsələsini nəzəri-konseptual, fəlsəfi və politoloji ilə yanaşı, feili və praktiki olaraq özündə ehtiva edir. Həmin mexanizmin işə salınması problemin həllində ciddi perspektvilərin mövcudluğunun təsdiqidir.

Vurğulanan xüsusiyyətlər əsasında Böyük Qayıdışın fəlsəfi və politoloji anlamlarını ümumiləşdirmək olar. Hər şeydən öncə, Böyük Qayıdış çoxaspektli və zəngin məna çalarları olan prosesdir. Onun təməlində müasir mərhələdə müstəqil Azərbaycan Respublikası dövlətinin inkişafı fəlsəfəsi durur. Həmin anlamda "qayıdış" keçmişə dönməyi ifadə etmir. O, sadəcə coğrafi anlamda yer dəyişməklə də məhdudlaşmır.

Böyük Qayıdış cəmyyətin öz dövlətçilik ənənələrini, dövlətçilik şüurunu, milli-mənəvi dəyərlərini, mədəniyyətini, kimliyini müasir çağırışlar fonunda yenidən dərk etməklə gələcəyin obrazını formalaşdırmaqdır. Bu məna və məqsədcə dövlət, cəmiyyət və millətin gələcəyə yönəlmiş istək və proqramlarının fokuslanmış məcmu ifadəsidir.

Böyük Qayıdışın əsas hədəfi vurğulanan kontekstdə 2030-cu ildə qüdrətli demokratik dövlət və yüksək rifah cəmiyyəti yaradılması prosesinin mühüm tərkib hissəsi olmaqdır. Məhz həmin aspektdə Qərbi Azərbaycan məsələsinin daim gündəmdə saxlanması və praktiki fəaliyyətin başlıca parametrlərindən biri olması zəruridir. Yeni tarixi mərhələdə Azərbaycan informasiya müharibəsində hücum taktikasını yeni mərhələyə yüksəltməlidir.

Qayıdış anlayışına real və praktiki olaraq yeni anlamı verən güclü lider İlham Əliyevdir! Azərbaycan Prezidenti, sözün həqiqi mənasında, Böyük Qayıdışın bütün anlamlarda memarıdır! Bununla yanaşı, həmin prosesi eksklüziv həyata keçirən milli lider, dövlət başçısıdır. Bu reallığın fonunda Böyük Qayıdışla yanaşı, Böyük Millət quruculuğu məsələsi də son dərəcə ciddi fəlsəfi və politoloji aktuallıq kəsb edir.

**(ardı var)**

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# Gürcüstan hökuməti milli maraqları sayıqlıqla qoruyur





**Gürcüstanda hökumətin Avropa İttifaqı ilə danışıqları 2028-ci ilə qədər dayandırmaq barədəki qərarından sonra ölkədə baş qaldıran etiraz aksiyaları davam etməkdədir. Dünənki aksiyalar da hökumət qüvvələri tərəfindən dağıdılıb. Lakin bu günlər müşahidə edilən odur ki, Gürcüstan hökumətinə qarşı xarici təzyiqlər artdıqca Tbilisi və digər şəhərlərdə etirazçı kütlənin aqressivliyi də çoxalır.**

Dünən aksiyaların gedişində Tbilisidə polisə bıçaqla hücum etməkdə şübhəli bilinən 18 yaşlı şəxs saxlanılıb. Bu barədə Daxili İşlər Nazirliyi (DİN) məlumat yayıb. Nazirliyin məlumatında bildirilir: "İstintaq müəyyən edib ki, bıçaqla silahlanmış təqsirləndirilən şəxs bu il noyabrın 30-da Rustaveli prospektində aksiya zamanı DİN əməkdaşının sağlamlığına zərər yetirmək məqsədilə ona hücum edib".

Nazirlik onu da bildirib ki, ümumilikdə mitinqlərlə əlaqədar cinayət işləri üzrə yeddi nəfər saxlanılıb.

Gürcüstanın Baş naziri İrakli Kobaxidze keçirdiyi brifinqdə bəyan edib ki, ölkədə zorakılıq halları partiyalardan qaynaqlanır. "Onlar, əlbəttə ki, nə ilə məşğul olduqlarını anlayırlar. Ən üzücü olan odur ki, müxalifət təmsilçiləri insanları, o cümlədən, gəncləri çox ciddi cəzalar üçün qurban verirlər. Bu səhər siz gənclərdən birinin ağır cinayətə görə saxlanıldığını və bir polis əməkdaşının sağlamlığına ciddi ziyan vurduğu üçün 7 ilə qədər həbs cəzası ala biləcəyini oxudunuz. Bu, əlbəttə ki, həmin avantüristlərin məsuliyyətidir. Saakaşvili, Qvaramiya, Xazaradze və Qaxariya ilə əlaqəli dörd partiya dünən, demək olar ki, açıq şəkildə bu koordinasiya olunmuş zorakılığa dəstək verəcəklərini bəyan etdilər. Əlbəttə ki, onlar bütün bunlara görə məsuliyyətdən qaça bilməzlər. Ona görə də hər kəs bunu nəzərə almalıdır" – deyə o bildirib.

Baş nazirin sözlərinə görə, bəzi xarici qüvvələrin Gürcüstanda "Maydan" yaratmaq cəhdləri tamamilə iflasa uğrayıb: "Dünən, nəhayət ki, uğursuzluğa düçar olmuş "Milli Maydan"ın (Natsmaydan) arxasında yalnız siyasi qüvvələrin və siyasi partiyaların dayandığı təsdiqləndi. Zorakılığın əsas mənbəyi partiya ofisləri idi və biz həmin partiya ofislərinə daxil olub, müvafiq zorakılıq silahlarını götürən kimi zorakılıq dərhal sona çatdı. Dünən göründü ki, partiya qruplarının artıq zorakılıq üçün resursları yoxdur".

Baş nazir Kobaxidze, eyni zamanda, müxalifət partiyalarının liderlərini görüşə dəvət edib. Amma onlar bundan imtina ediblər. Kobaxidze isə hökumətin iclası zamanı etiraf edib ki, Gürcüstan hakimiyyəti müxalifət partiyalarının qeyri-qanuni tanınmasına nail olmaq üçün ölkənin Konstitusiya Məhkəməsinə (MK) müraciət edə bilər. Hökumət başçısının sözlərinə görə, müxalifət nümayəndələri son günlər ölkənin konstitusiya quruluşuna açıq şəkildə qarşı çıxıblar ki, bu da məhkəməyə müraciət etmək və müxalifət partiyalarını konstitusiyaya zidd elan etmək üçün birbaşa əsas yaradır.

"Proseslərin necə inkişaf edəcəyini gözləyəcəyik. Hər şey öz əlimizdədir", – Kobaxidze bildirib.

Baş nazir onu da əlavə edib ki, müxalifət dedikdə, xüsusən Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvilinin "Vahid Milli Hərəkat", "Dəyişiklik Uğrunda" və "Güclü Gürcüstan" koalisiyasını, eləcə də keçmiş baş nazir Georgi Qaxariyanın "Qaxariya – Gürcüstan üçün" partiyalarını nəzərdə tutur.

Etiraz aksiyalarının dağıdılması bir sıra Qərb ölkələri tərəfindən narazılıqla qarşılıanır. Dünən ABŞ dövlət katibi Antoni Blinken bildirib ki, Gürcüstan hakimiyyəti ölkənin Avropa İttifaqına daxil olması ilə bağlı danışıqların dayandırılmasına etiraz edənləri təqib etdiyinə görə ABŞ Gürcüstana qarşı sanksiyalar tətbiq etməyə hazırdır. Dövlət Departamentinin saytında dərc olunmuş bəyanatda deyilir: "Birləşmiş Ştatlar Gürcüstan xalqı və onun demokratik istəkləri ilə həmrəydir. Gürcüstanda demokratik proseslərə və ya institutlara xələl gətirənlər, o cümlədən Gürcüstan vətəndaşlarının dinc toplaşmaq və ifadə azadlığı hüquqlarını boğanlar məsuliyyətə cəlb olunacaqlar. İkitərəfli əməkdaşlığın daha əvvəl elan edilmiş hərtərəfli nəzərdən keçirilməsi ilə yanaşı, Birləşmiş Ştatlar əlavə sanksiyalar da daxil olmaqla, bizim ixtiyarımızda olan bütün vasitələrdən istifadə etməyə hazırlaşır", – Blinken bildirib.

ABŞ dövlət katibi bildirib ki, Vaşinqton Gürcüstan vətəndaşlarına, nümayişçilərə, media və müxalifət nümayəndələrinə qarşı "qəddar və əsassız zorakılığa" görə "Gürcü arzusu" partiyasını qətiyyətlə pisləyir. ABŞ "Gürcü Arzusu"nu "əsassız həbslər və fiziki zorakılıq da daxil olmaqla repressiv taktikaları" dayandırmağa çağırıb. Vaşinqton, həmçinin etirazlarda saxlanılanların hamısının azad edilməsini və qanunsuz güc tətbiqinə görə məsuliyyət daşıyanların mühakimə olunmasını tələb edib.

Ölkəsinin milli maraqlarını qoruyan gürcü hökumətinə qarşı təzyiq göstərən azmış kimi, dünən Ukrayna da "Gürcü arzusu"nun qurucusu və fəxri sədri Bidzina İvanişviliyə, Baş nazir İrakli Kobaxidze və Gürcüstan hökumətinin yüksək vəzifəli 18 əməkdaşına qarşı sanksiyalar tətbiq edib. Bu barədə fərmanı Prezident Volodimir Zelenski imzalayıb.

Hər halda Gürcüstan hökuməti ölkənin milli maraqlarını inadla qorumaqdadır. Bynunla belə, hökumətə Qərbdən təzyiqlər və etiraz aksiyaları da davam edir.

***P.ƏMİRCANOV***
***XQ***

# Özbəkistan və Azərbaycan QHT-lərinin ilk forumu

**Dekabrın 5-də Daşkənddə ilk dəfə Özbəkistan-Azərbaycan QHT-lərinin forumu işə başlayıb. Forumdan əvvəl nümayəndə heyətimiz Özbəkistanın müvafiq qurumlarının rəhbər şəxsləri ilə birgə Daşkənddə ümummilli lider Heydər Əliyev meydanını ziyarət edib.**




Açılış mərasimində Özbəkistanın Qeyri-Hökumət Qeyri-Kommersiya Təşkilatları Milli Assosiasiyasının sədri Kamoliddin İşanxojayev 2023-cü ilin noyabrında Füzulidə Azərbaycan–Özbəkistan QHT-lərinin Əməkdaşlıq Forumunu məmnunluqla xatırlayıb və bildirib ki, hazırkı tədbir bu prosesin davamıdır. Özbəkistanın Ali Məclisi yanında Vətəndaş Cəmiyyəti İnstitutlarına Dəstək İctimai Fondundan Ayırmaların İdarəedilməsi üzrə Komissiyanın sədri Adxam Şodmonov ilk dəfə dekabrın birinci həftəsinin Özbəkistanda "Vətəndaş cəmiyyəti həftəsi" kimi qeyd olunduğunu və belə bir həftədə bu forumun keçirilməsini Azərbaycanla münasibətlərə verilən xüsusi əhəmiyyətin daha bir təzahürü kimi qiymətləndirib.

Azərbaycan Prezidentinin Administrasiyasının QHT-lərlə iş və kommunikasiya şöbəsinin QHT-lərlə iş sektorunun müdiri Tural Əliyev bildirib: "Artıq əminliklə demək olar ki, iki qardaş ölkənin vətəndaş cəmiyyəti, QHT-ləri arasında çox güclü dostluq, əməkdaşlıq, həmrəylik körpüsü fəaliyyətdədir. Azərbaycan və Özbəkistan qardaş ölkələrdir, müttəfiqlərdir. Siyasi münasibətlər ən yüksək səviyyədədir. İki ölkənin QHT-ləri arasında da bağların möhkəmləndirilməsi, əlaqələrin genişləndirilməsi dövrün mühüm çağırışıdır". O, COP29-la əlaqədar ilk gündən Azərbaycana verilən qardaş dəstəyinə görə Özbəkistan QHT-lərinə təşəkkürünü bildirib.

QHT-lərə Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva, Azərbaycanın Özbəkistandakı səfirliyinin müşaviri Mahir Cəfərov və başqaları iki ölkə QHT-lərinin əməkdaşlıq perspektivlərindən danışıblar.

*Qulu KƏNGƏRLİ,*
*XQ-nin Türküstan müxbiri*

# Prezident İlham Əliyev nəyi deyirsə, ona nail olur

## *Qərbi Azərbaycana Qayıdış konsepsiyamız da mütləq gerçəkləşəcək*

**Bu mövzu artıq çox aktuallaşıb. İndi ölkəmizdəki bütün zümrələrin təmsilçiləri – siyasətçi, diplomat, alim, həkim, usta, neftçi, şagird – hamı bizim Qərbi Azərbaycana qayıdışımızın zəruriliyindən, mümkünlüyündən və mütləq reallaşacağından danışır. İkinci Qarabağ müharibəsi günlərində bir yumruq kimi birləşərək vahid amal uğrunda başlanan mübarizəyə elliklə qatılan xalqımız inanır ki, biz bu mübarizədə də qalib gələcəyik. Həm də cənab Prezidentin dediyi kimi, biz o torpaqlara tankın üstündə deyil, siyasətlə, diplomatiya ilə, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanaraq qayıdacağıq.**

O ki qaldı "qayıdış" məsələsinə, xatırladaq ki, Azərbaycan xalqı son 30-35 ildə olduqca möhtəşəm qayıdışlara nail olmuşdur. SSRİ kimi nəhəng dövlətin ali rəhbərliyində təmsil olunan Heydər Əliyevin dünya erməniliyinin min bir məkr, fitnə-fəsadları ilə istefa verməsi xalqımız üçün nə qədər ağır idisə, onun Azərbaycanda böyük siyasətə qayıdışı bir o qədər əhəmiyyətli oldu.

**Qərbi azərbaycanlılar qanunsuz olaraq dəfələrlə deportasiyaya məruz qalmış toplumdur. Onların hüquqları bərpa edilməlidir və onlar öz doğma torpaqlarına qayıtmalıdırlar. Mən bunu deyəndə təxmin edirəm, yenə də Ermənistanda növbəti dəfə isterika başlayacaq ki, Azərbaycan gəldi bizi işğal etdi və sair. Yox! Biz bunu sülh yolu ilə etmək istəyirik. Biz hüquqlarımızı sülh yolu ilə təmin etmək istəyirik və yenə də deyirəm, bütün konvensiyalar bu hüququ tanıyır.**

**Azərbaycan Prezidenti İlham Əliyevin**
**Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşdəki nitqindən**

**Bakı, 24 dekabr 2023-cü il**

Son zamanlar bəzi politoloq və ekspertlər deyirlər ki, bizim indi Ermənistan adlandırılan ərazilərə qayıtmağımızın zəruriliyi 44 günlük müharibədəki şanlı Zəfərimizdən sonra aktuallaşıb. Doğrudur, cənab Prezidentin özü də bəzi çıxışlarında deyib ki, biz İkinci Qarabağ müharibəsindən əvvəl bu məsələ ilə bağlı hansısa addım atmırdıq. Çünki bütün qüvvələrimizi işğalçının ölkəmizdən çıxarılması istiqamətində cəmləşdirmişdik. Ancaq bu o demək deyil ki, Qərbi Azərbaycana qayıdış məsələsi öz aktuallığını itirmişdir. Qətiyyən elə deyil.

Bu arqumentimi iki tarixi mesajı xatırlatmaqla əsaslandırmağa çalışacağam. **Birinci mesaj:** Məncə, Qərbi Azərbaycan İcmasının "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda Bakı şəhərində təşkil etdiyi II beynəlxalq konfrans haqqında danışarkən, ilk növbədə, ulu öndər Heydər Əliyevin 2003-cü il oktyabrın 1-də Azərbaycan xalqına ünvanladığı müraciəti yada salmaq lazımdır. Ümummilli liderimiz həmin müraciətində deyirdi: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

O zaman kimlərsə deyirdi ki, Heydər Əliyev "axıra çatdıra bilmədiyim taleyüklü məsələlər" – deyəndə işğal altında olan keçmiş Dağlıq Qarabağı və ətraf yeddi rayonu nəzərdə tutur. Ancaq mərhum akademik Budaq Budaqov "Xalq qəzeti"nə verdiyi müsahibədə demişdi ki, Heydər Əliyev həmin müraciətində Qərbi Azərbaycan məsələsini həll edə bilmədiyindən də nigarançılıq hissi keçirir və inanırdı ki, həmin məsələni nə zamansa İlham Əliyev aktuallaşdıracaqdır. Çox təəssüf ki, akademikin həmin mülahizəsinə ağız büzən "tanınmış ziyalımız" indi həyatda yoxdur. Yaşasaydı, ona sualım ola bilərdi.



**İkinci mesaj:** Prezidentliyə namizədliyi irəli sürüldüyünə görə Baş nazir vəzifəsindən istefa vermiş İlham Əliyev 2003-cü ilin oktyabrında seçicilərlə görüşərinin birində demişdi ki, siz mənə səs versəniz, "Mən hər bir azərbaycanlının prezidenti olacağam".

Hörmətli oxucu, diqqət yetir. O, "hər bir vətəndaşımızın" yox, məhz "hər bir azərbaycanlının" deyirdi. Olduqca aydın mesaj idi. Cənab Prezident çox sonralar Özbəkistanın Səmərqənd şəhərində keçirilən bir tədbirdə demişdi ki, biz təkcə Azərbaycan ərazisində yaşayan soydaşlarımızın deyil, dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların hüquqlarını qorumalıyıq və qoruyacağıq. Söhbət insan hüquqlarından gedirsə, ən çox hüququ pozulan insanların məhz Qərbi azərbaycanlılar olduğu hamıya məlumdur.

Yaxud, 2016-cı ilin Aprel döyüşlərindən sonra geri aldığımız Cocuq Mərcanlı bizim üçün Böyük Qayıdışın üvertürası olduğuna ğörə misilsiz əhəmiyyət kəsb edirdi. Eləcə də, düşmən üzərindəki möhtəşəm Zəfərimizdən sonra Ağalı kəndi ilə başlanan Füzuli, Şuşa, Laçın, Kəlbəcər və digər ata-baba torpaqlarımıza qayıtmağımız bizə mükəmməl bir "Qayıdış təcrübəsi" qazandırıb. Fikrimizcə, həmin təcrübə bizim İrəvana, Göyçəyə, Zəngəzura qayıtmağımıza da körpü olacaq. Yəni qayıdış məsələsi bizim üçün problem olmayacaq.

Yeri gəlmişkən, cənab Prezident "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda II beynəlxalq konfransın iştirakçılarına məktubunda da bu məsələyə özünəməxsus şəkildə toxunmuşdur: "Azərbaycan xalqı heç vaxt bu ədalətsizliklə barışmamış, haqq səsini dünyaya çatdırmağa çalışmışdır. 2020-ci ildə Azərbaycanın şanlı qələbəsi ilə bitən Vətən müharibəsi Qarabağdan və Şərqi Zəngəzurdan qovulmuş soydaşlarımızın doğma yurdlarına qayıdışına imkan yaratdı. Azərbaycanın bu ədalətli savaşı beynəlxalq hüququn aliliyinin təntənəsi və qlobal miqyasda məcburi köçürülmə probleminin həllinə verilmiş böyük bir töhfədir. İşğaldan azad edilmiş ərazilərdə hazırda "Böyük Qayıdışa dair Dövlət Proqramı" uğurla icra edilir".

Dövlət başçımız xatırladır ki, Ermənistan rəhbərliyi Bakıda fəaliyyət göstərən Qərbi Azərbaycan İcmasının məqsədini qəsdən öz ərazi bütövlüyünə təhdid kimi təqdim etməyə çalışır. Lakin icmanın məqsədi Qərbi Azərbaycandan didərgin salınmış soydaşlarımızın dinc və təhlükəsiz şəraitdə, ləyaqətlə öz dədə-baba yurdlarına qayıdışının təmin olunmasından ibarətdir: " Bu, sırf insan haqları məsələsidir. Ermənistanın icmanın fəaliyyətini təhdid kimi qələmə verməsi məsələnin əsl mahiyyətini təhrif etmək və beynəlxalq hüquqa əsaslanan qayıdış hüququnu inkar etmək cəhdidir".

Bu sətirləri Prezident İlham Əliyevin bu il sentyabrın 30-da Bakıda Azərbaycan aşıq yaradıcılığının görkəmli nümayəndəsi, böyük el sənətkarı Aşıq Ələsgərin abidəsinin açılışındakı çıxışında səsləndirdiyi nikbinlik notları ilə bitiririk:

"Bu gün Qərbi azərbaycanlıların görkəmli nümayəndəsinin abidəsinin ucaldılması təbii olaraq, ilk növbədə, Aşıq Ələsgərin xatirəsinə Azərbaycan xalqının hörmətinin əlamətidir. Ancaq, eyni zamanda, bu abidə bütün Qərbi azərbaycanlıları və bütün Azərbaycan xalqını yenə də bir amal uğrunda birləşməyə dəvət edən hadisədir. Biz o günü səbirsizliklə gözləyirik, inanırıq, mən də inanıram, siz də inanırsınız. Gün gələcək biz Aşıq Ələsgərin ermənilər tərəfindən dağıdılmış abidəsini bərpa edəcəyik və Ağkilsə kəndində buna oxşar mərasim keçirəcəyik".

Bəli, dünya siyasətçiləri bu fikirdədirlər ki, "nəyi, nə zaman, necə etməyi hamıdan yaxşı bilən" Azərbaycan Prezidenti verdiyi vədlərin hamısını yüksək səviyyədə reallaşdırır. Bu faktı Ermənistanda daha yaxşı bilirlər. Ona görə də Azərbaycanla münasibətlərin normallaşdırılması İrəvana daha çox lazımdır.

Elə bizim Qərbi Azərbaycana qayıdışımız da Ermənistanın inkişafına, erməni xalqının rifahının yaxşılaşdırılmasına zəmin yaradacaq. Çünki rəsmi İrəvan erməni ideoloqlarının son iki əsrdəki yanlış siyasətinin fəsadları, "dağıntıları" altından təkbaşına çıxa bilməyəcək. Onlara səmimi şəkildə sülh təklifi edən, əməkdaşlıq əli uzadan Azərbaycanla münasibətləri münasib məcraya yönəldə bilsələr, biz ata-baba yurdlarımıza qayıdandan sonra onlar da normal insan həyatı yaşaya biləcəklər.

***İttifaq MİRZƏBƏYLİ***

# Paşinyan "üsyankar deputatı" susdura bilmir

**Ermənistanda növbəti parlament seçkilərinin keçirilməsinə, təxminən, il yarım vaxt qalır. Buna baxmayaraq, indidən siyasi qüvvələr daxilində çaxnaşmalar başlayıb. Əsas narahatlıq meyilləri hakimiyyət düşərgəsi daxilində yaşanır. Müstəqil təşkilatların keçirdikləri rəy sorğularında baş nazir Nikol Paşinyanın reytinqinin aşağı düşməsi iqtidarı hərəkətə gətirməyə sövq edib. Hiss olunur ki, Paşinyan yaxınlaşan seçkilər ərəfəsində hakim komanda daxilində monolitliyi təmin etməyə çalışır. Nikolun son vaxtlar hökumətdə təmsil olunan bəzi şəxslərlə yollarını ayırması, eləcə də hakim "Mülki müqavilə" partiyasının iki deputatına – Narek Zeynalyan və Ovik Aqazaryana fraksiyanı tərk etməklə bağlı ictimai müraciət etməsi bunun göstəricisi hesab oluna bilər.**



Mandatdan imtina məsələsinin kökü isə Aqazaryanın oktyabrın 15-də istintaq komitəsinin rəhbəri Argişti Karamyanla parlamentdə kəskin mübahisə etməsinə gedib çıxır. Bu insident əlbəyaxa dava səviyyəsinə gəlib çıxmışdı. Müstəqil ekspertlərin fikrincə, eyni siyasi düşərgəyə məxsus iki şəxsin parlamentdəki davası da hakimiyyətin ölkə üzrə reytinqinin aşağı düşməsində az rol oynamadı. Nəticədə Paşinyan hər iki şəxslə vidalaşmaq qərarına gəldi. İstintaq komitəsinin sədri bir sıra digər yüksək vəzifəli məmurlar kimi ötən həftə işdən çıxarıldı.

Münaqişəyə qarışmış deputat Zeynalyan da göstərişi dərhal can-başla icra etdi. Onunla bağlı məsələ tezliklə qapandı. Ancaq Aqazaryanla bağlı məsələ dekabrın 4-dək açıq qalırdı. Yəni Aqazaryan son günlərədək bundan imtina edirdi. Hazırda Ermənistan mediasında daxili siyasi gündəmin əsas mövzularından biri məhz bu məsələ ilə bağlıdır. Demək olar ki, Aqazaryan hər gün bununla bağlı mediaya açıqlamalar verir. Aydındır ki, onun açıqlamaları hakimiyyətin əleyhinə işləyir.

Nəhayət, dekabrın 4-də ipə-sapa yatmayan deputat hakim partiya sıralarından xaric edildi, həmçinin parlament fraksiyasından çıxarıldı. Lakin o, hazırda müstəqil deputat kimi mandatını qoruyub saxlayır. Aqazaryanın "Mülki müqavilə" partiyasından çıxarılması ilə bağlı rəsmi qərar "deputatın qeyri-etik davranışı və qanunsuz bizneslə məşğul olması" ilə əsaslandırılıb.

"Mülki müqavilə"nin parlament fraksiyasının rəhbəri Ayk Koncoryan bildirib ki, Aqazaryan fraksiya iclasları və digər müzakirələr, o cümlədən dövlət təhlükəsizliyi ilə bağlı dərc olunması məqbul sayılmayan məlumatları mətbuata ötürüb. Koncoryan hansı məlumatlardan danışdığını açıqlamayıb. Daha sonra parlamentin spikeri Alen Simonyan jurnalistlərə deyib ki, Aqazaryan mətbuata baş nazir Nikol Paşinyanla Azərbaycan Prezidenti İlham Əliyev arasında aparılan danışıqların təfərrüatlarının müzakirə olunduğu "Mülki müqavilə" fraksiyasının qapalı iclasının məlumatlarını sızdırıb. Simonyanın sözlərinə görə, vacib məlumatları mətbuata sızdırdığı üçün o, həmkarını öz əli ilə boğmaq istəyib: "Düzünü desəm, mən son vaxtlara qədər cənab Aqazaryanı qorumaq üçün hər cür cəhd göstərmişəm. Amma "Mülki müqavilə" partiyasının idarə heyətinin dünənki (dekabrın 4-dəki iclas nəzərdə tutulur–S.H.) toplantısından sonra şəxsən mən onu boğmaq istədim. Cənab Aqazaryan əməlindən peşman deyildi, üstəlik, aqressiv əhval-ruhiyyədə idi. Hətta, o qədər aqressiv idi ki, onun adekvatlığına dair şübhələr yaranmağa başladı".

O.Aqazaryan özü isə jurnalistlərlə söhbətində məxfi məlumatları sızdırması faktını təkzib edib. Deputat xatırladıb ki, fraksiya iclaslarında ondan başqa 60-70 nəfər iştirak edir, onlardan hər hansı biri ona aid edilən əmələ yol verə bilərdi.

Bununla belə, Aqazaryan etiraf edib ki, o, bəzən jurnalistlərə ictimaiyyətə açıqlanmayan məlumatları çatdırıb: "Lakin, bu, heç də o demək deyil ki, mən məqsədyönlü və müntəzəm olaraq məxfi məlumatları sızdırmışam. Şəxsən mən hökumət başçısı ilə görüşdə dedim: Cənab baş nazir, xahiş edirəm, ictimai müraciətinizi geri götürün, çünki bu, ədalətsizlikdir. O, bacarmadığını dedi, cavab verdim ki, mən də bacarmıram".

N.Paşinyanın istintaq orqanlarından onun haqqında məlumat alması və sonra onu hakim partiya sıralarından xaric etmək üçün bəhanə kimi istifadə etməsini necə qiymətləndirdiyini soruşduqda, Aqazaryan belə cavab verib: "Bilmirəm, bu qanunidir, ya yox? Vəkilim bunun qanunsuz olduğunu deyir və sənədləri hazırlayır. Baş nazirin addımını qiymətləndirməyə icazə verəcək siyasi və insani statusum var. Mən baş naziri tamam başqa cür başa düşürəm, həyatdan bilirəm ki, istənilən hökumətin deqradasiyaya meyli var. Biz də istisna deyilik, o cümlədən mən. Ona görə də baş nazirin deqradasiya prosesinin qarşısını almaq və cilovlamaq imkanları azdır. Bu mənada mən onu tam başa düşürəm".

Siyasətçi və ictimai xadim Edqar Qazaryan bildirib ki, O.Aqazaryanın dövlət və partiya əhəmiyyətli məxfi məlumatları sızdırdığına, habelə etik standartları kobud şəkildə pozduğuna görə hakim partiyadan xaric edilməsi "Mülki müqavilə" adı daşıyan dəstə daxilində mövcud olan biabırçı cəhaləti göstərən nüansdır: "Konfidensial informasiya" sözü "məxfi məlumat" deməkdir. Ovik Aqazaryan dövlət sirrinin sahibi deyil və əgər o, dövlət sirrinə sahib olubsa və onu açıqlayıbsa, bu, onun işində nəinki sübuta yetirilməyib, hətta ona heç rəsmi ittiham da irəli sürülməyib. Məsələn, "dövlət sirri", "kommersiya sirri", "bank sirri", "şəxsi sirr" anlayışlarından fərqli olaraq "partiya sirri" anlayışı mövcud deyil. "Etik normaların kobud şəkildə pozulmasına" gəlincə, parlamentin deputatı məsələsində, bu, müvafiq etika komissiyasının yaradılmasını və onun rəyini nəzərdə tutur ki, o da həyata keçirilməyib. Ovik Aqazaryanın yeganə "cinayəti" onun işində şəxsi maraqlarına baxmayaraq, sadəcə olaraq, konstitusiya quruluşunu qoruyub saxlayan baş nazirin tələbi ilə parlament deputatının səlahiyyətlərindən imtina etmək tələbini yerinə yetirməkdən imtina etməsidir".

E.Qazaryan qeyd edib ki, N.Paşinyan bununla cinayətkar komandasını gücləndirməyə çalışsa da, ictimaiyyətin dəstəyini çoxdan itirdiyini anlayır: "Onun dəstəsi maksimum 200 nəfər, ictimaiyyət isə 2 milyon nəfərdən çoxdur. 2 milyon nəfərə qarşı çıxan bu 200-ə yaxın sirr həvəskarları qrupunu nələrin gözlədiyini təsəvvür etmək asandır. Bu məsələdə komanda daxilində ən yaxşı məsləhətçi yalnız Ararat Mirzoyan ola bilər".

**"World Panorama" strateji araşdırmalar və inkişaf mərkəzinin rəhbəri, politoloq Ramiyə Məmmədova** XQ-yə



açıqlamasında bildirdi ki, Ermənistan hakimiyyətinin xarici siyasəti kimi daxili siyasəti də ziddiyyətlərlə doludur. Elə bir vəziyyət yaranıb ki, probemlər bitmək bilmir: "Paşinyan 2018-ci ildə iqtidara gəlməsindən sonra hayların, demək olar ki, hamısının gözündə vətənpərvər idi. Ancaq qəribədir ki, Nikol bundan iki il sonra başlayan İkinci Qarabağ müharibəsində Azərbaycanın qalib gəlməsi nəticəsində yarıdüşmən, yarıxəyanətkara çevrildi. Qarabağ klanını təmsil edən keçmiş hakimiyyət Paşinyana qarşı "Hayastan" blokunda birləşib. Hakim partiyanın parlament fraksiyası daxilində də fikir ayrılıqları var. Nazirlər arasında bir-birini qəbul etməmək halları mövcuddur. Nikol da bu səbəbdən son vaxtlar daxili siyasətdə müxtəlif gedişlər edir. Yaxınlaşan seçkilər ərəfəsində vəziyyəti öz xeyrinə dəyişdirməyə çalışır. Eyni vaxtda bir deyil, bir neçə stulda əyləşməyə çalışır".

Ermənistan baş nazirinin xüsusilə Azərbaycan və Türkiyə ilə münasibətlərin nizamlanmasına dair yürütdüyü siyasətin daxildə birmənalı qarşılanmadığını qeyd edən R.Məmmədova ona qarşı açılan cinahda öz hakimyyətində təmsil olunan bəzi şəxslərin də yer aldığını vurğuladı. Onun sözlərinə görə, hayların daşlaşmış, qəlibləşmiş baxışlarını dəyişdirmək istəyi müqavimətə rast gəlir: "Paşinyanı dövlətə xəyanətdə ittiham etmək Ermənistanda adi hala çevrilib. Doğrudur, bu ittihamı irəli sürənlər ortaya fakt qoya bilmirlər. Ancaq ittihamlardan da əl çəkmirlər. Qazax rayonunun 4 kəndinin qaytarılması ona qarşı ittihamların belə deyək, yeni səhifəsinin açılmasına səbəb oldu. Paşinyan bütün bunları görür və aydın dərk edir. Eyni zamanda, başa düşür ki, Azərbaycanla Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında ikitərəfli saziş layihəsini imzalaya bilməsi üçün ən azı öz partiyasında mövqeləri möhkəm olmalıdır. Yəni, partiyadaşları onun sözünü deməli, mətbuata çıxıb onun açıqlamalarını əsaslandıran müsahibələr, açıqlamalar verməlidirlər".

Politoloq qeyd etdi ki, N.Paşinyanın son vaxtlar bir sıra nazirləri işdən çıxarması, yeni təyinatlar həyata keçirməsi də bundan xəbər verir. Nikol başa düşür ki, hakim komanda daxilində onun liderliyini birmənalı şəkildə qəbul etmirlər. Hətta, öz fraksiyasında da bəzi şəxslər, guya, Azərbaycana loyal olduğu üçün Paşinyana qarşı çıxırlar: "Əlbəttə, Paşinyanı tam olaraq konstruktiv adlandırmaq düzgün olmazdı. Rəsmi İrəvan sülh sazişinin imzalanmasına əsas maneə olan konstitusiyaya dəyişiklik etməkdən çəkinir. Bu təbəddülat özünü xarici siyasətdə də göstərir. Paşinyan Rusiyadan uzaqlaşmaq istəyir, Qərbə yaxınlaşır. Amma Qərbə yaxınlaşmaqla Rusiyanı da əldən buraxmır. Bütün bu təbəddülatlar, ziddiyyətlər hakim partiya daxilində də fikir ayrılıqlarına gətirib çıxarır. Paşinyan Aqazaryan kimi ona qarşı çıxan deputatları zərərsizləşdirməklə yaranmış problemlərdən birini aradan qaldırmağa çalışır".

Müsahibimiz onu da da bildirdi ki, Paşinyanın sülh sazişinə əngəl olan məsələləri aradan qaldırması onun özünün mövqeyini gücləndirən amilə çevrilə bilərdi. Bununla da Ermənistan dövlətinin siyasi və iqtisadi problemlərini həll edərdi. Paşinyan parlament seçkiləri ərəfəsində komandasını gücləndirməlidir. Amma sülh müqaviləsi imzalanmadan onun mövqeləri zəif olaraq qalacaq. Əks-təqdirdə mövqeyi indiki kimi qalacaq və hətta, bəzən öz partiyadaşları da ona qarşı çıxacaqlar. Ovik Aqazaryanın timsalında olduğu kimi...

***Səxavət HƏMİD***
***XQ***

# İqtisadi artım bahalaşmanın qarşısını alır

(əvvəli 1-ci səhifədə)




Oktyabrda əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə istehlak qiymətləri indeksi sentyabr ayına nisbətən 100,1 faiz təşkil edib. Əhaliyə göstərilmiş ödənişli xidmətlərdən artım mənzillərin kirayə haqlarının, hava nəqliyyatı ilə MDB ölkələrinə sərnişindaşıma xidmətlərinin, azalma isə hava nəqliyyatı ilə MDB ölkələri istisna olmaqla digər ölkələrə sərnişindaşıma xidmətlərinin qiymətlərində müşahidə olunub. Digər ödənişli xidmətlərin qiymətlərində isə ciddi dəyişikliklər baş verməyib.

Yeri gəlmişkən, ölkəmizdə inflyasiyanın azalması bu ilin əvvəlindən davamlı prosesə çevrilib. Belə ki, 2023-cü və ondan əvvəlki illərin yanvar aylarında inflyasiya səviyyəsi müvafiq olaraq 12,5 faiz və 13,6 faiz təşkil etdiyi halda, cari ilin ilk ayında bu rəqəm 1,7 faiz olub. İqtisadiyyat Nazirliyinin illik inflyasiyanın kəskin enmə səbəbi ilə bağlı məlumatında bildirilirdi: “2023-cü il ərzində ölkəmizdə inflyasiya səviyyəsində əvvəlki illə müqayisədə azalma davam edib.

Ötən ilin dekabr ayında cəmi məhsul və xidmətlər üzrə illik inflyasiya əvvəlki ilin müvafiq göstəricisinə nəzərən 12,3 faiz bəndi azalaraq 2,1 faiz təşkil edib. 2023-cü ilin dekabr ayında ərzaq məhsulları üzrə illik inflyasiya 0,8 faiz, qeyri-ərzaq məhsulları üzrə 2,7 faiz, ödənişli xidmətlər üzrə isə 3,7 faiz olub. İnflyasiyada səngimə 2024-cü ildə də davam edib və cari ilin yanvar ayında bu göstərici 1,7 faizə enib”.

Qeyd edək ki, ticarət tərəfdaşları üzrə inflyasiyanın nisbətən azalması, dünya əmtəə bazarlarında qiymətlərin enməsi, profisitli tədiyə balansı şəraitində valyuta bazarında tarazlığın qorunması, manatın nominal effektiv məzənnəsinin möhkəmlənməsi, hökumət tərəfindən həyata keçirilən antiinflyasiya tədbirləri inflyasiyaya azaldıcı təsir göstərib.

Maliyyə Nazirliyinin həmin vaxt yaydığı məlumatda isə qeyd olunurdu ki, qlobal əmtəə, enerji və ərzaq qiymətlərində azalmanın davam etməsi ölkəyə inflyasiya idxalını məhdudlaşdırmaqla inflyasiyaya azaldıcı təsir göstərir. Qiymətlərin zəruri gündəlik tələbat məhsulları üzrə daxili istehsalın təşviqi, eyni zamanda, ölkədə qiymətlərin bazar prinsipləri əsasında formalaşmasını qorumaqla işgüzar fəallığa və əhalinin sosial rifahına inflyasiyanın təsirlərini minimallaşdırmaq məqsədilə Nazirlər Kabinetinin “Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında”, eləcə də “İnflyasiya və qiymətlər üzrə monitorinqin gücləndirilməsi istiqamətində əlavə tədbirlər barədə” sərəncamlarında nəzərdə tutulan kompleks tədbirlərin icrası da inflyasiyanın azalmasını şərtləndirir.

Yeri gəlmişkən, Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) Azərbaycanda orta illik inflyasiyanın bu il 2023-cü ildəki 8,8 faizdən 3,5 faizə qədər azalacağını proqnozlaşdırır. Bu barədə məlumat bankın hesabatında yer alıb. AYİB-in proqnozlarına görə, Azərbaycanın tədiyyə balansının cari hesabının profisitinin ÜDM-yə nisbəti ötən ildəki 9,9 faizə qarşı 2024-cü ilin yekunlarına əsasən 8,5 faiz təşkil edəcək. Ölkəmizdəki cari makroiqtisadi mühitə toxunan bank qeyd edir ki, 2024-cü ildə ÜDM-in artım tempi sürətlənib, inflyasiya isə azalıb. Neft-qaz sektoru “mavi yanacağ”a olan güclü tələbat sayəsində artım trayektoriyasına qayıdıb.

İnflyasiyanın Mərkəzi Bankın hədəf diapazonu həddində (4+/-2) qaldığını vurğulayan hesabat müəllifləri qeyd ediblər ki, enerji daşıyıcılarının ixracı və dövlət investisiyaları növbəti illərdə ölkənin ÜDM artımını stimullaşdırmağa davam edəcək. “Bizim qiymətləndirmələrimizə görə, Azərbaycanda real ÜDM artımı 2024-cü ildə 3,8 faiz, 2025-ci ildə isə 2,7 faiz təşkil edəcək. Proqnoz neft və qaz qiymətlərinin dəyişməsinə, həmçinin regionda geosiyasi qeyri-sabitliyə qarşı çox həssasdır”, – deyə hesabatda vurğulanıb.

Xatırladaq ki, Azərbaycan iqtisadiyyatı 2023-cü ildə 1,1 faiz artıb, orta illik inflyasiya isə 8,8 faiz səviyyəsində olub. Ölkə iqtisadiyyatında artım meyilləri bu ilin ötən dövründə də davam edib. Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar-oktyabr aylarında Azərbaycanda ÜDM istehsalı 2023-cü ilin eyni dövrü ilə müqayisədə 4,9 faiz artıb. Bütövlükdə isə, Azərbaycan hökumətinin proqnozlarına görə, 2024-cü ildə ÜDM-in artımı 4,2 faiz, 2025-ci ildə 3,5 faiz, 2026-cı ildə 2,8 faiz, 2027-ci ildə 3,8 faiz, 2028-ci ildə isə 3,3 faiz səviyyəsində gözlənilir.

Bugünlərdə isə Niderlandın “ING Group” şirkəti 2024-cü il üçün Azərbaycanda iqtisadi artım üzrə proqnozunu 4,2 faiz, 2025-ci ildə 2,6 faiz, 2026-cı ildə isə 2,8 faiz səviyyəsində müəyyən edib. Şirkətin ölkəmizlə bağlı bundan öncəki proqnoza nisbətən 2024-cü il üçün gözləntilər 0,7 faiz bəndi artıb, 2025-ci il və 2026-cı il üçün isə dəyişməyib. Niderland şirkətinin hesabatına əsasən, 2024-cü ilin dördüncü rübündə ÜDM artımı üçüncü rübdəki 5,4 faizə qarşı 3 faiz səviyyəsində proqnozlaşdırılır. Bununla yanaşı, 2025-ci ilin birinci rübündə iqtisadi artım proqnozu 2 faiz, ikinci rübdə 2,5 faiz, üçüncü və dördüncü rüblərdə 3 faiz səviyyəsində nəzərdə tutulub. 2026-cı ilin son rübündə isə ölkəmizdə iqtisadi artımın 2 faiz təşkil edəcəyi proqnozlaşdırılır.

Bununla yanaşı, Birləşmiş Millətlər Təşkilatı, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, eləcə də “S&P Global Ratings”, “Moody’s” və “Fitch Ratings” beynəlxalq reytinq agentliklərinin də ölkəmizin iqtisadi inkişafı ilə bağlı nikbin prooqnozları da nikbinliyə əsas verir. İqtisadi artımın davam etməsi isə ölkədə inflyasiya səviyyəsinin arzuolunan həddə olacağından xəbər verir.

# Fermerlərə dövlət himayəsi artır

## *Giləmeyvə yetişdirənlər də aqrar subsidiyadan bəhrələnəcəklər*

**Ölkəmizdə aqrar sektora göstərilən dövlət dəstəyini meyvə və giləmeyvə yetişdirilməsi sahəsində fəaliyyət göstərən fermerlər də getdikcə daha çox hiss edirlər. Artıq giləmeyvə istehsalının da subsidiyalaşdırılmasına başlanması bunu təsdiq edir. İndən belə moruq bağları salan fermerlərə də birdəfəlik əkin subsidiyası veriləcək.**



Aqrar Subsidiya Şurasının qərarına əsasən, yeni təsərrüfat ilində ölkəmizdə giləmeyvə yetişdirilməsinə dəstək məqsədilə subsidiyalar veriləcək. Belə ki, 2024-cü il sentyabrın 1-dən 2025-ci il mayın 31-dək ölkənin istənilən bölgəsində salınmış intensiv moruq bağları üzrə hər hektara görə fermerlərə 3200 manat birdəfəlik əkin subsidiyası veriləcək. Subsidiya hər hektarda ən azı 4700 tingin əkildiyi, damcı sulama sistemi ilə təchiz olunmuş intensiv moruq bağlarına şamil ediləcək.

Qeyd olunan şərtlərə uyğun gəlməyən intensiv moruq bağlarınaa görə isə suvarma sistemindən asılı olaraq iki fərqli subsidiyanın verilməsi nəzərdə tutulub. Aqrar Subsidiya Şurasının qərarına əsasən, birdəfəlik əkin subsidiyası üçün müəyyən olunmuş şərtlərə uyğun gəlməyən, lakin müasir suvarma sistemi ilə təchiz olunmuş intensiv moruq bağları üzrə hər hektara görə 310 manat, müasir suvarma sistemi ilə təchiz olunmamış intensiv moruq bağları üzrə isə 250 manat subsidiya veriləcək.

Dövlətin subsidiya mexanizmindən kivi yetişdirən fermerlər də faydalana biləcəklər. Xatırladaq ki, hazırda ölkəmizdə kivi, əsasən, Lənkəran-Astara iqtisadi rayonunda yetişdirilir. Aqrar Subsidiya Şurasının qərarı ilə 2024-cü il sentyabrın 1-dən 2025-ci il mayın 31-dək Lənkəran, Astara, Masallı rayonlarında, eyni zamanda Lerik rayonunun dəniz səviyyəsindən 300 metr yüksəklikdən aşağıda yerləşən ərazilərdə intensiv kivi bağları salan fermerlərə hər hektara görə 9 min 600 manat əkin subsidiyası veriləcək.

Bu subsidiya damcı suvarma sistemi ilə təchiz olunmuş, hər hektarda ən azı 650 tingin əkildiyi kivi bağlarına şamil olunacaq. Qeyd olunan subsidiyalaşma mexanizmi fermerin intensiv kivi bağları salmaq üçün çəkdiyi xərclərin bir hissəsini qarşılamağa imkan verir. Daxili bazarda tələbat, xarici bazarlara ixrac imkanları, dövlət dəstəyi mexanizmlərinin mövcudluğu intensiv üsulla kivi bağları salınmasını stimullaşdırır.

Bununla yanaşı, 2025-ci ildən başlayaraq, Azərbaycanda ilk dəfə olaraq intensiv qaragilə (mavigilə) bağlarının salınmasına görə də dövlət tərəfindən subsidiyalar ayrılacaq. Belə ki, Aqrar Subsidiya Şurasının qərarına əsasən, 2024-cü il sentyabrın 1-dən 2025-ci il mayın 31-dək Şirvan-Salyan, Dağlıq Şirvan, Abşeron-Xızı və Lənkəran–Astara iqtisadi rayonlarında salınmış intensiv qaragilə (mavigilə) bağının hər hektarına görə fermerlərə 15 min manat birdəfəlik əkin subsidiyası veriləcək. Bu subsidiya mexanizmi isə hər hektarda ən azı 3400 tingin əkildiyi, damcı suvarma sistemi ilə təmin olunmuş qaragilə (mavigilə) bağlarına şamil olunur.

Xatırladaq ki, intensiv giləmeyvə bağlarının salınmasının dəstəkləməkdə məqsəd ixrac potensialı yüksək məhsul istehsalına nail olmaq, fermerlərin gəlirlərini artırmaq, su və torpaq resurslarından daha səmərəli istifadəyə nail olmaqdır.



# Belarus yükləri Azərbaycan dəmir yolu ilə daşınacaq

**Belarus tərəfi Azərbaycan ərazisindən keçməklə Bakı–Tbilisi–Qars dəmir yolu vasitəsilə Türkiyəyə, eləcə də Şimal–Cənub marşrutu ilə İrana yüklərin göndərilməsində maraqlıdır. Bu fikir Bakıda “Azərbaycan Dəmir Yolları” QSC sədrinin müavini Arif Ağayev və Belarus Dəmir Yollarının sədr müavini Andrey Yakobsonun rəhbərlik etdiyi nümayəndə heyəti arasında keçirilən görüşdə səsləndirilib.**

Görüş zamanı Şimal – Cənub dəhlizi üzrə əməkdaşlığın gücləndirilməsi üçün bu ilin oktyabrında Rusiya Dəmir Yollarının da iştirakı ilə keçirilmiş üçtərəfli görüşdə müzakirə edilmiş tarif siyasəti, daşıma texnologiyaları və rəqəmsallaşma barədə danışıqların davam etdirilməsi ilə bağlı əldə olunmuş razılaşdırmadan söhbət açılıb. Bununla yanaşı, Azərbaycan Dəmir Yollarının vaqon parkının Belarus istehsalı olan hərəkət tərkibləri ilə genişləndirilməsi barədə danışıqlar aparılıb. Hər iki tərəf universal, qapalı və sistern tipli vaqonların Azərbaycana tədarükü imkanlarını müzakirə etməyə hazır olduğunu bildirib.

Görüşdə ikitərəfli və beynəlxalq təşkilatlar daxilində çoxtərəfli əməkdaşlığın inkişaf etdirilməsi, ortaq maraq doğuran layihələrin həyata keçirilməsi, iki ölkə arasında müntəzəm yükdaşımaların təşkili, o cümlədən konteyner qatarlarla yüklərin göndərilməsi barədə fikir mübadiləsi aparılıb.

# 11 ayda 17 min lisenziya verilib

**İqtisadiyyat Nazirliyinin məlumatına görə, 2024-cü ilin yanvar–noyabr aylarında İqtisadiyyat Nazirliyi “ASAN xidmət” mərkəzləri, KOB evləri və “Lisenziyalar və icazələr” portalı vasitəsilə sahibkarlara 1848, indiyə qədər isə 16936 lisenziya verib.**



Bildirilir ki, cari il ərzində “Lisenziyalar və icazələr” portalının fəaliyyətinin təkmilləşdirilməsi, informasiya sistemlərinin portala inteqrasiyası istiqamətində işlər davam etdirilib və sahibkarlara portal vasitəsilə 1263 elektron lisenziya təqdim olunub. “Lisenziyalar və icazələr” portalının fəaliyyətə başladığı 2018-ci il martın 1-dən indiyə qədər portal vasitəsilə 5800-ə yaxın elektron lisenziya verilib.

Hazırda nazirlik 23 sahibkarlıq fəaliyyəti növü (dövlət təhlükəsizliyindən irəli gələn hallar, habelə maliyyə bazarları sahəsində fəaliyyətlər istisna olmaqla) üzrə lisenziya verir. Lisenziya almaq üçün sahibkar hüquqi şəxs olduqda dövlət reyestrindən çıxarışın surəti, fərdi sahibkar olduqda isə şəxsiyyət vəsiqəsinin, vergi ödəyicisi kimi uçota alınması haqqında şəhadətnamənin, ərizədə qeyd olunan obyektlərin mülkiyyət, istifadə və ya icarə hüququnu təsdiqləyən sənədlərin surətləri, lisenziya şərtlərinin yerinə yetirilməsini təsdiqləyən sənədlər əlavə olunur.

Lisenziya verilərkən sahibkarlıq fəaliyyəti növünün xüsusiyyətlərindən asılı olaraq aidiyyəti dövlət qurumlarından rəy alınır. Lisenziya obyektlə bağlı olduqda isə obyektin uyğunluğu yerində qiymətləndirilir, aidiyyəti dövlət orqanının rəyinə əsasən qərar qəbul edilir.

Təqdim edilən sənədlər qaydasında olduqda lisenziya 10 iş günündən gec olmayaraq təqdim edilir. Lisenziya verilməsinə görə dövlət rüsumu ödənilir. Regionlarda sahibkarlığın təşviqi məqsədilə dövlət rüsumuna 50 faiz güzəşt edilir.

# Dövlət Neft Şirkəti Yaponiya ilə enerji əməkdaşlığı edəcək

## *Bu barədə Anlaşma Memorandumu imzalanıb*

**Azərbaycan Dövlət Neft Şirkəti və Yaponiyanın “Yokogawa Electric” şirkəti arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Bu barədə socar.az saytı açıqlama yayıb.**



Məlumata görə, sənədə şirkətin prezidenti Rövşən Nəcəfin “Yokogawa Europe B.V.”nin prezidenti, eləcə də “Yokogawa Electric Corporation”ın vitse-prezidenti Seita Hagihara ilə keçirdiyi görüşdə imza atılıb.

Qeyd dək ki, memorandum şirkətlərarası əməkdaşlığın genişləndirilməsini nəzərdə tutur. Belə ki, sənədə əsasən, tərəflər istehsalın optimallaşdırılması, enerji səmərəliliyinin artırılması, dekarbonizasiya fəaliyyəti, emissiyaların azaldılması, habelə rəqəmsallaşdırma və digər istiqamətlərdə əməkdaşlıq edəcək, birgə layihələrin icrası imkanlarını araşdıracaqlar.

**Səhifəni hazırladılar:**
**Vaqif BAYRAMOV,**
**Mirbağır YAQUBZADƏ**
**XQ**

# Qarabağ və Şərqi Zəngəzurda "günəşli" həyat



(əvvəli 1-ci səhifədə)

Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin şöbə müdiri Cəbrayıl Əliyev Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında tətbiq olunan "yaşıl" texnologiyaların üstünlükləri və bu sahədə əldə olunan nailiyyətlər barədə mediaya məlumatında bildirib ki, hazırda bərpa olunan enerji mənbələrindən elektrik enerjisi istehsalı, enerji səmərəliliyi tədbirləri və digər istiqamətlərdə işlər davam etdirilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzuru "yaşıl" enerji zonası elan etdiyini vurğulayan C.Əliyev qeyd edib ki, dövlətimizin başçısının 2021-ci ildə imzaladığı müvafiq sərəncamla işğalçıdan azad olunan ərazilərin bərpası üzrə Konsepsiya hazırlanıb. Eyni zamanda, Nazirlər Kabinetinin 2022-ci il 21 iyun tarixli sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022-2026-cı illərdə "yaşıl" enerji zonasının yaradılması üzrə Tədbirlər Planı" təsdiqlənib. Ötən müddətdə bərpa olunan enerji mənbələrindən elektrik enerjisi istehsalının gerçəkləşdirilməsi, enerji səmərəliliyi tədbirlərinin həyata keçirilməsi, elektrik nəqliyyat vasitələrindən istifadə üçün infrastrukturun qurulması, tikililərin damlarında bərpa olunan enerji qurğularının yerləşdirilməsi, xüsusən günəş panellərinin quraşdırılması, həmçinin küçələrin və yolların LED lampaları ilə işıqlandırılması kimi "yaşıl" həllərin tətbiqi istiqamətində genişmiqyaslı işlər görülüb.

C.Əliyev vurğulayıb ki, işğaldan azad edilmiş ərazilərdə ümumi qoyuluş gücü 270 MVt olan 32 ədəd su elektrik stansiyası ilə yanaşı, 550-dən çox fərdi yaşayış evində və ictimai binalarda, ümumilikdə, 3 min kVt-dan çox gücə malik günəş panelləri quraşdırılıb. Laçın rayonunun Zabux və Sus kəndlərində hər bir fərdi yaşayış evində, inzibati binada, məktəb və uşaq bağçasında damüstü günəş panelləri quraşdırılaraq vətəndaşların istifadəsinə verilib. Laçın şəhərində isə 24 fərdi yaşayış evinin hər birinin üzərində 3-5 kVt gücündə günəş panelləri sistemi həm şəbəkəyə qoşulmaqla, həm də avtonom olaraq quraşdırılıb.

Bu texnologiyaların tətbiqi enerji təminatını ekoloji cəhətdən təmiz etməklə bərabər əhali üçün elektrik enerjisinə olan xərcləri əhəmiyyətli dərəcədə azaldır. Gələcəkdə yeni tikiləcək fərdi yaşayış evlərində və ictimai binalarda da damüstü günəş panellərinin quraşdırılmasının davam etdiriləcəyi nəzərdə tutulur.

Bundan əlavə, işğaldan azad edilmiş ərazilərdə küçə və yolların işıqlandırılmasında istifadə edilən LED işıqlandırma sistemi enerjiyə qənaət etməklə yanaşı, şəhərlərin estetik görünüşünü də yaxşılaşdırır.

Elektrikli nəqliyyat vasitələrindən istifadənin təşviqi ilə ətraf mühitin qorunmasına töhfə vermək məqsədilə bu ərazilərdə elektrik doldurma məntəqələrinin sayı da artırılır.

# Azərbaycan "Rio-Trio" təşəbbüsünü fəal dəstəkləyir

**Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev BMT-nin səhralaşmaya qarşı mübarizə Konvensiyasının 16-cı Tərəflər Konfransı çərçivəsində Ər-Riyadda keçirilən "Dövlət-özəl sektor əməkdaşlığı üçün "Rio-Trio" təşəbbüsü" mövzusunda sessiyanın açılışında ölkəmizin "Rio-Trio" təşəbbüsünün məqsədlərini konkret nəticələrə çevirməyə sadiq olduğunu bildirib.**



Muxtar Babayev bildirib ki, Rio konvensiyaları çərçivəsindəki bütün səylər bu gün zamanın çağırışları ilə səsləşir. İqlim dəyişikliyi, biomüxtəlifliyin itirilməsi, torpaqların deqradasiyası və səhralaşma kimi problemlər bir-biri ilə dərindən əlaqəlidir və koordinasiya olunan həll yolları tələb edir. Bütün bunların gerçəkləşdirilməsinə strategiyaların əlaqələndirilməsi və sinerji yaratmaq məsuliyyəti də mühüm təsir göstərir.

Nazirin sözlərinə görə, inteqrasiya olunmuş platformalar, məsələn, "Rio-Trio" təşəbbüsü fərdi səylərin təsirini gücləndirəcək həll yollarını tapmağa olan sadiqlik nümayiş etdirir. Azərbaycan iqlim dəyişikliyi, su çatışmazlığı və biomüxtəlifliyin itirilməsi kimi qarşılıqlı çağırışlarla mübarizədə təbiət əsaslı həll yollarının gücünü qəbul edir. Azərbaycanın Xəzər dənizində böyük əhəmiyyətə malik ekosistemləri qorumaq üçün ilk dəniz mühafizə olunan ərazini yaratması da qeyd edilən fikrin bariz ifadəsidir.

M.Babayev qeyd edib ki, Azərbaycanın COP29-a sədrliyi inteqrasiyanın fəaliyyət gündəminin əsas elementi olmasını hədəfləyir: "Biz müxtəlif forumlar və sektorlara əlaqələr qurmaq üzərində çalışırıq, çünki iqlim fəaliyyətləri çoxsektorlu bir vəzifədir. Bizim yanaşmamızın əsas nümunəsi COP29-un su məsələlərinə dair təşəbbüsü ilə bağlıdır. Su torpaq deqradasiyası və səhralaşma problemlərinin həllində əsas elementdir. İqlim dəyişikliyinin təsirləri artdıqca su çatışmazlığı ilə mübarizə zərurətə çevrilir".

Azərbaycanın Ekologiya və təbii sərvətlər naziri bildirib ki, Xəzər dənizinin səviyyəsinin azalması su resurslarının davamlı idarə olunmasının zəruriliyini bir daha göstərir. COP29 çərçivəsində əsas nailiyyətlərdən biri, təxminən, 50 ölkə və qeyri-dövlət aktorları tərəfindən dəstəklənən Bakı Su Resursları üzrə İqlim Fəaliyyətləri Bəyannaməsinin qəbul olunmasıdır. Bu Bəyannamə su hövzələrində iqlim dəyişikliyinin təsirlərinə qarşı mübarizədə inteqrasiya olunmuş yanaşmaların tətbiqini və su ilə bağlı tədbirləri milli iqlim strategiyalarına daxil etməyi qarşıya önəmli vəzifə kimi qoyur.

M.Babayev çıxışının sonunda deyib: – Su iqlim, biomüxtəliflik və səhralaşma problemləri arasında əlaqələndirici halqadır. Bu, Səhralaşmaya Qarşı Mübarizə Konvensiyasının məqsədləri ilə sıx uyğunluq təşkil edir. "Rio-Trio" təşəbbüsü də bu prinsipi dəstəkləyir və bilik mübadiləsi üçün harmonik platformaların yaradılması zəruriliyini diqqətə çatdırır.

Biomüxtəliflik üzrə milli strategiyaların indeksləri və xəritələri kimi göstəriciləri birləşdirməklə, səyləri sadələşdirməklə, hesabatlılığı artırmaqla iqlim siyasətində müsbət nəticələr əldə etmək olar. Cəmiyyət bu məqsədin gerçəkləşdirilməsində fəal rol oynamalıdır.

Konvensiyalar arasında sinerjini gücləndirərək, davamlı torpaq istifadəsi təcrübələri təşviq edilməli, təbiət əsaslı həllər vasitəsilə suyun istifadəsinin səmərəliliyi artırılmalı, torpaqların bərpası səyləri genişləndirilməli və davamlı ekosistemlər üçün regional və beynəlxalq əməkdaşlığa töhfə verilməlidir. Bu kontekstdə Azərbaycan "Rio-Trio" təşəbbüsünü planet naminə gerçəkləşdirmək yolunda qətiyyətli addımlar atır.

Qeyd edək ki, "Rio-Trio" təşəbbüsü Azərbaycan, Kolumbiya və Səudiyyə Ərəbistanı hökumətləri arasında novator əməkdaşlıqdır. Bu əməkdaşlıq Azərbaycan Respublikasının BMT-nin İqlim Dəyişikliyi Konvensiyası, Kolumbiyanın Bioloji Müxtəliflik Konvensiyası və Səudiyyə Ərəbistanının Səhralaşmaya Qarşı Mübarizə Konvensiyası çərçivəsindəki sədrliyinin işini əlaqələndirməklə dayanıqlı inkişaf üzrə qlobal səylərin təşviqinə yönəlib.

Üç ölkə sədrliklərinin imkanlarından yararlanaraq təxirəsalınmaz və əlaqələndirilmiş tədbirləri təşviq etmək üçün eyni məqsədin reallaşdırılmasını diqqətdə saxlayır və beynəlxalq ictimaiyyəti bu təşəbbüsə həm gələcək Tərəflər Konfranslarında, həm də onlardan kənarda uzunmüddətli əməkdaşlıq platforması kimi qoşulmağa səsləyir.

# COP29 qlobal ekoloji strategiyanı zənginləşdirdi




**COP29-da təkcə iqlim məsələlərinin həlli deyil, həm də dayanıqlı inkişafın əsas elementi olan enerji keçidi diqqət mərkəzində saxlanılıb. İqlim konfransında bir sıra məsələlərlə yanaşı, karbon emissiyalarının azaldılması və bərpa olunan enerji mənbələrinin tətbiqinin genişləndirilməsi təşəbbüsləri dəstəklənib.**

Özbəkistanın ekologiya, ətraf mühitin mühafizəsi və iqlim dəyişikliyi naziri Əziz Abduhakimov mediaya müsahibəsində COP29-da qəbul edilən qərarların iqlim dəyişikliyi ilə qlobal mübarizədə əhəmiyyətini və Mərkəzi Asiya regionuna təsirini diqqətə çatdırıb. Mərkəzi Asiya regionunun quraqlıq, səhralaşma və su qıtlığı kimi iqlim çağırışları ilə üzləşdiyini bildirən nazir problemin həllində beynəlxalq tərəfdaşlarla əməkdaşlığın zəruriliyini, eləcə də iqlim konfransında qəbul edilən qərarların həyata keçirilməsinin vacibliyini vurğulayıb.

Ə.Abduhakimov deyib: "Bakıda keçirilən COP29 mühüm nəticələrlə yadda qaldı. Əsas nailiyyətlərdən biri inkişaf etməkdə olan ölkələrin iqlim dəyişikliyi ilə mübarizəsinə dəstək üçün 2035-ci ilə qədər illik 300 milyard ABŞ dolları məbləğində vəsaitin ayrılması barədə razılaşma oldu. Bu razılaşma beynəlxalq qlobal iqlim gündəliyində ölkələrin birgə fəaliyyətə hazır olduğunu nümayiş etdirən mühüm addım kimi yüksək dəyərləndirildi".

Nazir COP29-da imzalanan qərarların Özbəkistanın ekoloji siyasətinin inkişafına da mühüm təsir göstərəcəyinə əminliyini ifadə edərək iqlim konfransı çərçivəsində "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalandığını bildirib.

Yeri gəlmişkən, bu münasibətlə noyabrın 13-də prezidentlər İlham Əliyev, Kasım-Jomart Tokayev və Şavkat Mirziyoyev arasında üçtərəfli görüş olub. Dövlətimizin başçısı çıxışında belə bir sazişin imzalanmasının Azərbaycan, Qazaxıstan və Özbəkistan münasibətlərinin tarixində əlamətdar hadisə olduğunu , bununla 3 qardaş ölkənin əməkdaşlığının yeni səviyyəyə qalxdığını vurğulayıb.

Pezident İlham Əliyev daha sonra qeyd edib ki, tarixi hadisə olan "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanması ölkələrimiz arasında qardaşlıq münasibətlərini daha da möhkəmləndirərək "yaşıl" enerjinin inkişafı sahəsində sinxron fəaliyyəti sürətləndirəcək.

# "AzərEnerji" və BP-nin təmiz enerji müzakirələri

**"AzərEnerji" ASC-nin rəhbəri Baba Rzayevlə BP şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə prezidenti Qəri Counzun rəhbərlik etdiyi nümayəndə heyətinin görüşü olub.**

BP şirkəti ilə Azərbaycan enerjisistemi arasındakı əməkdaşlıq münasibətlərinin müzakirə edildiyi görüşdə Səngəçal terminalının elektrik şəbəkəsinə qoşulma layihəsinin mövcud vəziyyətindən bəhs olunub. Söhbət əsnasında Prezident İlham Əliyevin sözügedən layihənin dekarbonizasiya məqsədi baxımından xüsusi önəm daşıması ilə bağlı COP29-un açılış mərasimində dediyi fikirlər xüsusi olaraq vurğulanıb.

Görüşdə BP-nin operatorluğu ilə Cəbrayılda inşa olunan 240 meqavatlıq "Şəfəq" Günəş Elektrik Stansiyasının enerjisistemə inteqrasiyası üçün "AzərEnerji" tərəfindən tikilən 330 kilovoltluq yarımstansiya, eləcə də sözügedən qurğunun "Cəbrayıl" Enerji



Qovşağı ilə əlaqələndirilməsi üçün 330 kilovoltluq ötürmə xətlərinin çəkilməsi və digər mövzular ətrafında geniş fikir mübadiləsi aparılıb.

# COP16-da Xəzər təqdimatı



**Səudiyyə Ərəbistanının Ər-Riyad şəhərində BMT-nin Səhralaşmaya qarşı mübarizə Konvensiyasının 16-cı Tərəflər Konfransı (COP16) çərçivəsində keçirilən sessiya və panel iclaslarında Bakıda uğurla keçirilmiş 29-cu iqlim konfransında əldə edilmiş nəticələr, eləcə də ölkəmizin torpaqların deqradasiyası, səhralaşma, quraqlıq, su qıtlığı kimi problemlərin həlli istiqamətində həyata keçirdiyi təşəbbüslər barədə ətraflı məlumat verilib.**

Bildirilib ki, planetimizin quru ərazisinin, təxminən, üçdəbirində özünü göstərən və milyardlarla insanın həyat şəraitinə mənfi təsir göstərən torpaqların deqradasiyası problemi, eləcə də biomüxtəlifliklə və iqlim dəyişikliyi ilə bağlı məsələlər inteqrasiya olunmuş qlobal həllər tələb edir.

Səhralaşmaya qarşı mübarizə Konvensiyasının 16-cı Tərəflər Konfransında Azərbaycanın 2030-cu ilə qədər 270 min hektar münbitsizləşmiş torpağı bərpa etməyi qarşısına məqsəd qoyaraq Bonn Çağırışına sadiq qalacağı diqqətə çatdırılıb. Bununla bərabər, iqlim dəyişikliyinin regionumuzda qorxulu nümunələrindən olan Xəzər dənizinin su səviyyəsinin azalması probleminə toxunulub və bu kimi problemlərin həlli üçün iqlim maliyyələşməsi üzrə Bakı razılaşmasının əhəmiyyəti yüksək dəyərləndirilib. Eyni zamada, Bakıda "İqlim fəaliyyəti üçün su üzrə COP29 Bəyannaməsi"nin imzalanmasının bu sahədə problemlərin həllinə töhfə verəcəyinə böyük əminlik ifadə edilib.

Konfrans çərçivəsində keçirilən digər panel iclaslarda yuxarıda vurğulananlarla yanaşı, Azərbaycanın COP29 sədrliyinin bərpa olunan enerji sahələrindəki təşəbbüslərindən, ekosistemləri qorumaq üçün Xəzərdə ilk dəniz mühafizəsi sahəsinin yaradılmasından, Bakı Harmoniya İqlim təşəbbüsünün fəaliyyətə başlamasından da danışılıb.

# Azərbaycanda "yaşıl" taksonomiya yaradılıb

*Banklar təmiz iqtisadiyyata keçidi ardıcıl dəstəkləyəcək*

**Azərbaycanda "yaşıl" taksonomiya dayanıqlı inkişaf məqsədlərinə çatmaq üçün güclü baza yaradacaq. Bu fikri Azərbaycan Mərkəzi Bankının baş direktoru Vüsal Xəlilov VIII Beynəlxalq Bankçılıq Forumunda səsləndirib.**



Azərbaycan bank sektorunun iqlim dəyişikliyinə qarşı mübarizədə dayanıqlı inkişafı dəstəkləmək üçün 2 milyard manat vəsait ayırmaq öhdəliyini üzərinə götürdüyünü diqqətə çatdıran baş direktor bildirib ki, bu məqsədlərə uğurla nail olmaq üçün ölkəmizdə "yaşıl" taksonomiya qəbul edilib. Onun sözlərinə görə, "yaşıl" taksonomiya investisiyaların ekoloji təsirini qiymətləndirməyə və maliyyə axınlarını ekoloji baxımdan davamlı layihələrə yönləndirməyə imkan verən mühüm çərçivədir.

V.Xəlilov əlavə edib: "Bu addım təkcə bank sektorunun ekoloji məsuliyyətini artırmaqla qalmır, həm də dayanıqlı inkişaf məqsədlərinə çatmaq üçün güclü baza yaradır. Əminəm ki, banklarımız milli inkişafın əsas prioritetlərindən biri olan "yaşıl" iqtisadiyyata keçidi dəstəkləmək üçün bütün səylərini göstərəcək".

# Bakı konfransının "nar"ı Braziliyada əkilib

**COP29-un Turizm Günü çərçivəsində Braziliya Federativ Respublikasının turizm naziri Selso Sabinoya hədiyyə edilən nar tingi bu ölkənin ilk milli turizm məktəbinin həyətində əkilib.**



Azərbaycan Dövlət Turizm Agentliyinin məlumatına görə, bu barədə Braziliyanın turizm naziri Selso Sabino özünün instaqram hesabında paylaşım edib.

Qeyd edilib ki, tingi nazir Selso Sabino və COP30-un keçiriləcəyi paytaxtı Belem şəhəri olan Para Ştatının qubernatoru Helder Barbalyo əkiblər.

Braziliyalı nazirə hədiyyə edilən nar tingi COP29-da ilk dəfə keçirilən Turizm Günündə əsası qoyulan turizmin iqlim dəyişikliyindəki rolunu vurğulayan təşəbbüslərin Braziliyada keçiriləcək COP30-da davam etdirilməsini simvolizə edir.

Qeyd edək ki, nar tingi braziliyalı nazirə noyabrın 23-də Dövlət Turizm Agentliyinin inzibati binasının önündə ağacəkmədən sonra hədiyyə olunub.

**Səhifəni hazırladılar:**
**Vaqif BAYRAMOV,**
**Mirbağır YAQUBZADƏ**
**XQ**

Beynəlxalq konfrans

# Qərbi Azərbaycanlıların Qayıdışı beynəlxalq hüqüqun tələbidir

(əvvəli 1-ci səhifədə)

Türkiyənin sabiq xarici işlər naziri, Türkiyə Böyük Millət Məclisinin NATO PA-da nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlu çıxışında Ermənistanın bölgədə davamlı sülh üçün Azərbaycanın xoşniyyətli addımlarına müsbət cavab verməli olduğunu bildirərək deyib: "Cənubi Qafqazı sülh bölgəsinə çevirə bilərik. Silah alıb təkrar hazırlıq işləri görməyin, qonşu dövlətin torpaqlarına təkrar göz dikməyin bir faydası olmadığını hər kəs bilməlidir. 30 illik ədalətsizliyin ardından davamlı sülhün qurulmasının çətin olacağını bilirik. Ancaq Türkiyə olaraq bölgədə sülh üçün bundan sonra da əlimizdən gələni edəcəyik. Türkiyə olaraq Azərbaycanın həmişə yanında olduq. Azərbaycan təkcə qardaşımız olduğu üçün yox, həm də haqlı olduğu üçün yanındayıq", – deyə M.Çavuşoğlu qeyd edib.

O diqqətə çatdırıb ki, Qərbi Azərbaycan İcmasının fəaliyyəti beynəlxalq hüquqa tam uyğundur, bu, torpaq deyil, insan haqları məsələsidir: "Ermənistanın ərazi bütövlüyünə tam hörmətlə yanaşılsa da, rəsmi İrəvan səmimi müraciətlərə hələ də cavab vermir. Ermənistanın Qarabağı işğal etməsi böyük ağrılara səbəb olub. Bir milyondan çox azərbaycanlı yurd-yuvalarından edilib, onların doğma torpaqlarına qayıtması təmin olunmalıdır. Həmçinin Ermənistanın UNESCO-nun missiyasına icazə verməməsi təəssüf doğurur. Biz həmişə ədalətin qalib gələcəyinə inandıq, nəticədə, Azərbaycan suverenliyini tam təmin etdi. Ermənistanın minalarla çirkləndirdiyi ərazilərdə bu gün ciddi təmizləmə işləri və bərpa-quruculuq fəaliyyətləri həyata keçirilir".

Çıxışlardan sonra Qərbi Azərbaycan İcmasının Fəxri üzvlük sertifikatları təqdim edilib. Sertifikatlar 10 ölkəni təmsil edən 16 nəfərə verilib.

Konfrans öz işini panel müzakirələrlə davam etdirib.

*

Konfrans çərçivəsində "Ermənistandan zorla çıxarılmış azərbaycanlıların geri qayıtmaq hüququnun tarixi və hüquqi əsaslarına baxış" mövzusunda panel sessiyası keçirilib.

Milli Məclisin deputatı Fariz İsmayılzadənin moderatorluğu ilə keçirilən paneldə çıxış edən Pakistanın Hüquq və Ədalət Komissiyasının katibi Riffat İnam Butt Qərbi azərbaycanlıların öz torpaqlarından didərgin salınmasının açıq-aşkar insan hüquqlarının pozulması olduğunu diqqətə çatdırıb. O bildirib ki, bu məsələlərlə bağlı beynəlxalq komissiya yaradılmalıdır: "Komissiyanın yaradılması insanların kollektiv yaddaşının saxlanılması üçün mühüm rol oynaya bilər. Eyni zamanda, biz deportasiya proqramları da yaratmalıyıq. Bununla da insanlara kömək edilməlidir ki, öz ata-baba yurdlarına qayıda bilsinlər".

Almaniyanın Frankfurt Universitetinin müəllimi Mixael Raynhard Hess çıxışında müəyyən dövrlərdə minlərlə azərbaycanlının qanunsuz şəkildə öz yurdlarından qovulduğunu deyib. Vurğulayıb ki, Ermənistanın qeyri-rəsmi təşkilatları və rəsmi dövlət strukturları bu prosesdə iştirak ediblər. Azərbaycanlılara qarşı XX əsrdə ciddi şəkildə zorakı deportasiya siyasəti tətbiq olunub.

Paneldə digər çıxış edənlər Gürcüstanın Suxumi Dövlət Universitetinin professoru, politoloq, tarixçi Quram Marxuliya və ABŞ-ın Qrinsboro Universitetinin Sülh və Münaqişələrin Tədqiqatları Departamentinin professoru Əli Əsgərov azərbaycanlıların tarixi Azərbaycan ərazisindən qovulduğunu və yerlərinə ermənilərin yerləşdirildiyini deyiblər.

*

Sonra Qərbi Azərbaycan İcmasının üzvü, Milli Məclisin deputatı Qaya Məmmədovun moderatorluğu ilə "Münaqişələrdən təsirlənən regionlarda barışıq və sülh quruculuğu səyləri" mövzusunda panel sessiya keçirilib.

Madrid Muxtar Universitetinin İqtisadi İdarəetmə Məktəbinin Elmi Məsləhət Komitəsinin üzvü Uriarte Sançes Karlos, ADA Universitetində İnkişaf və Diplomatiya İnstitutunun nümayəndəsi Damyan Krnjeviç-Mişkoviç, Böyük Britaniyada "Sülhpərvər planet" qeyri-hökumət təşkilatının təsisçisi Lord Arnold Dunkan MakNeir və Amerika Dini Azadlıq Mərkəzinin baş direktoru Cannah Skott mövzu ətrafında fikir mübadiləsi aparıb, barışıq və sülh quruculuğu proseslərinin əhəmiyyətini vurğulayıblar.

Bildirilib ki, azərbaycanlılar və ermənilər sülh şəraitində yaşamalıdırlar. Belə ki, regionda sülhü bərqərar etmək çox mühüm məsələdir. Beynəlxalq ictimaiyyət zorla öz yurdlarından çıxarılmış azərbaycanlıların geri qayıtmaq hüququnun təmin olunması məsələsinə daha həssas yanaşmalı, regionda davamlı sülhün qurulması üçün bu hüququn həyata keçirilməsinə dəstək verməlidir.

Müzakirələr zamanı sülh quruculuğunun yalnız ədalətin bərpası şəraitində mümkün olduğu, zorla didərgin salınmış insanların hüquqlarının tanınmasının isə bu prosesin əsas komponentlərindən biri olduğu bildirilib.

Çıxışçılar Bakıda keçirilən COP29 konfransına toxunaraq iqlim dəyişikliyi, ətraf mühitin qorunması istiqamətində keçirilən tədbirlər sırasında dünyada insan hüquqları barədə konfransların da təşkilinin əhəmiyyətindən bəhs ediblər.

Paneldə çıxışlar zamanı Ermənistanın nüvə elektrik stansiyasından istifadə etdiyini və bununla da nüvə materiallarının sızması təhlükəsi yarandığı qeyd olunub. Bildirilib ki, bu, nəinki Ermənistana, həm də Azərbaycana və qonşu ölkələrə təsir edir. Odur ki, heç kimin havanı çirkləndirmək hüquqi yoxdur.

*

"Beynəlxalq vəkillik və diplomatiyanın rolu" mövzusundakı panel sessiyası Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin şöbə müdiri Cavid Vəliyevin moderatorluğu ilə keçib.

Tədbirdə Türkiyə Böyük Millət Məclisinin üzvü, Ədalət və İnkişaf Partiyasının sədr müavini Zəfər Sırakaya çıxış edərək bildirib ki, Qərbi azərbaycanlıların öz yurdlarına qayıdışının təmin edilməsi Cənubi Qafqazda sülh və sabitliyə töhfə verəcək. Onun sözlərinə görə, 30 il sonra Azərbaycan özü ədaləti bərqərar etmək məcburiyyətində qaldı və torpaqlarını işğaldan azad etdi. O, Cənubi Qafqazın rifaha qovuşacağına inamını ifadə edib, Türkiyənin sülh danışıqları prosesinə dəstəyini göstərməyə davam edəcəyini diqqətə çatdırıb.

Digər çıxış edənlər – Böyük Britaniyada "Economyfirst Limited London" şirkətinin direktoru, jurnalist Klaus-Peter Ralf Jurgens, Brüssel Enerji Klubunun nümayəndəsi Marat Terterov, İspaniyanın Deusto Universitetinin professoru Susana Manqana və Xorvatiyada İnkişaf və Beynəlxalq Münasibətlər İnstitutunun aparıcı eksperti Krsevan Antun Duymoviç beynəlxalq hüquq normalarının qorunması və onların effektiv tətbiqinin əhəmiyyətini vurğulayıblar. Qeyd olunub ki, beynəlxalq vəkillik və diplomatiya münaqişə sonrası cəmiyyətlərin yenidən qurulması, yurdlarından zorla didərgin düşmüş insanların hüquqlarının bərpası və regionda davamlı sülhün təmin olunmasında mühüm rol oynayır.

Çıxış edənlər beynəlxalq hüquq çərçivəsində ədalətin bərpasının regionda uzunmüddətli sabitlik və barışıq üçün əsas şərt olduğunu vurğulayıblar.

İştirakçılar, həmçinin Bakının COP29-a uğurla ev sahibliyi etməsindən danışıb və bu mühüm tədbirin nəticələrinə toxunublar.

Milli Məclisin deputatı Rizvan Nəbiyevin moderatorluğu ilə keçirilən "Ədalət, insan təhlükəsizliyi və əmlakın geri qaytarılması" mövzusundakı panel sessiyada Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım Bakıda ədaləti bərqərar etmək, insan haqlarını qorumaq və tarixi məsuliyyəti yerinə yetirmək məqsədilə bir araya gəldiklərini bildirib. O, təəssüf hissi ilə qeyd edib ki, 1988-ci ildə Qərbi Azərbaycandan 300 mindən çox azərbaycanlı öz torpaqlarından və qohumlarının məzarlarının yerləşdiyi ərazilərdən ermənilər tərəfindən zorla deportasiya edilib, böyük əzab və çətinliklər yaşayıblar.

"Azərbaycan bu gün ərazi bütövlüyünə nail olub. Biz Qərbi azərbaycanlıların problemlərini dünyaya çatdırmalıyıq. Azərbaycan və Ermənistan arasında sülh danışıqları davam edir. Azərbaycan torpaqlarını tam azad edib. Reallığa baxdıqda bugünkü Ermənistan ərazisinin böyük bir hissəsi də tarixən Azərbaycan torpağı olub. Ancaq Azərbaycanın Ermənistana qarşı heç bir ərazi iddiası yoxdur. Azərbaycan sadəcə sülh və sabitlik istəyir", – deyə Ş.Ayrım diqqətə çatdırıb.

Şimali Kipr Türk Cümhuriyyəti Prezidentinin beynəlxalq əlaqələr və diplomatiya üzrə xüsusi müşaviri, professor Hüseyn İşıksal, İraqın Nümayəndələr Şurasının İnsan Hüquqları Komitəsinin sədri Ərşad Əl-Salihi, Bolqarıstan Elmlər Akademiyasının Balkan Araşdırmaları İnstitutunun hüquq, beynəlxalq hüquq və beynəlxalq münasibətlər üzrə professoru, hüquq üzrə elmlər doktoru xanım Nadia Boyacıyeva və Harvard Universitetinin Rusiya və Avrasiya Araşdırmaları Mərkəzinin direktoru və Soyuq Müharibə Araşdırmaları Proqramının rəhbəri Mark Natan Kramer insan hüquqlarının qorunması, ədalətin təmin edilməsi və münaqişələrdən zərər çəkmiş insanların, xüsusilə Ermənistandan zorla çıxarılmış azərbaycanlıların hüquqlarının bərpası məsələlərini müzakirə ediblər.

Çıxış edənlər beynəlxalq ictimaiyyəti və beynəlxalq təşkilatları bu məsələyə daha həssas yanaşmağa çağırıb. Vurğulayıblar ki, məcburi köçkünlərin hüquqlarının təmin edilməsi və əmlak məsələlərinin həlli üzrə konkret addımların atılması yalnız hüquqi deyil, həm də humanitar məsələdir.

*

Konfrans çərçivəsində "Mədəni irsin bərpası və qorunması" mövzusunda təşkil olunan panel sessiya Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənovun moderatorluğu ilə keçib.

Paneldə çıxış edən Maltanın UNESCO üzrə Milli Komissiyasının prezidenti Raymond Bondin bildirib: "Beynəlxalq arenada Azərbaycanla bağlı qərəz, yanlış fikir çoxdur. Reallıqları təqdim edərək bunların qarşısı alınmalıdır. Qeyd edim ki, mən Qarabağda olmuşam, orada həddən çox mina basdırılıb. Hesablamalara əsasən, həmin ərazilərə işğal dövründə Ermənistan tərəfindən bir milyondan çox mina basdırılıb. Azərbaycan isə həmin əraziləri hazırda həyata qaytarmağa çalışır. Həmçinin tarixi və mədəni irsin qorunması işlərinə beynəlxalq gücü də cəlb etmək lazımdır", – deyə o, diqqətə çatdırıb.

Paneldə çıxış edənlər – Belçikada yerləşən Avropa İnkişaf və Tədqiqat Akademiyasının üzvü xanım Aişa Başa, İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) İnsan və sosial elmlər sektorunun direktoru xanım Ramata Almamy Mbaye, Buxarest Bələdiyyəsinin Böyükşəhər Kitabxanasında Nadir kolleksiyalar şöbəsinin kuratoru və UNESCO-nun eksperti xanım Nikoleta Zaqura, İordaniyada Haşimi Universitetinin Kraliça Rania adına İrs fakültəsinin professoru Mohammed Vahib Hüseyn mədəni irsin qorunmasının əhəmiyyəti, tarixi abidələrin bərpası və gələcək nəsillərə ötürülməsi ilə bağlı mühüm məsələləri müzakirə ediblər. Ermənistan ərazisində Azərbaycan xalqına məxsus yüzlərlə tarixi abidənin məhv edilməsi, mənimsənilməsi və ya təhrif edilməsi ilə bağlı faktlar geniş müzakirə olunub.






*

Qərbi Azərbaycan İcmasının təşkilatçılığı ilə "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda keçirilən II beynəlxalq konfransın ilk gününün bağlanış mərasimində çıxış edən Avrasiya Araşdırmaları Mərkəzinin aparıcı tədqiqatçısı Jakub Voytsex Koreyba bildirib ki, insanların yaşadıqları ərazidən zorla qovulması heç bir halda qəbul edilməməlidir. Qayıdış hüququ beynəlxalq hüquqda təsbit edilib. Məhz ona görə də biz hüququ bərqərar etmək üçün müvafiq hüquqi alətlər yaratmışıq.

"Ermənistan Qərbi azərbaycanlıların torpaqlarına qayıtmaq hüququnun icrasına imkan vermir. Ermənistan hökuməti müsadirə etdiyi və ələ keçirdiyi əmlakı qaytarmalı, yaxud təminatını ödəməlidir. Qayda belədir. İnsanlar dədə-baba torpaqlarına qayıtmalıdırlar. Vaxtilə sahib olduqları əmlaka yiyələnməlidirlər. Biz Azərbaycan irsinin Ermənistan tərəfindən məhv edildiyini müşahidə etmişik. Bu, Azərbaycanın və Qərbi azərbaycanlıların irsinin pozulması deməkdir", – deyə o, vurğulayıb.

Qərbi Azərbaycan İcması Ağsaqqallar Şurasının sədri, akademik Əhliman Əmiraslanov çıxışında bugünkü tədbirdə Ermənistandan azərbaycanlıların zorla çıxarılmasının tarixindən danışıb, qayıdışın hüquqi əsasları və humanitar məsələlərin geniş müzakirə edildiyini bildirib.

Qeyd edək ki, Qərbi Azərbaycan İcmasının qayıdış hüququ mövzusunda təşkil etdiyi konfrans iki gün davam edəcək. Konfransda 51 ölkədən 100-dən çox nümayəndə iştirak edir.

# *Konfrans iştirakçıları:* Deportasiya insanlığa qarşı cinayətdir

**İştirakçılar "XQ"-nə ürək sözlərini söyləyiblər.**

**Konfrans iştirakçıları:**

**Şamil Ayrım, Türkiyə Böyük Millət Məclisinin (TBMM) Türkiyə–Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri:**



– Keçən il də bu konfransa gəlmişdim. Açılışda Prezident Administrasiyasının "Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr" şöbəsinin müdiri Ədalət Vəliyev Prezident İlham Əliyevin müraciətini tədbir iştirakçılarına oxudu. Bu müraciət şəxsən məni çox təsirləndirdi. Qərbi azərbaycanlıların haqlı olaraq öz hüquqlarını müdafiə etməsi, onların Vətənlərinə qayıdışı üçün mücadilə aparmaları beynəlxalq qanunlara əsaslanır. Çünki, o torpaqlar azərbaycanlıların dədə-babalarından yadigardır. Torpaq sevgisindən qüdrətli nə ola bilər?! Bizim keçmiş Xarici işlər naziri Mövlud Çavuşoğlu haqlı olaraq onların səsinə səs verdi və dedi: "Azərbaycanlıların doğma torpaqlarına qayıtması beynəlxalq hüquq normalarına əsaslanır. Bizim qardaşlarımızın bir istəyi var: Öz torpaqlarına qayıtsınlar, onların vətəndaş haqqı beynəlxalq səviyyədə öz həllini tapsın. Ona görə də bütün dünya bu haqsızlığa qarşı barışmaz olmalıdır".

Dünyanın bir ədalət tərəzisinə ehtiyacı var. Bunu hər kəs duymalıdır. Ədalətsizliyin yuvası olan bəzi ermənipərəst ölkələr Qərbi Azərbaycan İcmasının Qayıdış hüququna qarşı amansızlıqla çıxır və Ermənistanı qızışdırırlar. Hətta bütün cahana ağ yalanlarını bəyan etmək üçün çirkin təbliğata əl atıb deyirlər ki, Azərbaycan Ermənistandan torpaq istəyir.

**Halil Korkmaz, AK partiyanın xarici əlaqələr başkanının köməkçisi:**



– Mən keçən il də bu tədbirdə iştirak etmişdim. Türkiyə dövləti və xalqı olaraq, hər zaman can Azərbaycanın yanındayıq və qardaşlarımızı dəstəkləməklə qürur hissi keçiririk. Aldığım məlumata görə, 51 ölkədən 100-dən çox iştirakçı konfransa qatılıb. Bu, sanki, bütün dünya xalqlarının sülhə çağırış səsidir. Bu insanların hər biri inanaraq Azərbaycana gəlmişdir. Bu, bir vicdan məsələsidir. Təkrar edirəm, insanlığın zor dünyaya barışmaz olduğu, vicdanlarının səsini dinləməyə sonsuz ehtiyacı göz qabağındadır. Biz türklər eyni torpaqların, eyni soyların övladlarıyıq. Qoy, bunu bütün dünya eşitsin və bilsin. Bu sadəcə, tarix və hüquq məsələsi deyil. Bu, azərbaycanlıların keçən əsrlərdən başlayaraq, zorla dədə-baba yurdlarından qovulma siyasətidir. Ona görə də, fikrimi keçmiş xarici işlər naziri Mövlud Çavuşoğlunun sözləri ilə tamamlamaq istəyirəm: "İki dövlət, tək millət" sözünün üzərinə lazım gələrsə, həm tək dövlət, həm tək millət olaraq davranmasını da bilirik!"

**Zaur Məmmədov, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının müşaviri:**



– 1987-ci ilin dekabrından başlayaraq, azərbaycanlılar qədim torpaqlarımızdan qovuldular. Bunun ardınca Qarabağ torpaqlarımız, Şərqi Zəngəzur işğal olundu. 30 il torpaq acısı ilə yaşadıq. 2020-ci ilin Vətən müharibəsində Zəfər qazandıqdan sonra torpaqlarımız işğaldan azad olundu. Məhz bu qələbəmizdən sonra cənab Prezident Qərbi Azərbaycan İcmasının yerləşdiyi binaya gəldi və çıxış edərək bildirdi ki, qədim İrəvan torpaqlarından deportasiya olunmuş azərbaycanlılar sülh yolu ilə doğma torpaqlarında yaşamaq hüququna malikdirlər. Biz o torpaqlara silahsız, əmin-amanlıqla qədəm qoyacağıq. Bu, bizim haqqımızdır! Çünki o yurd yerləri dədə-babalarımızdan bizlərə yadigardır. Çox təəssüf ki, bu gün biz o tariximizdən – keçmişimizdən, o torpaqlardakı yaşamaq hüququmuzdan məhrum olmuşuq. Amma inanırıq ki, gec-tez o yerlərə qayıdacağıq.

Cənab Prezidentin tarixi Azərbaycan torpaqları haqqındakı çıxışından sonra bütün Qərbi azərbaycanlılar inandılar ki, vətənlərinə geri dönəcəklər. Siz bilirsiniz ki, yüz illər boyu Azərbaycan qədim İrəvan torpaqlarında böyük bir tarix yaradıb. O tarixi silmək olmaz. Deportasiya isə insanlığa qarşı cinayətdir.

Belə bir konfransın keçirilməsi tarixi əhəmiyyət daşıyır. Bütün dünyanın sülhsevər qüvvələri, beynəlxalq ictimaiyyət bu gün Azərbaycana toplaşıb. Bu o deməkdir ki, ermənilərin silahla qovub çıxardığı azərbaycanlılar beynəlxalq hüquq normalarına arxalanaraq tarixi vətənlərinə qayıdacaqlar.

**Bentslav Sabev, Cenevrə Universitetinin müşahidə şurasının nümayəndəsi:**



– Bu gün biz çox vacib bir mövzu haqqında danışırıq. Bu, sadəcə bir anlayış, kağız üzərindəki məsələ deyil. Bu, çox dərin bir mövzudur. Çünki bu, insanların psixoloji və insani ehtiyaclarının müdafiəsi ilə bağlıdır. Bu o deməkdir ki, insanlar öz milli-mənəvi köklərinə sahib olmalıdırlar. Bu konfransın əhəmiyyəti ondadır ki, ulu əcdadlarımızın kökünə, onların qoyub getdikləri irsə sahib çıxmalıyıq. Çünki, bu torpaqlar bizə o tarixi köklərdən miras qalıb. Mən bu konfransı belə dərk edirəm. Bizim üç prinsipimiz var:

**Birincisi,** ləyaqətdir. Şəxsiyyətinizlə mənsub olduğunuz kökləriniz arasında yenidən əlaqə qura bildiyiniz zaman ləyaqəti bərpa edirsiniz.

**İkincisi,** qarşılıqlı hörmətdir. Məşhur bir deyim var: Özünə rəva bilmədiyini başqalarına da rəva görmə. Qarşılıqlı hörmət gələcək münaqişələrin, ayrı-seçkiliyin qarşısını almaq üçün çox vacibdir.

**Üçüncü,** ən əsası isə insan hüquqları və bu anlayışa hörmətlə yanaşma cəhdləridir. Beynəlxalq humanitar hüququn qanunlarına əməl etmək hər bir ölkənin borcudur. Bütün dünyaya sülh lazımdır!

**Ramil Baxtizin, Başqırdıstan Respublikasının elm xadimi:**

– Mən uzun illər Azərbaycanda yaşamışam. Milliyətcə başqırdam. Azərbaycan Neft və Sənaye Universitetində elmi karyeramı qurmuşam. Akademik Azad Mirzəcanzadə mənim həm müəllimim, həm də elmi rəhbərim olub. Mən bu dövlətdə, xalqın içində hər zaman hörmət və məhəbbət görmüşəm. Vətənim Başqırdıstana qayıdandan sonra Azərbaycanda baş verən hadisələr, xüsusilə, Qarabağ torpaqlarının işğal olunması, 1 milyondan çox azərbaycanlının qaçqın düşməsi ürəyimi göynətdi. Bu insanların günahı nə idi?!



Mən uzun illər Başqırdıstanda müxtəlif xalqların nümayəndələri ilə görüşəndə Azərbaycanın başına gətirilən müsibətlərdən danışmışam və bu ağrıları özümünkü bilmişəm. Çünki mən Azərbaycanda öz doğma Vətənim kimi yaşamışam. Böyük ürək sahibi olan elm xadimləri ilə görüşmüşəm. Şəxsən akademik Azad Mirzəcanzadənin böyük qayğısını görmüşəm. Məhz onun sayəsində elmi uğurlara imza atmışam. İnsan ona qoyulan hörməti, qayğını unutmamalıdır. Bugünkü konfransa da belə bir ruhla gəlmişəm. Və bütün dünyaya səsimi çatdırmaq istəyirəm: Azərbaycanlıların heç kimin torpağında gözü yoxdur. Onların haqlı mübarizəsinə mən də qoşuluram. İnanıram ki, illər əvvəl – keçən əsrdə yurdlarından sürgün olunan və böyük acılar yaşayan irəvanlılar ata-baba yurdlarına qayıdacaqlar.

*Hazırladı:*
*Kəmalə ABDİNOVA*
*XQ*

ATƏT-də müzakirə

# Avropada etnik, dini dözümsüzlük və ayrı-seçkilik niyə artır?




**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ATƏT Nazirlər Şurasının 31-ci iclasında iştirak edib.**

Tədbirdə çıxış edən Ceyhun Bayramov bugünkü iclasın olduqca mürəkkəb dövrə təsadüf etdiyini deyib. Bildirib ki, beynəlxalq hüququn pozulması, beynəlxalq öhdəliklərin yanlış təfsiri və selektiv şəkildə tətbiqi inam və etimadın azalmasının, habelə çoxtərəfliliyin davam edən böhranının əsasında dayanır. Eyni zamanda, təhlükəsizlik və sabitlik heç bir sərhəd tanımayan, çoxtərəfli həllər tələb edən artan transmilli çağırışların mövcudluğuna görə təhdid altındadır.

Qeyd olunub ki, Avropada islamofobiya və antisemitizm kimi etnik, dini dözümsüzlüyün və ayrı-seçkiliyin artması narahatlıq doğurur. ATƏT-ə üzv olan müvafiq dövlətlərin Təşkilat çərçivəsində aidiyyəti və beynəlxalq öhdəliklərinə əməl etmələri son dərəcə vacibdir.

Helsinki Yekun Aktından başlayaraq, ATƏT-in bütün sənədlərində təsbit olunmuş fundamental norma, prinsip və öhdəliklərə hörmət edilməsi və əməl olunması, xüsusilə, dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərinin toxunulmazlığına hörmət təhlükəsizlik və sülhün təməl daşı, eləcə də dialoq və əməkdaşlıq üçün əsas olmalıdır.

Nazir deyib ki, Azərbaycan ATƏT-in də daxil olduğu effektiv çoxtərəfliliyin güclü tərəfdarı olaraq qalır və büdcənin qısa zamanda qəbul edilməsi, habelə ATƏT-in funksionallığı ilə bağlı baş katibin və icra strukturlarının rəhbərlərinin təyin edilməsi məsələsi ətrafında yaranmış çıxılmaz vəziyyətin həll olunması məsələlərinin həllində konstruktiv qarşılıqlı fəaliyyətə çağırır.

Nazir deyib ki, ATƏT-in keçmiş Minsk prosesi ilə bağlı strukturları köhnədir və reallığa uyğun deyil. Bu strukturların kağız üzərində saxlanması təşkilatın maliyyə qaydalarına ziddir. Müvafiq olaraq, bu vəziyyət büdcə prosesi çərçivəsində tənzimlənməlidir.

ATƏT-in zərərli ambisiyaların girovuna çevrilməsinə baxmayaraq, bölgədə Ermənistan–Azərbaycan kontekstində xeyli irəliləyişlər əldə edilib. Qanunsuz hərbi mövcudluğun aradan qaldırılması, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün bərpası nəticəsində artıq sülh faktiki olaraq bərqərar edilib. Bu, substantiv şəkildə dövlətlərarası münasibətlərin normallaşmasına yol açmaq üçün yeni imkanlar yaradıb.

Bildirilib ki, Nazirlər Şurasının son iclasından bəri Azərbaycan və Ermənistan birbaşa ikitərəfli dialoq vasitəsilə sərhədlərinin bir hissəsinin delimitasiyasını və demarkasiyasını başa çatdırıb. Müvafiq sərhəd komissiyalarının birgə fəaliyyəti haqqında bu yaxınlarda qüvvəyə minmiş Əsasnamə delimitasiya işinin növbəti mərhələlərinin həyata keçirilməsini təmin edəcək. Digər bir istiqamət üzrə isə ikitərəfli Saziş layihəsinin mətni üzərində fəaliyyətdə əhəmiyyətli irəliləyiş əldə olunub.

"Bu nailiyyətlər birbaşa ikitərəfli danışıqların Azərbaycanın ardıcıl olaraq mübarizə apardığı normallaşma prosesində irəliləməyin ən yaxşı və yeganə əlverişli yolu olduğunu əyani şəkildə göstərir", – deyə nazir əlavə edib.

Əldə olunan tərəqqiyə baxmayaraq, normallaşma istiqamətində həll olunmamış problemlər də qalmaqdadır. Onun yekunlaşdırılması Ermənistanın hələ də konstitusiyasında və digər qanunvericilik aktlarında təsbit edilmiş ərazi iddialarını aradan qaldırmaqla, Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə hörmət etməklə bağlı bəyan etdiyi öhdəliyini əməli surətdə həyata keçirməsindən asılıdır.

Nazir deyib: "Sülh və mehriban qonşuluq münasibətləri Ermənistan konstitusiyasında Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün tanınmasının şübhə altına alındığı və ikitərəfli sazişin icrasının Ermənistanın daxili hüquqi və ya siyasi ssenarilərindən asılı olacağı təqdirdə, davamlı və dönməz ola bilməz".

C.Bayramov vurğulayıb ki, Azərbaycanın bu məsələdə qətiyyəti dəyişməzdir, buna qarşılıq olaraq Ermənistan tərəfindən də siyasi iradə və məsuliyyət gözləyir.

*XQ*

# Ceyhun Bayramovun Malta görüşləri




**Dekabrın 5-də xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in Nazirlər Şurasının 31-ci iclasında iştirakı çərçivəsində Gürcüstanın xarici işlər naziri Maka Botçorişvili ilə görüşüb.**

Görüşdə iki ölkə arasında mövcud strateji tərəfdaşlıq və dostluq münasibətlərinin müxtəlif aspektləri, habelə regional təhlükəsizlik məsələləri müzakirə olunub.

Ceyhun Bayramov həmkarını Gürcüstanın xarici işlər naziri vəzifəsinə təyinatı münasibətilə bir daha təbrik edib, fəaliyyəti dövründə uğurlar arzu edib. Tərəflər ölkələrimiz arasında beynəlxalq hüququn norma və prinsipləri, xüsusilə, ərazi bütövlüyü və suverenliyə qarşılıqlı hörmət və dostluğa əsaslanan strateji tərəfdaşlıqdan məmnunluqlarını ifadə ediblər.

Siyasi məsləhətləşmələr mexanizmindən istifadənin əməkdaşlığın regional və beynəlxalq platformalar çərçivəsində inkişafına mümkün töhfələri qeyd olunub. İkitərəfli münasibətlərin iqtisadi, müqavilə-hüquq, humanitar və enerji aspektlərinin inkişafının əhəmiyyəti qeyd olunub, birgə strateji layihələrin vacibliyi diqqətə çatdırılıb. Azərbaycan Respublikası və Gürcüstan arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın fəaliyyətinin əhəmiyyəti vurğulanıb.

Nazir Ceyhun Bayramov ölkəmizin sədrlik etdiyi və bölgəmizdə ilk dəfə keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) yekunları barədə həmkarını məlumatlandırıb.

***

**Həmin gün xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in Nazirlər Şurasının 31-ci iclasında iştirakı çərçivəsində Finlandiyanın Xarici İşlər naziri Elina Valtonen ilə də görüşüb.**

Görüş zamanı Azərbaycan və Finlandiya arasında əməkdaşlıq perspektivləri, növbəti il Finlandiyanın ATƏT-ə sədrliyindən irəli gələn məsələlər, habelə postmünaqişə dövründə bölgədə mövcud vəziyyət müzakirə olunub.

Ceyhun Bayramov Azərbaycanın COP29 Sədrliyi zamanı iqlim dəyişmələri ilə mübarizə sahəsində əldə edilmiş tarixi əhəmiyyətli razılıqları, ölkəmizin iqlim fəaliyyəti gündəliyinin irəli aparılması istiqamətində səyləri diqqətə çatdırıb. Qarşı tərəf, həmçinin postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, mina təhdidi ilə mübarizə, habelə Azərbaycan–Ermənistan normallaşma gündəliyi barədə ətraflı məlumatlandırılıb.

C.Bayramov, eyni zamanda, Finlandiyaya qarşıdan gələn il ATƏT-ə sədrliyi dövründə uğurlar arzu edib, Təşkilatın funksionallığı və effektivliyinin artırılması istiqamətində səyləri dəstəkləməyə hər zaman hazır olduğumuzu qeyd edib. Xüsusilə, ATƏT-in keçmiş Ermənistan–Azərbaycan münaqişəsinin qalığı olan təsisatlarının artıq aktuallığını itirməsi baxımından ləğvinin Təşkilatın fəaliyyətinin səmərəliliyi istiqamətində əhəmiyyətini vurğulayıb.

***

**Dünən xarici işlər naziri Ceyhun Bayramov ATƏT Nazirlər Şurasının 31-ci iclasında iştirakı çərçivəsində Slovakiya Respublikasının xarici və Avropa işləri naziri Yuray Blanar ilə də görüşüb.**

Görüşdə Azərbaycan–Slovakiya strateji tərəfdaşlıq əlaqələri, COP29 çərçivəsində əldə olunmuş əhəmiyyətli qərarlar, habelə postmünaqişə dövründə bölgədə mövcud vəziyyət müzakirə olunub.

COP29 çərçivəsində iki ölkə rəhbəri arasında keçirilmiş görüş məmnunluqla xatırlanıb. Bu xüsusda, Azərbaycan və Slovakiya arasında dostluq, qarşılıqlı hörmət və faydalı əməkdaşlığa əsaslanan strateji tərəfdaşlıq münasibətlərinin inkişafı istiqamətində qarşılıqlı yüksək səviyyəli səfərlərin həyata keçirilməsinin, eləcə də siyasi məsləhətləşmələrin davam etdirilməsinin əhəmiyyəti vurğulanıb.

***

**Dekabrın 5-də xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in Nazirlər Şurasının 31-ci iclasında iştirakı çərçivəsində İsveçrə Konfederasiyasının Federal Xarici İşlər Nazirliyinin dövlət katibi Aleksandr Fasel, Sloveniya Respublikasının xarici işlər və Avropa işləri naziri Tanya Fayon, Andorra Knyazlığının xarici işlər naziri İmma Tor Faus ilə də görüşüb.**

*XQ*

# Tələbə krediti mövzusunda müzakirə

**Sosial Tədqiqatlar Mərkəzi və Təhsil Tələbə Krediti Fondunun apardığı birgə tədqiqat çərçivəsində ekspertlərilə görüş keçirildi.**



STM-in "Zəfər" zalında təşkil olunan müzakirədə tələbə kreditlərinin güzəşt və şərtləri, əhatəliliyi və əlçatanlığı kimi müxtəlif məsələlər araşdırıldı.

Ekspertlər tələbə kreditlərinin təkmilləşdirilməsi və genişləndirilməsi, kreditlərinin verilməsi prosesinin daha şəffaf və əlçatan olması ilə bağlı rəy və təkliflərlə çıxış etdilər. Görüşdə fondun fəaliyyətinin daha səmərəli olması ilə bağlı fikir mübadiləsi aparıldı.

STM-in Media və Kommunikasiya Departamentinin rəhbəri Əziz Əlibəyli "XQ"yə bildirdi ki, ekspertlərin irəli sürdükləri mülahizə və təkliflər Sosial Tədqiqatlar Mərkəzi tərəfindən sistemləşdirilərək hesabat sənədində nəzərə alınacaq.

*R.ABİŞOV*
*XQ*

# AK Parti heyəti YAP-da



**Qərbi Azərbaycan İcmasının təşkilatçılığı ilə "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılan azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda keçirilən ikinci beynəlxalq konfransda iştirak etmək məqsədilə Azərbaycana səfərə gələn Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası (AK Parti) Sədrinin xarici əlaqələr üzrə müavini, Türkiyə Böyük Millət Məclisinin (TBMM) üzvü Zafer Sırakayanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə dekabrın 5-də Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında görüş keçirilib.**

YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov əsrlərin sınağından şərəflə çıxan Azərbaycan–Türkiyə münasibətlərinin bu gün dünyada nümunəvi xarakter daşıdığını qeyd edib. O, beynəlxalq konfransın önəminə diqqəti cəlb edərək bildirib ki, soydaşlarımızın öz ata-baba torpaqlarından zorla çıxarılması beynəlxalq hüquq normalarının kobudcasına pozulmasıdır. O, həmvətənlərimizin Qərbi Azərbaycana qayıdışı məsələsinin bütün Türk dünyası üçün aktual və önəmli olduğunu söyləyib, qardaş ölkənin mənəvi-siyasi dəstəyinə görə minnətdarlığını ifadə edib.

AK Parti Sədrinin Xarici əlaqələr üzrə müavini, TBMM-in üzvü Zafer Sırakaya Azərbaycan ilə Türkiyənin dost və qardaş ölkələr kimi daim bir-birinin yanında olduğunu, strateji müttəfiqlik münasibətlərindən irəli gələrək çoxşaxəli işbirliyini dərinləşdirdiyini qeyd edib.

Türkiyə–Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun sədri Şamil Ayrım isə iki qardaş ölkə arasında münasibətlərin yüksələn xətt üzrə inkişafının böyük məmnunluq doğurduğunu qeyd edib.

*XQ*

# Makron Fransası "siyasi turbulentdə"

**(əvvəli 1-ci səhifədə)**

Eyni zamanda, hökumətin istefası həm də ölkəni büdcə problemləri və ola bilsin ki, ciddi maliyyə böhranı ilə üz-üzə qoyacaq. Çünki hökumətin 2025-ci il üçün hazırladığı büdcə qüvvədən düşür. Yeni ildə dövlət strukturlarının və sosial sığorta sisteminin maliyyələşdirilməsi ötən ilin büdcəsi əsasında həyata keçiriləcək. Bunun üçün də yalnız dövlətin funksionallığını saxlamaq üçün zəruri maliyyə vəsaiti ayrılacaq. Deməli, pul hamıya verilməyəcək və bu da narazılığı daha da artıracaq.

Analitiklərin sözlərinə görə, Fransa hökumətinin istefası o deməkdir ki, bütün avrozonada artan siyasi və iqtisadi böhran "Qoca qitə"ni silkələyə bilər və prezident Makronun bunun öhdəsindən gəlmək potensialı yoxdur. Bununla bağlı "Politico" yazır ki, siyasi xaos səlahiyyət müddəti 2027-ci ildə başa çatan prezident Makronun istefasını gündəmə gətirir. Bu baş verərsə, yəni qanunvericilər dövlət başçısına etimadsızlıq göstərərlərsə, müasir Fransa siyasətində indiyədək görünməyən ilkə imza atmış olacaqlar.

Siyasi analitiklər prezident Makronun manevr imkanlarının da son dərəcə daraldığını vurğulayırlar. Müxalifət deputatlar onun istefaya getməsini təklif edirlər. Səsvermə ərəfəsində çıxış edən ifrat sağçı lider Marin Le Penin sözləri bir daha göstərir ki, Makronun prezidentlik müddəti vaxtından əvvəl başa çata bilər: "Makron istefaya getməsə, öz şöhrətpərəstliyinə görə Fransanın taleyini qurban verəcək". "Emmanuel Makron son yeddi ildə millətin təməllərinə hücum etdi", – deyən Le Pen əmindir ki, "yalnız o, ölkəni düşdüyü uçurumdan (istefa verməklə) çıxara bilər".

"Politico" digər radikal solçu "France Invictus" partiyasından Matilda Panonun hökumətin istefaya getməsinə münasibətini diqqətə çatdırır. Xanım deputat düşünür ki, çərşənbə günü keçirilən səsvermə "Emmanuel Makronun bütün siyasətinin" məğlubiyyətidir. Onun səsvermədən sonra jurnalistlərə "Dalandan çıxmaq üçün Makrondan getməsini xahiş edirik" dediyi bildirilir.

Əslində, son 6 ay ərzində üç dəfə böyük siyasi məğlubiyyətə uğrayan Makronun mahiyyətcə dövlət başçısı kimi qalmaq üçün mənəvi haqqı yoxdur. Üstəlik, rəy sorğuları da göstərir ki, fransızların əksəriyyəti onun getməsini istəyir. Noyabrda sorğuda iştirak edənlərin 63 faizi hesab edir ki, hökumət istefaya gedirsə, onunla bərabər prezident də istefa verməlidir. "Fəth edilməmiş Fransa" partiyasının lideri Jak-Lyuk Melanşon "Xalq Cəbhəsi" hökumətinin təsdiq olunmayacağı təqdirdə Makronun istefasını tələb edəcəyini bildirir.

İndi Fransa "siyasi turbulent" rejiminə daxil oldu. "Politico" bununla bağlı yazır ki, siyasi çaxnaşma Avropa üçün heç də xoş olmayan dövrə təsadüf edir. "Qoca qitə"nin birinci iqtisadiyyatına malik Almaniya da siyasi qarışıqlıq və iqtisadi problemlər ilə üz-üzədir və mövcud vəziyyət Berlini Avropanın iqtisadi lokomotivinin idarəçiliyini üzərinə götürməyə hazır deyil.

Belə bir şəraitdə Makronun Fransanı və Avropanı daha pis perspektivlə üzləşməsinə imkan verməmək üçün postundan getməsi daha məqbul çıxış yolu hesab edilir. Ancaq onun istefa verməyəcəyi bildirilir. Konstitusiyaya görə, deputatlardan incimiş Makron parlamenti yenidən yalnız 2025-ci ilin yayında buraxa bilər. Bu isə o deməkdir ki, o, yeni baş nazirin seçilməsi ilə bağlı bütün siyasi partiyalarla yorucu danışıqlar aparacaq.



Təəccüblü odur ki, ölkəsinin problemlərini həll edə bilməyən Makron hökumətinin strukturları Azərbaycana qarşı absurd iddialar irəli sürür. Bu günlərdə Fransanın xarici rəqəmsal müdaxilədən müdafiə agentliyi "Viginum" Azərbaycanı sosial şəbəkələrdə Fransaya qarşı sabitliyi pozan əməliyyat keçirməkdə ittiham edir. Agentlik öz hesabatında Bakının, guya, Fransanın əcnəbi əhali və korsikalılar arasında imicini pisləşdirməyə yönəlmiş hərəkətlərə yol verir və Azərbaycanın Yeni Kaledoniyadakı hərəkətlərinin aysberqin görünən tərəfi olduğunu bildirir. Belə gülüş doğuran ittihamlara nəzər yetirəndə bir daha əmin olmaq mümkündür ki, Fransa xalqı daha kompitent iqtidara malik olmalıdır. Öz gözlərində tiri görməyən Makron və ətrafındakılar Azərbaycanın gözlərində tük axtarırlar. Amma Fransanın siyasi arenasında yaşananlar bir daha təsdiqləyir ki, potensialı və dəstəyi olmayan birisinin Napoleon olmaq həvəsinə düşəndə ölkə belə böhranlara "qucaq" açır.

*S.ELAY*
*XQ*

# Türkiyənin Əmanətlərin Sığortalanması Fondunun nümayəndə heyəti Azərbaycanda





**Bu günlərdə Türkiyənin Əmanətlərin Sığortalanması Fondunun (TƏSF) nümayəndə heyəti ölkəmizdə rəsmi işgüzar səfərdə olub. Fondun rəhbəri Fatin Rüştü Karakaş, fond rəhbərinin müavini və "YAZ Bilgi Sistemleri" İdarə Heyətinin sədri Melek Küreeminoğlu, "YAZ Bilgi Sistemleri"nin baş direktoru Fatih Hastürk və biznesin inkişafı üzrə meneceri Gökberk Yılmazın daxil olduğu olan nümayədə heyətinin səfərində əsas məqsəd Əmanətlərin Sığortalanması Fondunun rəhbərliyi ilə görüşün keçirilməsi, qarşılıqlı təcrübə mübadiləsi və hər iki tərəfi maraqlandıran məsələlərin müzakirəsi olub.**

Səfərin ilk günü qonaqlar Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin abidəsini ehtiramla yad etmiş, məzarı üzərinə gül-çiçək dəstələri düzüblər. Həmin gün nümayəndə heyəti Şəhidlər xiyabanını və Bakıdakı "Türk Şəhidliyi" abidəsinə də ziyarət ediblər.



Səfərin ikinci günü ƏSF və TƏSF arasında geniş tərkibdə görüş keçirilib. Görüşü ƏSF-nin icraçı direktoru Tural Piriyevi açaraq qonaqları salamlamış, rəhbərlik etdiyi qurum haqqında qısa məlumat vermişdir. Sonra fondun Risklərin idarə edilməsi, təhlil və investisiya departamentinin direktoru fond barədə ümumi məlumatı əks etdirən, Maliyyə Departamentinin direktoru Vüqar Aslanzadə fondun maliyyə vəziyyəti barədə, Hüquq Departamentinin direktoru Azər Əmirov hüquqi məsələlərlə bağlı, İT və təhlükəsizlik departamentinin direktoru Emil Quliyev isə fondun fəaliyyətində informasiya texnologiyalarının tətbiqi məsələləri ilə bağlı təqdimatlarla, habelə qarşılıqlı müzakirələr və məlumat mübadilələri ilə davam edib.

Görüşdə TƏSF rəhbəri Fatin Rüştü Karakaş Türkiyə Respublikasında əmanətlərin sığortalanması və ləğvetmə prosesinin xüsusiyyətləri haqqında ümumi məlumatları əhatə edən təqdimatla çıxış edib.

Tədbir çərçivəsində ƏSF-nin müvafiq struktur bölmə rəhbərləri və əməkdaşları ilə "YAZ Bilgi Sistemleri" şirkətinin nümayəndələri arasında həmin şirkətin təklif etdiyi xidmətlər, məhsullar və TƏSF-də tətbiq edilən informasiya texnologiyaları həlləri barədə təqdimatları və məlumat mübadiləsini əhatə edən ayrıca görüş də keçirilib.

# SABAH Tələbə–məzun Forumu

**SABAH qruplarının 10 illik yubileyinə həsr olunan tələbə-məzun forumu və karyera sərgisi keçirilib. Məclis videoçarx nümayişi ilə başlayıb. Bakı Musiqi Akademiyasının SABAH tələbələrindən ibarət "Detaşe-SABAH" simli alətlər ansamblı iştirakçıları musiqi nömrəsi ilə salamlayıb.**



Açılış nitqi ilə çıxış edən elm və təhsil nazirinin müavini İdris İsayev bildirib ki, qlobal meyllər təhsil sistemində yeni çağırışları formalaşdırdığından yeni məzmunlu, müəyyən ixtisaslar üzrə daha davamlı və əmək bazarının tələblərinə cavab verən təhsil proqramları hazırlanmalıdır. Əmək bazarı ilə təhsil arasında daha interaktiv əlaqənin qurulmasının önəmini vurğulayan nazir müavini belə proqramların çağdaş tələblərə uyğunlaşdırılmasının zəruriliyini qeyd edib. Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın İdarə Heyətinin sədri Elnur Səfərli SABAH məzunlarının məşğulluq göstəriciləri barədə tədbir iştirakçılarına məlumat verib. Sonra SABAH İncəsənət Festivalında tələbə və məzunların nümayiş etdirdikləri müxtəlif layihələr, əl işlərindən ibarət "Virtual muzey"i təqdim edilib.

SABAH tələbələri arasında bu il 23–24 noyabrda ekoloji maarifləndirmə mövzusunda təşkil edilən "Secure Tomorrow" hakatonunun qalibləri də mükafatlandırılıb.

Elm və təhsil nazirinin müşaviri Nicat Məmmədlinin moderatorluğu ilə aparılan "SABAH layihəsinin ali təhsil sisteminə töhfəsi" mövzusunda panel sessiyasında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktoru Ülkər Səttarova, millət vəkili Şahin Seyidzadə və Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov çıxış ediblər.

SABAH qrupları İcra Komitəsinin rəhbəri Elza Səmədovanın moderatorluğu ilə aparılan "Tədqiqat necə kommersiyalaşdırıla bilər? Universitet–sənaye əməkdaşlığı" mövzusunda paneldə "CATALYSADE Technology Transfer and Innovation Inc" şirkətinin təsisçisi Sanem Yalçıntaş, Türkiyə–Azərbaycan Universitetinin rektor köməkçisi Mehmet Şimşer, Elm və Təhsil Nazirliyinin Yüksək Texnologiyalar Parkının baş direktoru Nihat Məcidov spiker qismində çıxış edərək mövzu ətrafında fikir mübadiləsi aparıblar. Forum SABAH məzunlarının "Uzaqları yaxın edən SABAH!" mövzusunda panel sessiyası ilə yekunlaşıb.

Forumda SABAH qrupları və Dövlət Məşğulluq Agentliyinin birgə təşkilatçılığı ilə 50-dən çox şirkətin iştirak etdiyi karyera sərgisi də təşkil olunub.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

Təqvim yada salır

# Sənət zirvəsinə yüksəlmiş səs

**Bu gün gözəl səsə, özəl duyuma malik olan xanəndə, Xalq artisti Baba Mirzəyevin (Mahmudoğlunun) 66 yaşında dünyanı dəyişdiyi gündür. Opera səhnəmizin Məcnunu, Aşıq Qəribi, Kərəmi, Şah İsmayılı kimi yaddaşlarda özünə "abidə" ucaltmış sənətkar unudulmazlar sırasında yeri olanlardandır.**

Baba Mahmudoğlunun ömrünün son 20 ilində bu sətirlərin müəllifi dövlət televiziyasında çalışdığı üçün onunla studiyada tez-tez rastlaşıb, söhbətlərinə böyük maraqla qulaq asıb. Baba müəllim musiqidən, poeziyadan, xüsusilə də dahi Füzulidən danışanda elə dərin qatlara nüfuz edirdi ki, heyran qalmamaq olmurdu. Danışdıqca, sanki, vəcdə gəlirdi, çevrəsi anbaan böyüyürdü. Bir dəfəsində yaxın sirdaşı – Xalq artisti Səfa Qəhrəmanov qayıdıb bizə dedi: "O, elə gursulu, çağlar bulaqdır ki, tükənən deyil. Qopub gedə bilməsəniz, işiniz-gücünüz tökülüb qalacaq".



Mərhum Əməkdar artist Süleyman Abdullayev onu belə səciyyələndirib: "Baba Mahmudoğlunun istedadına söz ola bilməzdi. O qədər savadlı idi ki, hardan deyirdin, ordan cavab verirdi. Dünya klassiklərini əzbər bilirdi. İnanın ki, Füzulinin qəzəllərini elə gözəl təhlil edirdi ki, biz ona öz aramızda "Kəllə" deyirdik".



Baba Mahmudoğlu 1940-cı il noyabrın 7-də Qazax rayonunun Muğanlı kəndində sadə bir ailədə dünyaya göz açıb. Uşaqlıqdan saza, sözə aludə olub. Arada səsini zilə çəkib oxuyarmış. O, orta məktəbi əla qiymətlərlə başa vuraraq Bakıya gəlib. İncəsənətdən uzaq ixtisas üzrə ali təhsil alıb, amma musiqi istedadı onu tərk etməyib. Elə buna görə də tədricən ecazkar səsinin ardına düşüb, sənət aləminə gəlib.

Sumqayıtda eyni binada yaşadığım musiqişünas Səadət Təhmirazqızının xatirələri də maraqlıdır: "O, yeniyetmə çağlarından fəlsəfi düşüncələri, sənətə olan böyük məhəbbəti və bu məhəbbət naminə zəhməti, fədakarlığı ilə yaşıdlarından seçilərmiş. Musiqiyə sevgisi kəndin füsunkar təbiətindən başlayıb. Romantik aləmdə böyümək, bülbüllərin cəh-cəhindən zövq almaq və milli musiqi sədaları, ulu saz-söz sənəti, təbii ki, insanı cuşa gətirir. O da belə məqamlarda öz hisslərini avazla ifadə etməyə başlayıb. Bunu eşidən dost-tanışları deyiblər ki, ayə, nə yaxşı oxuyursan".

Özü isə bu barədə belə demişdi: "Açığını deyim ki, əvvəllər bu məni bir qədər təəccübləndirdi. Sonralar hiss etdim ki, doğrudan da, içimdə bir oxumaq eşqi, həvəsi var. Odur ki, Bakıya gəlib sənaye institutuna daxil olsam da, xanəndəliyə meyil məni rahat buraxmadı. Beləliklə, mən təhsil aldığım institutun özfəaliyyət ansamblında oxuyur, dinləyici kimi ustad xanəndə Seyid Şuşinskinin dərslərinə gedirdim və hətta L.Şmidt adına zavodda işə düzəlmişdim. Orada da özfəaliyyət ansamblının solisti idim".

İnstitutda mühəndislik öyrənən həvəskar gənc Asəf Zeynallı adına Musiqi Texnikumunun qeyri-rəsmi tələbəsi kimi orada muğamları öyrənib. Sənət yanğısı Baba Mirzəyevi hətta İncəsənət institutunu bitirməyə də sövq etmişdi. Bütün bu çalışmaları gənc Babaya çox şey vermiş və o, muğamlarımıza dərindən bələd olmuşdu.

İstedadlı xanəndə görkəmli bəstəkar, dirijor Səid Rüstəmovun rəhbərlik etdiyi xalq çalğı alətləri orkestri, Əhməd Bakıxanovun, Baba Salahovun, Əhsən Dadaşovun idarəsi ilə fəaliyyət göstərən xalq çalğı alətləri ansambllarının müşayiəti ilə oxuyub. O, düz 10 il Rəşid Behbudovla Mahnı Teatrının tərkibində xarici ölkələrin səhnələrində çıxış edib. Sonra isə "Dastan" folklor ansamblı yaradaraq, bu kollektivlə fəaliyyətini özünəməxsus şəkildə davam etdirib. "Dastan"la da bir çox xarici səfərlərə gedib və Azərbaycan musiqisinin gözəlliyini digər xalqların nümayəndələrinə möhtəşəm şəkildə çatdırıb.

Onun peşəkar səhnə taleyi isə Opera və Balet Teatrından başlayıb. Bir gün eşidir ki, Opera və Balet Teatrında "Gözəl səslər" müsabiqəsi keçirilir. O da gedib həmin müsabiqədə iştirak edir. Maestro Niyazinin rəhbərliyi ilə keçirilən həmin müsabiqədə iştirak edərək, 153 nəfər arasında birinciliyi qazanır və böyük sənət məbədinə solist qəbul olunur. Sonra "Leyli və Məcnun"da baş rolu oynayır.

Baba Məcnun obrazının mətnini, Füzuli yaradıcılığını dərindən dərk etsin deyə, ədəbiyyatşünas alimlərdən Həmid Araslı və Əli Fəhmi ilə görüşür. Bu böyük alimlər, xeyirxah insanlar ona kömək edirlər.

Gənc xanəndə Opera Teatrının müşayiətçi tarzəni, böyük muğam bilicisi Bəhram Mansurovla məşqlərdə onun çalğısı, tövsiyə və tapşırıqları vasitəsi ilə çox şeyi əxz edir. Üstəlik, Məcnun obrazının ruhi aləmini mənimsəmək və tamaşaçıya çatdırmaq üçün o, 6 ay ruhi xəstəxanya gedir, orada müalicə alanların davranış tərzini öyrənməyə çalışır. Nəhayət, Baba əsl Məcnun kimi səhnəyə çıxır, tamaşa zamanı obrazı necə ifa edirsə, izləyənlər elə bilir ki, o, həqiqətən də dəli olub. Beləcə, tərəf-müqabili Nızakət Məmmədova (Leyli) ilə oynadığı tamaşa böyük uğur qazanır.

Gözəl sənətkar təkcə operada oynadığı rolları deyil, yaddaşlarda aşıq, bəstəkar, xalq mahnılarını, muğamları öz tərzində, öz üslubunda ecazkar səslə təqdim edirdi. O, ifa zamanı özündən asılı olmayaraq, təbii şəkildə obraza girir, mahnını hərəkətlərində, üz cizgilərində, bütün varlığında yaşayır, səhnə jestləri ilə tamaşaçını ovsunlayırdı.

Baba Mahmudoğlu 2005-ci ildə Opera və Balet Teatrından təqaüdə çıxıb. Sonra insult keçirib. Həkimlər ona rayonda – təbiətin qoynunda yaşamağı məsləhət görüblər. Bir neçə ay Şamaxı rayonunun Çuxuryurd kəndində yaşamalı olub. 2006-cı il dekabrın 6-da, 66 yaşında vəfat edib. Sənəti və xatirəsi isə yaddaşlarda ölməzlik qazanıb.

***Ə.DOSTƏLİ***
***XQ***

# Lənkəranda Ləvəngi Festivalı



**Lənkəra–Astara Regional Mədəniyyət, Gənclər və İdman idarələrinin təşkilatçılığı, Lənkəran Şəhər İcra Hakimiyyətinin, Milli Kulinariya Assosiasiyasının dəstəyi ilə Lənkəranda Ləvəngi Festivalı keçirilib.**

Özünəməxsus kulinariya bayramında Lənkəran ŞİH başçısı Taleh Qaraşov, Azərbaycan Milli Kulinariya Assosiasiyasının prezidenti Tahir Əmiraslanov, hüquq-mühfizə orqanlarının, rayonda fəaliyyət göstərən idarə, müəssisələrin rəhbərləri və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Cənub bölgəsinin, o cümlədən Lənkəranın ən məşhur yerli təamı olan ləvənginin UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına salınması məqsədilə təşkil olunan festivalda ləvəngidən hazırlanmış müxtəlif növ yeməklər nümayiş etdirilib və Azərbaycan Milli Kulinariya Assosiasiyası tərəfindən hər biri qiymətləndirilib, qaliblərə diplomlar təqdim olunub.




Qeyd edək ki, 2021-ci ilin noyabrın 8-də UNESCO-nun Şəhərlər Platforması tərəfindən Lənkəran şəhəri "qastronomiya" tematikası üzrə yaradıcı şəhərlər sırasına daxil olub. Lənkəran mətbəxinin zənginliyinin tanıdılması istiqamətində indiyədək çoxsaylı tədbirlər keçirilib və işlərin davamı kimi təşkil olunan festivala istər yerli sakinlər, istərsə də şəhərin qonaqları böyük maraq göstəriblər.

Festivalda Lənkəran, Astara, Masallı, Yardımlı, Lerik, Cəlilabad rayonlarında, Şəki–Zaqatala Regional Mədəniyyət İdarəsinin və Şirvan–Salyan Regional Mədəniyyət İdarəsinin tabeliyində fəaliyyət göstərən bədii özfəaliyyət kollektivlərinin ifasında rəngarəng ədəbi-bədii kompozisiyalar nümayiş olunub, müsiqi nömrələri, folklor nümunələri səsləndirilib.



Azərbaycan Milli Kulinariya Assosiasiyasının prezidenti Tahir Əmiraslanov festivalla bağlı təəssüratlarını jurnalistlərlə bölüşərək deyib:

– Ləvəngi hazırlamaq ənənəsinin mədəni bir adət kimi gələcəyə ötürülməsi davam edir. Uşaqların oturub əməli şəkildə bu işi görməsi fərəh doğurur. Mən burada yeni-yeni ləvəngi növləri də gördüm. Çox xoşuma gələn növlərdən biri də ləvəngi çörəyi oldu.

Görünən budur ki, gözəl, günəşli bir gündə "Cənub mirvarisi" adlanan şəhər daha bir mədəniyyət örnəyi ilə könülləri riqqətə gətirib.

***Ə.ƏLİYEV***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 269 (30673) 6 dekabr 2024-cü il, cümə

## FHN əməkdaşı Dünya “gümüşü”nü qazandı

**Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində pauerliftinqin AWPC versiyası üzrə Dünya çempionatı keçirilib. 560-a yaxın idmançının mübarizə apardığı mötəbər yarışda Azərbaycan, Rusiya, Qırğızıstan, Qazaxıstan, Özbəkistan, Belarus, Macarıstan, Çexiya və digər ölkələrin idmançıları qüvvələrini sınayıblar.**



Çempionatda böyük uğura imza atan pauerliftinq üzrə Azərbaycan millisinin üzvü, Fövqəladə Hallar Nazirliyi Akademiyasının əməkdaşı leytenant Orxan Fərzəliyev deadlift hərəkəti üzrə 230 kq, pauerliftinq hərəkəti üzrə isə 585 kq nəticə ilə ikinci yerə layiq görülüb.

*XQ*



# OXUCULARIN NƏZƏRİNƏ!

## “Xalq qəzeti”

***2025-ci il üçün abunə yazılışı kampaniyasını davam etdirir!***




**Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.**

**Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.**

1. “Azərmətbuatyayımı” ASC (012)-440-16-26.
2. “Azərpoçt” MMC (012)-598-49-55, (051)-225-02-13.
3. “Qaya” firması (012)-566-77-80, (050)-214-40-53.
4. “SƏMA-M” MMC (012)-594-02-52, (050)-333-69-69.
5. “ZİYA” LTD (012)-497-76-96, (050)-306-77-44.
6. “PRESSİNFORM” MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat səksən qəpik) manat.

**Hörmətli abunəçilər!**
***Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.***

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


**İdman**

## Parataekvondoçumuz “Dünyanın ən yaxşısı”dır

**Paralimpiya çempionumuz İmaməddin Xəlilov Dünya Taekvondo Federasiyası (WT) tərəfindən 2024-cü ilin ən yaxşı kişi parataekvondoçusu adına layiq görülüb.**



Bu il ərzində iştirak etdiyi bütün turnirlərdə qızıl medal qazanan idmançımız Paralimpiya, dünya və Avropa çempionu titullarına yiyələnib. O, həmçinin dünya reytinqinin hazırkı lideridir. Mükafat təmsilçimizə Honkonqda keçirilən qala gecəsində təqdim olunub.

Qeyd edək ki, idmançımız bu ada Dünya Taekvondo Federasiyasının Texniki Komissiyasının yekdil rəyi əsasında layiq görülüb.

## Avropa Ağırlıqqaldırma Akademiyası Azərbaycanda

**Azərbaycanda ağırlıqqaldırma idmanında tarixi ilkə imza atılıb.**



Beynəlxalq Ağırlıqqaldırma Federasiyasının (IWF) Bəhreyndə keçirilmiş növbəti konqresində Azərbaycanda Avropa Ağırlıqqaldırma Akademiyasının qurulmasına namizədlik təqdimatı böyük maraqla qarşılanıb.

Təqdimat zamanı konqres iştirakçılarına ölkəmizin tarixi, bu günü, turizm potensialı, geniş infrastruktur imkanları, beynəlxalq tədbirlərin təşkili üzrə böyük təcrübəsi, idman nailiyyətləri, həmçinin Azərbaycan Prezidenti İlham Əliyevin idmana dövlət səviyyəsində diqqət və qayğı göstərdiyi barədə məlumat verilib, xüsusi videoçarx nümayiş etdirilib.

Avropa Ağırlıqqaldırma Akademiyasında beynəlxalq məşqçilik kursları, lisenziyalaşdırma üzrə seminar və mühazirələr, həmçinin müvafiq hakimlik məşğələləri, idmançılar üçün dərslər, kateqoriya və ixtisas təlimləri keçiriləcək. Akademiyadakı tədrisdə Avropa və ehtiyac olacağı təqdirdə yaxın region ölkələrinin nümayəndələrinin iştirakı təmin ediləcək. Akademiyanın Bakıdakı ASK Arenada yerləşməsi nəzərdə tutulub.

Qeyd edək ki, dünyada cəmi 5 belə Ağırlıqqaldırma Akademiyası qurulacaq. Azərbaycanla yanaşı bu hüquqa Asiyada Çin, Afrikada Misir, Amerikada Kuba, Okeaniyada isə Samoa sahib olub.

Bununla yanaşı, konqresdə Beynəlxalq Ağırlıqqaldırma Federasiyasının ayrı-ayrı komitələrinin hesabatları dinlənilib, kommersiya tərəfdaşlarının təqdimatı baş tutub. IWF-in konstitusiyasına təklif edilən dəyişikliklər ümumi səsvermə yolu ilə qəbul edilib.

***L.QURBANOVA***
***XQ***

# Gəncəbasarın yeraltı tarixi nələr söyləyir?

## *Şəhər altında “evlər”, yollar, liftlər, palıd çəlləklər...*

**“Dəmir pilləkənlərlə aşağı düşdükcə, hərarətin azaldığını hiss edirik. Sonra qarşımıza uzun bir tunel çıxır, daha sonra sağa-sola yollar ayrılır. Hansı yolun hara getdiyini ayırd etmək çətindir. Paralel istiqamətdə daha bir tunel, sonra daha bir neçə müxtəlif otaqlar... Sanki, bir labirintə düşmüşəm”.**

Bu sətirlər “Xalq qəzeti”nin 13 may 2023-cü il tarixli nömrəsində çap olunmuş “Göygöldə möcüzəli yeraltı “şəhər” sərlövhəli yazıdan götürülüb. Qəzeti demirik, təkcə saytdan oxunma sayı 2 minə yaxınlaşan yazı o vaxt böyük sensasiya yaratmışdı. Çünki həmin yazıyadək heç bir saytın, televiziyanın, qəzetin bu barədə məlumatı yox idi.

Bunu nəyə görə xatırladırıq? Biz tariximizi nə qədər çox araşdırsaq, onun qədimiliyini konkret faktlarla ortaya qoya bilsək, bir o qədər gələcək nəsil qarşısında üzümüz ağ olar. Göygöl Rayon İcra Hakimiyyətinin təşəbbüsü və daxili imkanları ilə “yeraltı şəhər”in tullantılardan təmizlənərək bir muzeyə çevrilməsini təqdir etmişdik. Təsəvvür edirsinizmi, unudulmuş, baxımsız qalmış unukal bir tarixi memarlıq abidəsindən 100 maşın zibil çıxarılmışdı. Amma indi, “iki il yaxın bir vaxt ərzində oranı 20 min nəfərdən çox adam seyr edib ki, onun da 42 faizi xarici qonaqlardır”.



Yerli və xarici turistlərə çox böyük həvəslə bələdçilik edən Raul Abbaszadə bu faktları deyib əlavə etdi ki, “şəhərə gələn qonaqlar öz heyrətlərini gizlədə bilmirlər. Bayırda 40 dərəcə isti olduğu halda “yeraltı şəhər”ə düşüb 15-16 dərəcə hərarətlə qarşılaşırlar, 150-160 il qabaq quraşdırılmış lifti görürlər, şərab çəlləklərinə baxırlar...”

Bəs Gəncəbasarda bu cür yeraltı yollar, “şəhərlər” ayrı hansı rayonlarda var və həmin tarixi yerlər də Göygöldə olduğu kimi turistlərə açıqdırmı?

Suala cavab vermədən əvvəl qeyd edək ki, Gəncəni əhatə edən Şəmkir, Göygöl və Samux rayonlarında oxşar yeraltı yollar mövcuddur. Doğrudur, Gəncədə XVI-XVII əsrlərdə salınmış “yeraltı şəhər” tapılıb, hətta orada fayton yolu olduğu da deyilir. Amma gəlin bu yolları, yeraltı şəhəri indi söhbət açdığımız yollarla qarışdırmayaq. Çünki bu, ayrı bir yazının mövzusudur və yaxın nömrələrimizin birində Gəncənin mübahisələrə səbəb olan qədim “yeraltı şəhər”i barədə ayrıca geniş yazı verəcəyik.

Bu yazıda isə yalnız 1860-cı ildən sonra Forer qardaşlarının Gəncəbasarda inşa etdikləri yeraltı tikililərdən, qırmızı kərpicdən hörülmüş, dərinliyi 10-15, bəzən 20 metrə çatan nəhəng şərab anbarlarından – kiçik yeraltı “şəhərlər”dən söhbət açacağıq.

...Gəncədəki şərab anbarı XIX əsrin 90-cı illərində alman sahibkarları Forer qardaşları tərəfindən dəmiryol vağzalının yaxınlığında inşa olunmuşdur. Məlumdur ki, Forer qardaşları zavodlarını, üzüm sahələrinin məhsulunu Rusiya və dünya bazarlarına rahat çatdırılması üçün Zaqafqaziya dəmiryol stansiyalarının yaxınlığında inşa etdirirdilər. Bu zirzəmi genişliyi və iki mərtəbəli olması ilə digərlərindən fərqlənir. Zirzəmilər divarların içi ilə hərəkət edən xüsusi havalandırma sistemi ilə təchiz olunmuşdu. Yerli kolonistlər tərəfindən dəqiqlik və peşəkarlıqla hazırlanmış zirzəmilər, təxminən, yerin 20 metr dərinliyində bişmiş qırmızı kərpicdən istifadə edilərək hazırlanıb. Gəncə ətrafında əsasən “Vağzalyanı”, “Sadıllı” və “Xaraba yeri” adlanan yerlərdə Forer və Hummel qardaşlarının böyük üzüm bağları olmuşdur. Məhz bu bağlardan toplanan üzümdən alınan şərablar həmin zirzəmidə saxlanılırdı.

Elə ərazisi Göygöl rayonundakı “yeraltı şəhər” boyda olan başqa bir yeraltı tarixi abidə Samux rayonunun Qarayeri qəsəbəsindədir. Burada Forer qardaşları tərəfindən inşa edilən şərab zavodu var və o bu gün də fəaliyyət göstərir. Məlumat üçün bildirim ki, Forer qardaşları Qarayeri kəndində üzüm bağları da saldırıblar. Maraqlıdır ki, o dövrdə zavodda istehsal olunan şərab Avropada satılırmış. Qarayeri şərabı dəfələrlə Avropada keçirilən şərab festivallarının qızıl mükafatına layiq görülüb. Oktyabr inqilabından sonra zavodun alman sahibləri Azərbaycanı tərk edib.

Zavodun çox unikal zirzəmisi var. Dərinliyi 10 metrə çatan zirzəmi qırmızı kərpiclə hörülüb. Bir zamanlar zirzəmidə palıd çəlləklər olub. Üzərindəki bina isə 1896-cı ildə tikilib. Zavodun direktor müavini Ramiz Məmmədov söhbət zamanı dedi ki, “bu cür zirzəmiləri olan tikili Azərbaycanda çox deyil, 2-3 yerdədir. Forer qardaşları əvvəlcə yüz hektarlarla üzüm bağları salıb, daha sonra gördüyünüz bu zavodun binasını və zirzəmisini inşa ediblər.”

İkinci Dünya müharibəsi illərində, yəni almanlar bu yerlərdən sürgün edildikdən sonra Forerlərin Qarayeri təsərrüfatı əsasında üzümçülük sovxozu yaradılıb. Təsərrüfata bu dəfə J. Skoçiomaro rəhbərlik edib və həyatının son günlərinədək, yəni 1944-cü ilə kimi Qarayeridə yaşamış və elə orada, X.Forerin saldığı parkda dəfn olunub. Yeri gəlmişkən, turizm təşkilatları, yerli icra orqanları bu tarixi şəxsiyyəti qonaqlara yaxından tanıtmaq üçün onun haqqında daha geniş məlumatlar toplayıb ayrıca bir lövhə vursalar daha yaxşı olardı. Parkda italyan mütəxəssisin ad və familiyası, doğulduğu və vəfatı tarixindən başqa ayrı heç nə yoxdur.



Şəmkirdə də Forer qardaşlarının tikdirdiyi zavod öz tarixiliyi baxımından diqqət çəkir. İndiki 2 saylı şərab zavodu Qarayeridəki zavodun salındığı dövrə təsadüf edir, 1860 – 1890-cı illərə aiddir. Burada alman Xristo Forer qardaşları tərəfindən təsis edilən və quraşdırılan avadanlıqların indiyədək işləməsi yüksək alman keyfiyyətindən xəbər verir. Müxtəlif növ üzümlərdən çəkilən şərabların müəyyən hissəsi hələ də yaşı 100 ildən çox olan nəhəng palıd çəlləklərdə saxlanılır. Zavodun zirzəmisi də yuxarıda qeyd etdiyimiz zirzəmilər kimi çox böyük ustalıqla inşa edilib və heyran olmamaq mümkün deyil. Bura turistlər üçün çox böyük maraq kəsb edən tarixi bir yerdir.




Qeyd edək ki, şərabçılığın inkişafı və “Forer qardaşları” şirkətinin müvəffəqiyyəti çəllək istehsalının genişlənməsinə təkan vermişdir və alman kolonistlərinin uğur qazandığı sahələrdən birinə çevrilmişdir. Johann Kun, Ernest Karer, Karl Tsekhin, Fridrix və Gottlieb Wacker qardaşları kimi sənətkarların adları Gəncəbasarda məşhur olmuşdur. Onların Laçın meşələrinin yüzillik palıdlarından hazırladığı çəlləklər bir çox şərabçılar tərəfindən tövsiyə olunurdu və keyfiyyət rəmzinə çevrilmişdi.

Fotoşəkillərin birində “Forer qardaşları ticarət evi” (indiki Göygöl Şərab Zavodu) şərab zavodunun əməkdaşları, palıd çəlləklərdə saxlanılan şərabın keyfiyyətini qiymətləndirdikləri yerdə təsvir olunurlar. Bu və ya digər şəkillər, tarixi faktlar adi sənədlər deyil, keçmişə bir səyahətdir. Gərək bu səyahətdə təkcə həmin şəhər və rayonların sakinləri deyil, xarici qonaqlar da yaxından iştirak etsin. Adları çəkilən tarixi yerlərin heç də hamısı hələ də istənilən şəkildə təbliğ olunmur, bəzən də nədənsə gizli saxlanılır.Turist marşrutlarının bir çoxu formal xarakter daşıyır və bu unikal yerlərin nümayişi məhduddur.

Elə tarixi faktlar var ki, bunları xarici ölkə vətəndaşlarına o ünvanlarda olarkən sənəd-sübutla göstərmək, danışmaq lazımdır. Məsələn, tarix elmləri doktoru, professor Həsən Sadıqovla bu mövzuda söhbət edərkən maraqlı bir faktı qeyd etdi və dedi ki, “1907-ci ildə Gəncədə “Daşnaksütyun” partiyasının üzvlərinə qarşı cinayət işi açılmışdır. Şəhər pristavının köməkçisinin imzaladığı sənəddə qeyd olunur ki, 1905-ci ildən 1907-ci ilin avqustunadək “Daşnaksütyun”un yerli təşkilatının rəhbəri Koryun, silahdaşları Arutyunov qardaşları ilə birlikdə Helenendorf (indiki Göygöl rayonu) almanları partiyanın xəzinəsinə xərac verməyə məcbur ediblər. Helenendorf almanları məcburiyyət qarşısında partiyanın xəzinəsinə xərac veriblər. Daşnaklar yalnız bununla kifayətlənməyib, “iştah diş altındadır”, deyiblər. Partiyanın xəzinəsinə pul keçirilməsinə nail olandan sonra şərab istehsalçıları olan Forer və Qurrdan hərəyə 30 min rubl pul da tələb ediblər. Qurr bu məbləği ödəyə bilmədiyi üçün partiyanın yerli təşkilatının qərarı ilə qətlə yetirilib”.

Bir yazıda bütün faktları sadalamaq olmur. Gəncəbasardakı yeraltı yollar, zirzəmilər ölkəmizi tanıtmaq, xalqımızın tolerantlığını faktlarla sübut etməkdən əlavə, həm də bir çürur obyektləridir. Gərək qoruyub saxlamaqla bərabər, yaxşı təbliğ etməyi də bacaraq, Göygöl rayonunda olduğu kimi.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***
**Göygöl**

**Hava**

## Abşeronda yağış, Aranda yağmursuz, dağlarda qar

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, dekabrın 6-da Bakıda və Abşeron yarımadasında gün ərzində bəzi yerlərdə fasilələrlə yağış yağacağı gözlənilir.**

Axşam ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək. Gecə 5-7°, gündüz 8-11° isti olacaq. Atmosfer təzyiqi 772 mm civə sütunu, nisbi rütubət 80-85 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək.

Lakin axşam bəzi şərq rayonlarında az yağıntılı olacağı, axşam yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 1° şaxtadan 4°-dək isti, gündüz 8-12° isti, dağlarda gecə 6-11° şaxta, gündüz 3° şaxtadan 2°-dək isti olacaq.

***Q. QASIMOV***
***XQ***

✓ ***2024-cü il aprelin 5-də Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən Məlikova Foziya Pərviz qızının adına verilmiş 057116 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.***

✓ ***“Ümid işığı” Xeyriyyə Mərkəzinə məxsus dairəvi möhür itdiyi üçün etibarsız sayılır.***


**BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

| | |
|---|---|
| İNDEKS | 0282 |
| TİRAJ | 4001 |
| SİFARİŞ | 2796 |
| QİYMƏTİ | 60 qəpik |

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır 00:00